# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

# TRANSACTIONS OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

**2023, C. 71, № 4**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası
Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2023, C.71, №4**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova
Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2023***
***©ASPU, 2023***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Cəfərli R.C.***
BRİTANİYA SLENQ LEKSİKONUNDA İNCƏSƏNƏT VƏ TEATR SLENQLƏRİ ... 9
***Əkbərova G.V.***
AZƏRBAYCAN POEZİYASINDA TƏKRARLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ (VAHİD ƏZİZ POEZİYASI ƏSASINDA) ................................................ 15
***Kazimi P.F., Usubaliyev O.B.***
MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTAB MƏHSULLARININ TİRAJ XÜSUSİYYƏTLƏRİ ................................................ 24
***Rəcəbova N.N.***
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN ROLU VƏ ONUN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI ................................................ 33
***İsmayılova T.H.***
QARABAĞIN TARİXİ HƏQİQƏTLƏRİNİ ƏKS ETDİRƏN, SOYQIRIMA MƏRUZ QALAN TOPONİMLƏRİ ................................................ 45

## *İctimai elmlər*

***Abbasova R.Ə.***
AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU (1969-1982-ci illər) ................................................ 52
***Alışanova L.A.***
BAKI XALQ TƏSƏRRÜFATI ŞURASININ FƏALİYYƏTİ İLƏ BAĞLI LƏĞVETMƏ KOMİSSİYASININ İŞLƏRİNƏ DAİR (1918-1919-cu illər) .................... 59
***Bəndəliyeva A.A.***
ORTA ƏSRLƏRDƏ ƏCZAÇILIĞIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİNİN ÖYRƏNİLMƏSİ ................................................ 69
***Hacıyev O.Y.***
CƏMİYYƏTDƏ ORTA SİNİF PROBLEMİNİN SOSİAL-FƏLSƏFİ TƏHLİLİ ............ 81
***Klimov S.L.***
AZƏRBAYCAN İCTİMAİ DİPLOMATİYASININ REALLAŞDIRILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ ................................................ 94
***Quliyev T.Ə.***
SƏFƏVİ, OSMANLI, ƏFŞAR, ZƏND VƏ QACAR ŞAHLARININ TİFLİS ZƏRBLƏRİ ................................................ 105
***Nəcəfov Ə.Ş., Kərimli A.T.***
TARİXİMİZİN HƏR SƏHİFƏSİ BİZİM ÜÇÜN ƏZİZDİR ................................................ 115
***Rzayeva Y.Ə.***
İDARƏETMƏNİN VƏ SİYASƏTİN İNSTİTUSİONAL ƏSASLARI ............................ 128

## *Pedaqoji-psixoloji elmlər*

***Ağayeva E.A.***
İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRƏ MARAQ OYADILMASI VƏ MÜTALİƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI ................................ 138

***Estrova S.T.***
HAVA HƏRƏKƏTİNİN İDARƏ EDİLMƏSİ (HHİE) DİSPETÇER TƏLİMATÇININ PSİXOQRAMININ MODELİ ........ 144
***Kazantseva E.V., Qarkuşa V.A.***
MÜASİR AİLƏDƏ QARŞILIQLI ASILILIQ DAVRANIŞININ FORMALAŞMASININ XÜSUSİYYƏTLƏRİ ........ 153
***Mudasir Ali Rind, Əliyev P.B.***
SÜNİ İNTELLEKT VƏ TƏHSİL: ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ TƏLƏBƏLƏRİNİN PEDAQOJİ İNKİŞAFININ TƏHLİLİ ........ 163
***Səmədova S.R.***
NEYROELM ZƏMİNİNDƏ TƏŞKİL OLUNMUŞ ÖYRRƏNMƏNİN PSİXO-PEDAQOJİ ASPEKTLƏRİ ........ 174
***Verdiyeva A.B.***
KOMPETENSİYA ƏSASLI QİYMƏTLƏNDİRMƏNİN FORMALAŞDIRILMASI ..... 182

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Джафарли Р.Дж.***
СЛЕНГИ ИСКУССТВА И ТЕАТРА В ЛЕКСИКОНЕ БРИТАНСКОГО СЛЕНГА 9
***Акперова Г.В.***
СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОВТОРОВ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ (НА ОСНОВЕ ПОЭЗИИ ВАХИДА АЗИЗА) ........................................... 15
***Казими П.Ф., Усубалиев О.Б.***
ТИРАЖНЫЕ ОСОБЕННОСТИ КНИЖНОЙ ПРОДУКЦИИ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ .................................................. 24
***Раджабова Н.Н.***
РОЛЬ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНТНОСТИ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ И ПУТИ ЕЕ РАЗВИТИЯ ............................................. 33
***Исмаилова Т.Г.***
ТОПОНИМЫ, ОТРАЖАЮЩИЕ ИСТОРИЧЕСКИЕ ИСТИНЫ КАРАБАХА, ПОДВЕРГШИЕСЯ ГЕНОЦИДУ ........................................................................ 45

## *Общественные науки*

***Аббасова Р.А.***
РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА В 1969-1982-х ГОДАХ ……………………………………………………..........… 52
***Алышанова Л.А.***
К ВОПРОСУ О РАБОТЕ ЛИКВИДАЦИОННОЙ КОМИССИИ ПО ДЕЛАМ БАКИНСКОГО СОВЕТА НАРОДНОГО ХОЗЯЙСТВА (1918-1919 гг.) ............... 59
***Бандалиева А.А.***
ИЗУЧЕНИЕ ХАРАКТЕРНЫХ ОСОБЕННОСТЕЙ ФАРМАКОЛОГИИ В СРЕДНИЕ ВЕКА ............................................................................................ 69
***Гаджиев О.Ю.***
СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ПРОБЛЕМЫ СРЕДНЕГО КЛАССА В ОБЩЕСТВЕ ................................................................................................... 81
***Климов С.Л.***
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РЕАЛИЗАЦИИ ПУБЛИЧНОЙ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА ......................................................................................... 94
***Кулиев Т.А.***
ТИФЛИССКАЯ ЧЕКАНКА МОНЕТ ШАХОВ СЕФЕВИДОВ, ОСМАНОВ, АФШАРИДОВ, ЗЕНДОВ И КАДЖАРОВ ........................................................... 105
***Наджафов А.Ш., Каримли А.Т.***
НАМ ДОРОГА КАЖДАЯ СТРАНИЦА НАШЕЙ ИСТОРИИ ................................ 115
***Рзаева Е.А.***
ИНСТИТУЦИОНАЛЬНЫЕ ОСНОВЫ УПРАВЛЕНИЯ И ПОЛИТИКИ ................ 128

## *Педагогико-психологические науки*

***Агаева Э.А.***
ПРОБУЖДЕНИЕ ИНТЕРЕСА К ХУДОЖЕСТВЕННЫМ ПРОИЗВЕДЕНИЯМ И ФОРМИРОВАНИЕ КУЛЬТУРЫ ЧТЕНИЯ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ ............................................................................................................ 138

***Эстрова С.Т.***
МОДЕЛЬ ПСИХОГРАММЫ ИНСТРУКТОРА-ДИСПЕТЧЕРА УВД (УПРАВЛЕНИЯ ВОЗДУШНЫМ ДВИЖЕНИЕМ) …………………………………………… 144
***Казанцева Е.В., Гаркуша В.А.***
СПЕЦИФИКА ФОРМИРОВАНИЯ СОЗАВИСИМОГО ПОВЕДЕНИЯ В УСЛОВИЯХ СОВРЕМЕННОЙ СЕМЬИ ……………………………………………… 153
***Мудасир Али Ринд, Алиев П.Б.***
ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ И ОБРАЗОВАНИЕ: АНАЛИЗ ПЕДАГОГИЧЕСКОГО РАЗВИТИЯ ОБУЧАЮЩИХСЯ ВУЗОВ .......................... 163
***Самадова С.Р.***
ПСИХО-ПЕДАГОГИЧЕСКИЕ АСПЕКТЫ ОБУЧЕНИЯ ОРГАНИЗОВАННОГО НА ОСНОВЕ НЕЙРОНАУКИ ......................................................................... 174
***Вердиева А.Б.***
ФОРМИРОВАНИЕ ОЦЕНКИ НА ОСНОВЕ КОМПЕТЕНЦИИ ............................ 182

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Jafarli R.J.***
ART AND THEATRE SLANGS IN THE LEXICON OF BRITISH SLANG ............... 9
***Akbarova G.V.***
STYLISTIC FEATURES OF REPETITIONS IN AZERBAIJANI POETRY (BASED ON THE POETRY OF VAHID AZIZ) ........................................................................... 15
***Kazimi P.F., Usubaliyev O.B.***
CIRCULATION FEATURES OF BOOK PRODUCTS IN AZERBAIJAN IN THE YEARS OF INDEPENDENCE ........................................................................... 24
***Rajabova N.N.***
THE ROLE OF THE COMMUNICATIVE COMPETENCE IN TEACHING OF THE ENGLISH LANGUAGE AND THE WAYS FOR ITS DEVELOPMENT .................... 33
***Ismailova T.Kh.***
TOPONYMS REFLECTING THE HISTORICAL TRUTHS OF KARABAKH, SUBJECT TO GENOCIDE ........................................................................... 45

## *Social sciences*

***Abbasova R.A.***
THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF AZERBAIJANI CULTURE IN THE 69s AND 82s ………..…………………………………..……… 52
***Alishanova L.A.***
REGARDING THE WORK OF THE LIQUIDATION COMMISSION RELATED TO THE ACTIVITIES OF THE BAKU NATIONAL ECONOMIC COUNCIL (1918-1919 yy.) ………………..…………………...……………………………….. 59
***Bandalieva A.A.***
STUDY OF THE CHARACTERISTIC FEATURES OF PHARMACOLOGY IN THE MIDDLE AGES ……………..…………………….…………......………………….. 69
***Hajiyev O.Y.***
SOCIO-PHILOSOPHICAL ANALYSIS OF THE MIDDLE CLASS PROBLEM IN SOCIETY ........................................................................................................ 81
***Klimov S.L.***
MAIN DIRECTIONS OF IMPLEMENTATION OF PUBLIC DIPLOMACY IN AZERBAIJAN ……………………………………………………………..……... 94
***Guliyev T.A.***
TIFLIS COINAGE OF SAFAVID, OTTOMAN, AFSHARID, ZENDI AND QAJAR SHAHS ……………………………………………………………………..……... 105
***Najafov A.Sh., Karimli A.T.***
EVERY PAGE OF OUR HISTORY IS DEAR TO US ………………………………... 115
***Rzayeva Y.A.***
INSTITUTIONAL FOUNDATIONS OF GOVERNANCE AND POLITICS ………... 128

## *Pedagogical-psychological sciences*

***Aghayeva E.A.***
CULTIVATING INTEREST IN LITERARY WORKS AND FORMING A READING CULTURE AMONG PRIMARY SCHOOL STUDENTS ........................ 138

***Estrova S.T.***
MODEL OF THE PSYCHOGRAM OF AN ATC (AIR TRAFFIC CONTROL) INSTRUCTOR ........................................................................................................... 144
***Kazantseva E.V., Garkusha V.A.***
THE SPECIFICS OF THE FORMATION OF CODEPENDENT BEHAVIOR IN THE CONDITIONS OF THE MODERN FAMILY ........................................................ 153
***Mudasir Ali Rind, Aliyev P.B.***
ARTIFICIAL INTELLIGENCE AND EDUCATION: ANALYSIS ABOUT PEDAGOGICAL DEVELOPMENT OF LEARNERS FROM HIGHER EDUCATIONAL INSTITUTIONS ...................................................................................... 163
***Samadova S.R.***
PSYCHOLOGICAL AND PEDAGOGICAL ASPECTS OF LEARNING ORGANIZED BASED ON NEUROSCIENCE .............................................................. 174
***Veridyeva A.B.***
FORMULATION OF COMPETENCY BASED ASSESSMENT .................................. 182

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №4, s. 9-14
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №4, pp. 9-14

# Humanitar elmlər

*UOT 811.111*

***R.C.Cəfərli***
*Naxçıvan Dövlət Universiteti*
*r.jafarli@ndu.edu.az*

## BRİTANİYA SLENQ LEKSİKONUNDA İNCƏSƏNƏT VƏ TEATR SLENQLƏRİ

***Açar sözlər:*** *slenq, sosial qruplar, qeyri-rəsmi lay, dilin funksiyası, sosial əlaqə*

Slenqlərin əsas funksiyası cəmiyyətin müxtəlif sosial qruplarının öz aralarında yaratdıqları əlaqənin məxfiliyini təmin etməkdir. XX əsrdə şifahi nitqə verilən dəyərin artması ilə qeyri-rəsmi layın bir növü kimi slenqlər cəmiyyətin, demək olar ki, bütün zümrələri və qrupları tərəfindən istifadə edilməkdə idi. Müəyyən bir sosial qrup arasında istifadə edilən ifadələr zamanla öz məxfiliyini itirir və digər sosial qruplar tərəfindən anlaşılan, ümumişlək sözlərə çevrilir. Slenqlər cəmiyyətin və dilin zənginliyini göstərən maraqlı və əhəmiyyətli ünsürlərdən biridir. Slenq leksikonu ilə tanış olmaqla bir xalqın yaşam tərzinə, rifah halına və mədəniyyətinə dair bir çox məlumat əldə etmək olur. Slenqlər həmçinin dilin funksiyasına dair təkan verir, onun yaradıcılığı, sərhədlərini, elastikliyini və məruz qaldığı dəyişiklikləri göz önünə sərir. İnsanlar danışıqlarında slenqlərdən istifadə edərkən dilin sosial cəhətdən vurğulamaq istədikləri funksiyalarını da yerinə yetirmiş olurlar. Slenq istifadəçiləri kommunikasiyada olduğu şəxs və ya şəxslərlə eyni nitq səviyyəsində olduğuna diqqət çəkmək, sosial əlaqəni asanlaşdırmaq, dostluq və səmimiyyət yaratmaq üçün dilin bu qeyri-rəsmi layından istifadə etməyə üstünlük verirlər. Bir çox tədqiqatçılar slenqlərdən istifadənin üç əsas funksiyasının olduğunu bildirmiş və qeyd etmişlər ki, bu funksiyalardan birincisi, sosial funksiyadır ki, istifadəçilər cəmiyyətin müxtəlif sosial qruplara aid olduqlarını isbat və vurğulamaq üçün istifadə edirlər. İkincisi, psixoloji ehtiyaclardan dolayı emosional hisslərini ifadə etmək üçün slenqlərə tez-tez müraciət edirlər. Üçüncüsü isə fiziki funksiyasıdır ki, insanlar gündəlik danışıqlarında pozitiv yönlərini göstərməkdə slenqlərdən istifadə edirlər.

***Р.Дж.Джафарли***

## СЛЕНГИ ИСКУССТВА И ТЕАТРА В ЛЕКСИКОНЕ БРИТАНСКОГО СЛЕНГА

***Ключевые слова:*** *сленг, социальные группы, неформальный слой, функция языка, социальная связь*

Основная функция сленга – обеспечение конфиденциальности общения между разными социальными группами. В двадцатом веке, когда значение устной речи возросло, сленг стал формой неформального использования почти всеми слоями общества. Выражения, используемые между определенными социальными группами, со временем теряют конфиденциальность и становятся общеупотребительными словами, понятными для других социальных групп. Сленг – один из самых интересных и важных элементов богатства общества и языка. Изучая сленговую лексику, можно много узнать об образе жизни, благосостоянии и культуре нации. Сленг также стимулирует функцию языка, подчеркивая его творческий потенциал, границы, гибкость и изменения, которым он претерпевает. Когда люди исполь-зуют сленг в своей речи, они также выполняют функции языка, которые они хотят подчеркнуть в социальном плане. Пользователи сленга предпочитают использовать этот неформальный языковой слой, чтобы подчеркнуть, что они говорят на том же уровне, что и человек или люди, с которыми они общаются, для облегчения социального взаимодействия, а также для создания дружбы и искренности. Многие исследователи заявили, что использование сленга выполняет три основные функции, отмечая, что это первая социальная функция, которую пользователи используют, чтобы доказать и подчеркнуть принадлежность общества к разным социальным группам. Во-вторых, сленг часто используется для выражения эмоциональных чувств, связанных с психологическими потребностями. Третья физическая функция заключается в том, что люди используют сленг, чтобы показать свою положительную сторону в повседневных разговорах.

***R.J.Jafarli***

## ART AND THEATRE SLANGS IN THE LEXICON OF BRITISH SLANG

***Keywords:*** *slang, social groups, informal layer, function of language, social connection*

The main function of slang is to ensure the confidentiality of communication between different social groups. In the twentieth century, with the increasing value of oral speech, slang was used by almost all sections of society as a type of informal layer. Expressions used between certain social groups lose their confidentiality over time and become common words and understood by other social groups. Slang is one of the most interesting and important elements of the richness of society and language. By getting acquainted with the slang lexicon, one

can learn a lot about the way of life, welfare and culture of a nation. Slang also stimulates the function of language, highlighting its creativity, boundaries and elasticity. When people use slang in their speech, they also perform the functions of language that they want to emphasize socially. Slang users prefer to use this informal layer of language to emphasize that they are at the same level of speech as the person or persons with whom they are communicating, to facilitate social communication, and to create friendship and sincerity. Many researchers have stated that the use of slang has three main functions, noting that these functions are the first social function that users use to prove and emphasize that society belongs to different social groups. Second, slang is often used to express emotional feelings due to psychological needs. The third physical function is that people use slang to show their positive side in their daily conversations.

**Giriş**

Dil davamlı dəyişir, inkişaf edir və dövrün tələbləri ilə uyğunlaşır. Bu məhz ingilis dilində də özünü bariz bir şəkildə büruzə verməkdədir. Belə ki, XVI əsrə aid olan Şekspirin əsərlərini oxuyub anlamaq bu dövrün oxucuları üçün çox çətindir. Dörd əsr boyunca ingilis dilində baş vermiş dəyişikliklər o əsərləri tam anlamı ilə başa düşməyə imkan vermir. Altı əsrlik bir tarixi əhatə edən slenqlər əhatə dairəsinin genişliyinə görə dilin qeyri-rəsmi layının növləri arasında xüsusi yer tutur. Slenqlər cəmiyyətin bir çox zümrələri tərəfindən istifadə olunur və bu da növ kateqoriyasının zənginliyinə gətirib çıxarır. Bu kontekstdən yanaşaraq dil tədqiqatlarında slenqləri müxtəlif sayda kateqoriyalara bölürlər. Belə ki, tədqiqatçı alim Partric slenqləri on bir əsas kateqoriyaya ayırır [1, s.38]. Ancaq Partricin kateqoriyasına nəzər yetirdikdə bəzi növlərin bu bölgüdə əksini tapmadığını da müşahidə edirik. XXI əsrdə elm və texnikada, eləcə də mədəniyyət, sosial həyatda baş verən yenilik, dəyişikliklərin də təsiri ilə slenqləri daha artıq sayda növ kateqoriyasına bölmək olar. Slenqlər təbiətindən dolayı cəmiyyətin müəyyən kütlələri tərəfindən istifadə edilən gizli bir dildir. Amma daha çox yeniyetmələr tərəfindən istifadə halları tədqiqatlar sayəsində özünü göstərməkdədir. Yeniyetmələr kənar şəxslər tərəfindən anlaşılmadan öz qrupları arasında sərbəst şəkildə slenqlərdən istifadə edir.

İnsanlar danışıqlarında slenqlərdən istifadə edərkən dilin sosial cəhətdən vurğulamaq istədikləri funksiyalarını da yerinə yetirmiş olurlar. Tədqiqatçı alim Mattiello öz araşdırmasında vurğulayır ki, slenq istifadəçiləri kommunikasiyada olduğu şəxs və ya şəxslərlə eyni nitq səviyyəsində olduğuna diqqət çəkmək, sosial əlaqəni asanlaşdırmaq, dostluq və səmimiyyət yaratmaq üçün dilin bu qeyri-rəsmi layından istifadə etməyə üstünlük verir.

Dil istifadəçiləri daima ona hər hansı bir dəyişiklik, yenilik gətirmək niyyətində olur və bunun da nəticəsində dildə müəyyən dəyişikliklər,

yeniliklər baş verir. Beləliklə, bu təsirlər əsasında dilə yeni anlayışlar daxil olması zərurətə çevrilir. Bu anlayışlardan biri də məhz slenqlərdir. Bu gün minlərlə insan gündəlik kommunikasiyasında slenqlərə tez-tez müraciət edir. Öncələri insanlar dilin bu qeyri-rəsmi layına alçaldıcı, təhqiredici dil variasiyası kimi yanaşsa da, bu gün artıq insanlar özlərini fərqləndirmək, hər hansı bir zümrənin, peşə sahəsinin bir parçası olduğunu isbat etmək üçün istifadə edir. Slenqlə dilin bu münasibətləri onu deməyə əsas verir ki, dil mövcud olduğu müddətcə slenq də öz varlığını qoruyacaqdır. Dil inkişaf etdikcə onun slenq leksikonu da inkişaf edəcəkdir və əksinə, əgər dil tənəzzülə məruz qalarsa, o zaman onun ayrılmaz hissəsi olan qeyri-rəsmi lay və onun bir növü olan slenqlər də məhz tənəzzül edəcəkdir.

Altı əsrlik bir tarixi əhatə edən slenqlər əhatə dairəsinin genişliyinə görə də dilin qeyri-rəsmi layının növləri arasında xüsusi yer tutur. Slenqlər cəmiyyətin bir çox zümrələri tərəfindən istifadə olunur və bu da növ kateqoriyasının zənginliyinə gətirib çıxarır. Bu kontekstdən yanaşaraq dil tədqiqatlarında slenqləri müxtəlif sayda kateqoriyalara bölürlər. Belə ki, tədqiqatçı alim Partric slenqləri on bir əsas kateqoriyaya ayırır. Ancaq Partricin kateqoriyasına nəzər yetirdikdə bəzi növlərin bu bölgüdə əksini tapmadığını da müşahidə edirik. XXI əsrdə elm və texnikada, eləcə də mədəniyyət, sosial həyatda baş verən yenilik, dəyişiklikləri nəzərə alaraq slenqləri 16 növ kateqoriyasına bölmək olar. Bu kateqoriyalar içərisində incəsənət və teatr sənəti ilə bağlı slenqlər mühüm yer tutmaqdadır və bu növ slenqlər leksikonda öz rəngarəngliyi ilə seçilir.

**İncəsənət slenqləri** incəsənət xadimləri arasında danışıqlarının gizliliyini təmin etmək üçün istifadə edilsə də, incəsənət bütün cəmiyyətə sirayət etdiyindən ona xas terminlər və ya slenq kimi gizliliyin təmin edilməsi üçün istifadə edilən ifadələr zamanla ictimailəşir və cəmiyyətin, demək olar ki, bütün zümrələri tərəfindən bilinir. Belə ki, incəsənət slenqi kimi leksikona daxil olan ifadələr insanlar tərəfindən asanlıqla qəbul olunurlar. İngilis leksikoqrafı J.Partric incəsənət slenqlərinin XVII əsrdə meydana gəldiyini və ilk dəfə "A Fovial Crew" adlı komediya işində Riçard Brome tərəfindən istifadə edildiyini qeyd edir. İncəsənət slenqlərinə nümunə olaraq bir neçə ifadəni təqdim edirik. *From an important collection* – "əhəmiyyətli bir kolleksiyadan" mənasını ifadə edən bu slenq orta keyfiyyətdə olan əsərlərin auksionlarda qiymətini yüksəltmək üçün istifadə edilən ifadədir. *Secondary market* – "ikinci əl bazarı" ifadəsi incəsənət slenqi kimi istifadə edilən və əhatə dairəsinə görə fərqlənən ifadədir. Bu slenq əsasən bir əsərin daha öncə başqasına aid olduğunu və təkrarən auksiona çıxarıldığını bildirmək üçün istifadə edilir [2, s.232]. *New ink movement* – "yeni mürəkkəb hərəkatı" ifadəsi incəsənət slenqi kimi leksikona daxil olmuşdur. Gənc sənətçilərin mədəni irsin izlərini qorumaq

və ənənəvi metodlardan istifadə edərək ərsəyə gətirdikləri sənət əsərləri üçün istifadə edilən slenqdir. *Directly from studio* – "birbaşa emalatxanadan" kimi tərcümə edilən bu ifadə rəssamlar tərəfindən istifadə edilən slenqdir. Leksikonda öz yerini alan bu ifadə əsasən əsərlərin satışı zamanı rəssamların və ya satıcıların müştərilərin gözündə əsərin qiymətli olduğuna və daha öncə heç kəs tərəfindən görülmədiyinə diqqət çəkmək üçün istifadə edilir [4].

**Teatr slenqləri.** Teatral əsərlər hadisələrin canlandırılaraq tamaşaçıya çatdırılmasıdır. Şekspirin ifadə etdiyi kimi, teatr insanı insana insanla və insanca anlatma sənətidir. Teatr incəsənətin ayrılmaz bir parçasıdır və dolayısı ilə də teatr sahəsində yaranmış slenqlər həm də incəsənət slenqləri içərisində özünə yer tutmuşdur. 1909-cu ildə ingilis yazıçı Ceyms Reddinq "Passing English of the Victorian Era" adlı lüğət hazırladı və nəşr etdirdi. Ceyms Reddinq Viktoriya dövrünə aid aktyor, aktrisa, teatr rejissorları, səhnə arxasında çalışan insanlar tərəfindən istifadə edilən bir sıra slenq söz və ifadələri topladı və lüğət halında oxuculara, teatr həvəskarlarına təqdim etdi. Bu lüğət sayəsində insanlar teatr aləmində istifadə edilən slenqlər haqqında xəbərdar oldular. Müəllifin lüğətində yer verdiyi bir neçə slenq ifadələr aşağıdakı kimidir [1, s.155]. *Blue fire* – "mavi alov" kimi Azərbaycan dilinə tərcümə edilən bu ifadə Viktoriya dövrü teatrlarında istifadə edilən və səhnədə vahiməli mavi parıltı yaratmaq üçün tərkibində kükürd olan bir qarışımın alovlandırılması ilə əldə edilən effektin adı olmuşdur. Bu effekt daha öncə tamaşaçılar tərəfindən görülmədiyi üçün insanları heyrətləndirirdi. Buna görə də "mavi alov" sensasiyalı və izləyiciləri heyrətləndirən hadisələri adlandırmaq üçün istifadə edilən bir slenqə çevrilmişdir. *Charles his friend* – "Charlinin dostu" kimi tərcümə edilən bu ifadə teatrda baş rol oyunçusunun yanında yer alan və dialoqlarda çox söz payı olmayan aktyorlara verilən ad kimi Britaniya slenq leksikonuna daxil olmuşdur. Ceyms Reddinqin lüğətində yer alan maraqlı slenqlərdən biri də *Village Blacksmith* – "Bləksmitin kəndi" kimi dilimizə tərcümə etdiyimiz slenq ifadəsidir. Bu ifadə Henri Vadsvors Longfellowun eyniadlı şeirində yer alan üçüncü misrasındakı "Həftə içi, həftə sonu, səhərdən axşama qədər nəriltini eşidə bilərsiniz" fikrindən təsirlənərək bu ifadəni orta keyfiyyətdə rolunu icra edən və nadirən bir-iki həftədən artıq bir teatrda çalışan aktyor/aktrisa və ya səhnə arxası işçilərə verilən ad kimi slenq leksikonunda yer almışdır [3, s.345].

## *Nəticə*

Britaniya slenqini Birləşmiş Krallıqda yaranan və müxtəlif sosial qruplar tərəfindən istifadə edilən qeyri-layın bir növü kimi qəbul etmək olar. Slenqlərin təbiətindən dolayı onların yaranma və dildə təzahür tarixindən danışmaq çətindir. Dilin digər variasiyalarından fərqli olaraq slenqlər daha

çox şifahi dildə təzahür edir və yazılı ədəbiyyatlarda öz əksini çox tapmır. Slenqlər aid olduğu sosial qrupa xitab edir, ictimaiyyət üçün ya onların əhəmiyyəti yoxdur, ya da belə sözlərin mənasının cəmiyyətdən gizli qalması daha vacib sayılır. Slenqlər lüğət tərkibinə görə ümumxalq dilindən fərqlənir və bu sözlər müəyyən formadan başqa şəklə salınır. Bu prosesdə onlar tamamilə yeni (daha çox metaforik) məna kəsb edir, ya da sözlər başqa dillərdən alınır. Belə sözlərin fonetik, morfoloji və sintaktik xüsusiyyətləri ümumxalq dilindəkindən çox da fərqlənmir. Britaniya slenqi Birləşmiş Krallıqda yaranan və müxtəlif sosial qruplar tərəfindən istifadə edilən qeyri-rəsmi layın bir növüdür və müəyyən sosial qrupa məxsus olan insanların daxili dili kimi başa düşülə bilər və daha çox şifahi dil faktı olan slenqlərin yazılı ədəbiyyatda işlənməsinin çox da qədim tarixi yoxdur. Britaniya slenqi dilin spesifik sahəli leksikası kimi xalqın milli-etnik yaddaşının, məişətinin, həyat tərzinin ifadə vasitəsidir.

## ƏDƏBİYYAT

1. *Green J.* The vulgar tongue: Green's history of slang / J.Green. Oxford: Oxford University Press, 2014, 432 s.
2. *Partridge E.* A Dictionary of Slang and Unconventional English 8th edition / E.Partridge. London: Routledge, 2002, 1432 s.
3. *Ware R.J.* Passing English of the Victorian Era: a Dictionary of Heterodox English, Slang and Phrase / R.J.Ware. London: HardPress Publishing, 2012, 436 s.
4. *Career A.* Art slang uncovered (part1): A list of art world phrases and what they really mean: [Elektronic resource] / Art slang. November 20, 2018 / URL:https://theartgorgeous.com/art-slang-uncovered-part-1-list-art-world-phrases-really-mean/

Redaksiyaya daxil olub 25.11.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №4, s. 15-23
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №4, pp. 15-23

*UOT 81*

***G.V.Əkbərova***
*ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci*
*gulelekber33@mail.ru*

# AZƏRBAYCAN POEZİYASINDA TƏKRARLARIN ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ (VAHİD ƏZİZ POEZİYASI ƏSASINDA)

***Açar sözlər*:** poeziya, təkrar, alliterasiya, anafora, epifora, Vahid Əziz

Təkrarlar poeziyada işlənən mühüm üslubi fiqurlardan biridir. Bu üslubi fiqur şeirə melodiklik, intensivlik verir, şeir dilinin dinamikasını artırır. Söz sənətkarları ifadəni qüvvətləndirmək və həyəcan gətirmək üçün bu fiqurdan istifadə edirlər.

Vahid Əziz poeziyası bu mənada diqqət çəkir. Şairin şeirlərində təkrarların müxtəlif formalarına rast gəlirik. Anaforik və epiforik təkrarlar Vahid Əziz poeziyası üçün xarakterikdir. Şairin lirikası demək olar ki, leksik anafora üzərində qurulmuş poeziyadır. Vahid Əziz lirikasında fonetik təkrarlara tez-tez rast gəlinir. Şair həm samit, həm də sait səslərin təkrarından istifadə etməklə şeirə estetik və poetik gözəllik bəxş etmişdir.

Məqalədə müxtəlif emosiyaları özündə əks etdirən təkrarlar şairin şeirlərindən nümunələr gətirməklə tədqiq edilmişdir.

***Г.В.Акперова***

# СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОВТОРОВ В АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ (НА ОСНОВЕ ПОЭЗИИ ВАХИДА АЗИЗА)

***Ключевые слова:*** *поэзия, повтор, аллитерация, анафора, эпифора, Вахид Азиз*

Повтор – одна из важных стилистических фигур, используемых в поэзии. Такая стилистика придает стихотворению мелодичность и интенсивность, повышает динамику поэтического языка. Мастера слова используют эту фигуру, чтобы усилить выражение и вызвать волнение.

Поэзия Вахида Азиза, в этом смысле, привлекает к себе внимание. В стихах поэта можно встретить разные формы повторов. Анафорические и эпифорические формы повтора характерны в поэзии Вахида Азиза. Можно отметить, что лирика поэта – это поэзия, основанная на лексической анафоре. Также в лирике поэта часто можно встретить фонетический повтор. Поэт придал стихотворению эстетическую и поэтическую красоту, используя повторы как гласных, так и согласных звуков.

В статье на примере стихотворений поэта изучены повторы, содержащие разные эмоции.

**G.V.Akbarova**

# STYLISTIC FEATURES OF REPETITIONS IN AZERBAIJANI POETRY (BASED ON THE POETRY OF VAHID AZIZ)

***Keywords:*** *poetry, repetition, alliteration, anaphora, epiphora, Vahid Aziz*

Repetition is one of the important stylistic figures used in poetry. This style gives the poem melody and intensity, increases the dynamics of the poetic language. The masters of this art use this method to highlight and give excitement to phrases. The poetry of Vahid Aziz, in this sense, attracts attention. In the poet's poems, you can find different forms of repetition.Anaphoric and epiphoric forms of repetition are characteristic in the poetry of Vahid Aziz. It can be noted that the poet's lyrics are poetry based on a lexical anaphora. Also, phonetic repetition can often be found in the poet's lyrics. The poet gave the poem aesthetic and poetic beauty by using repetitions of both vowels and consonants.

The article examines repetitions containing different emotions using the example of the poet's poems.

**Giriş**. Məlumdur ki, mətnin qurulmasında təkrarların böyük rolu vardır və onlar poeziyada mühüm üslubi vasitələrdin biri hesab edilir. Təkrarlar mətndə müxtəlif formada meydana gələ bilər və şair fonetik, leksik və qrammatik təkrarlardan istifadə etməklə mətni istədiyi şəkildə qura bilər. Bu da öz növbəsində mətnə xüsusi bir özəllik verir. Elmi ədəbiyyatda təkrarlar bir üslubi vasitə kimi nəinki Azərbaycan ədəbiyyatında, ümumilikdə dünya ədəbiyyatında tez-tez müraciət olunan üslubi fiqurlardan hesab edilir. Təkrar bu mənada həm də öz qədimliyi ilə seçilir, yəni ən qədim mətnlərdə belə bu üslubi fiqura tez-tez müraciət edilir. Məsələn, Azərbaycan ədəbiyyatının ən qədim nümunələri olan bayatılarda biz ən gözəl təkrarlara rast gələ bilərik.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, "Azərbaycan xalq şeirinin ən qədim nümunələrini (təəssüf ki, bunlar olduqca az qalmışdır) gözdən keçirdikdə məlum olur ki, burada xalqın emosiyaları yalnız dilin məzmun – məna planında deyil, həm də formal (maddi) göstəriciləri ilə faktlaşır və nəticə etibarı ilə, bu sonuncu faktlar da dolayısı ilə məzmuna xidmət edir" [8, s.15]. Yəni forma ən qədim zamandan Azərbaycan şeiri üçün əsas əlamətlərdən biri olmuş, forma və məzmun vəhdəti poeziya baxımından həmişə ön planda olmuşdur. Bu mənada, çox qədim bir tarixə mənsub olan təkrar də bir üslubi-semantik fiqur kimi, poeziyada özünəməxsus funksiyalara və əlavə poetik çalarlara malikdir. Adətən təkrarlardan bədii ədəbiyyatda ekspressivliyin artırılması və mətndə olan fikrin və mənanın qüvvətləndirilməsi üçün tez-tez istifadə olunur. Bu mənada, "təkrar həmişə

emosiya ilə bağlıdır. Əgər emosionallıq yoxdursa, təkrar da yoxdur" [8, s.19].

Təkrar şairə istədiyi sözü cümlədə müxtəlif mənalarda işlətmək, daha doğrusu, "oynatmaq" imkanı yaradır. Bu da öz növbəsində şeirə estetik və poetik gözəllik verir. Vahid Əziz poeziyası bu mənada diqqət çəkir. Şairin şeirlərində biz təkrarların ən müxtəlif formalarına rast gələ bilirik. Bu da ədibin məharətindən irəli gəlir. Çünki hər cür təkrar hələ üslubi fiqur deyil. Məlumdur ki, təkrar istənilən üslubda olduğu kimi, bədii üslubda da yerində işlənmədikdə üslubi artıqlıq – norma pozuntusu kimi qəbul edilir. Bu mənada təkrardan istifadə şairdən böyük ustalıq tələb edir. Bu ustalıq Vahid Əziz poeziyasında xüsusi diqqət çəkir. Misallara diqqət edək:

***Bu kitabın üzündəki*** *divar – xalqın,*
***Bu kitabın üzündəki*** *kötük – bağın,*
***Bu kitabın üzündəki*** *kötüyə çalınmış balta – bir axmağın!*
***Bu kitabın üzündəki*** *məkan – Bakı,*
*Bu mənzərə Bakıdakı "Qubernator" bağındakı,*
***Bu kötük də*** *qol-budaqlı bir ağacın yadigarı,*
***Bu ağac da*** *öz elinə, obasına arxalanıb*
*gözləyirmiş* ***ilk baharı, son baharı,***
***bu ağac da,*** *Bakıdakı*
*milyon-milyon* ***ağac*** *kimi*
*doğranılıb, puç olunub arzuları* [12, s.8].

Göründüyü kimi, şair bu şeirdə "**bu**" işarə əvəzliyindən, **"bahar"** və **"ağac"** isimlərindən dəfələrlə istifadə edir və şeirə bir ahəngdarlıq verir.

Şair öz şeirlərində təkrarlardan həm də bir bağlayıcı vasitə kimi istifadə edir. Təkrar sanki şeiri əlaqələndirir, misraları bir-birinə bağlayır.

*Dəyişik salırlar pərvanələrlə,*
***Bəhanə gəzirəm*** *yanıb-ölməyə,*
*Sənə edirəm bəhanələrlə,*
***Bəhanə gəzirəm*** *sizə gəlməyə.*

***Bəhanə gəzirəm*** *sənsiz ahlara,*
*Günahkar gəzirəm, tapıb vuruşam,*
*Boylana-boylana uzaq yollara*
***Bəhanə gəzirəm*** *sənnən danışam.*

*Qayıdıb gəlmədin, harda qalmısan?*
*Sənsiz ümidlər də düşüb çətinə,*
*Təpədən-dırnağa sual olmusan, -*
***Bəhanə gəzirəm*** *xəyanətinə.*

***Bəhanə gəzirəm*** *dönüb küləyə,*
*Hər yoldan ötnələ danışıb güləm,*
***Bəhanə gəzirəm*** *çıxıb getməyə,*
***Bəhanə gəzirəm****, qayıdıb gələm.*

***Bəhanə gəzirəm*** *unudam səni,*
***Bəhanə gəzirəm*** *yaddan çıxarım,*
***Bəhanə gəzirəm*** *şəkillərini*
*Hirslənib atdığım oddan çıxarım...* [12, s.10].

Nümunədən də göründüyü kimi, şair misralar arasında bağlılığı məhz "**bəhanə gəzirəm**" cümləsi əsasında qurur və bu təkrar şeiri daha oxunaqlı və emosional edir. Burada eyni zamanda səslərin ahəngi də mühüm rol oynayır. Burada şair həm samit, həm də sait səslərin təkrarından məharətlə istifadə edir.

Başqa bir nümunəyə baxaq:

*Bütün əyri işlər şeytan işidir,*
*Bütün söyüşləri şeytan eşidir.*
*Taxta ucaldanı Allah ucaldır,*
*Taxtdan salındısa, şeytan işidir!* [11, s.111].

Nümunədən də göründüyü kimi, şair "ş" və "t" samitinin yaratdığı harmoniyadan məharətlə istifadə edərək, səs təkrarının gözəl nümunəsini yaratmışdır. Ə.Dəmirçizadə səslərin belə məqsədəuyğun seçilməsinin mahir söz ustalarına aid xüsusiyyət olduğunu qeyd edərək yazır: "Bədii ədəbiyyatda, xüsusən şeirdə səslərin məna çalarlığından istifadə etmək üslubiyyat nöqteyi-nəzərindən məna ilə səslənmə arasında ahəngdarlığın təmin edilməsinin və adətən, sözlə səs uzlaşmasının çox mühüm şərtlərindən biridir [3, s.55].

Azərbaycan poeziyasında biz tez-tez bu cüt səs təkrarlarının yaratdığı səs harmoniyasının şahidi oluruq. Şairlər həm samit, həm də sait səslərin təkrarından məharətlə istifadə edərək şeirə daha da oxunaqlıq verirlər. Nümunəyə diqqət edək:

*Neçə ildir qupqurudur*
*Bağımızın quyusu.*
*Quyuların ən dərini,*
*Suların ən durusu* [11, s.111].

Nümunədən də göründüyü kimi, şair burda "**q**" və "**u**" səslərinin təkrarından məharətlə istifadə edir.

Poeziyada bu cür fonosemantik vahidlərdən məqsədyönlü istifadə edərək üslubi priyomlar yaratmaq şeirin əsas xüsusiyyətlərindən biri hesab edilir. Amma hər bir şair də bu cür priyomdan düzgün istifadə edə bilmir. Çünki təkrar yersiz olduqda şeirdə artıqlıq yarada bilər. Bu barədə

danışarkən Mir Cəlal yazır: "*Adətən söz təkrarları bədii ədəbiyyatda, xüsusən şeirdə nöqsan sayılır, dilin ağırlığına, ifadədə təsir gücünün zəifləməsinə səbəb olur. Təkrir isə əksinə, bədii dilə daha da güc, kəsər verir*" [7, s.87]. Vahid Əziz şeirlərində təkrar məhz bu cür üslubi fiqur kimi istifadə olunduğundan şeirə daha da oxunaqlıq verir və sanki bu təkrar elementi emosionallıq, ritm yaratmaq üçün bilərəkdən istifadə edilir:

***Şəhərin içində şəhər,***
*İçinin **içində şəhər,***
*Burnumun ucunda **şəhər,***
*Gözümün **içində şəhər,***
*Baxdıqca hər yanda **şəhər**...* [11, s.139].

Nümunədən də göründüyü kimi, şair "*şəhər*" və "*iç*" sözünü dəfələrlə işlətməklə təkrir yaradır və dilə ağırlıq deyil, əksinə ritmiklik, ahəngdarlıq gətririr. Maraqlı cəhət ondan ibarətdir ki, şair təkrirlə yanaşı, şeirdə alliterasiya və assonansdan da məharətlə istifadə edir ki, bu da öz növbəsində şeirin təsir gücünü bir qədər də artırır. Nümunəyə diqqət etsək, görərik ki, şeir parçasında həm də "ə", "i", "u" saitlərinin təkrarı, eyni zamanda isə "ş", "h", "r" samitlərinin təkrarından da üslubi vasitə kimi istifadə edilmişdir.

"*Adətən, tədqiqatçılar alliterasiyanı şeirlə (bədii ədəbiyyatla] əlaqədar bir hadisə kimi qiymətləndirmiş və onu sırf üslubi kateqoriya hesab etmişlər. Uzun müddət aparılan müşahidələr və toplanan faktlar göstərir ki, alliterasiya Azərbaycan dili üçün həm də sırf linqvistik (və ya linqvo-stilistik, dilçilik-üslubi) hadisələrdəndir*" [1, s.261-272].

Şairin Bakıya həsr etdiyi şeirin digər bəndlərində də eyni priyomlardan məharətlə istifadə edilmişdir:

***Bakı** köhnə **Bakı deyil,***
*Yox, qabaqkı **Bakı deyil,***
*Bu o vaxtkı **Bakı deyil,***
*Heç dünənki **Bakı deyil** –*
*Görünür hər yandan şəhər* [11, s.139].

Göründüyü kimi, şair bu bənddə artıq "*Bakı*" və "*deyil*" sözlərinin üslubi təkrarından istifadə edir.

Məlumdur ki, "*bədii təkrar vasitəsilə yazıçı oxucunun diqqətini ən mühüm hadisəyə, xarakterə, zamana, məkana və s. yönəldir. Personajın hiss və həyəcanını, keçirdiyi psixoloji vəziyyəti incəliyi ilə vermək üçün təkrarlardan istifadə edilir. Belə olduqda təkrarda diqqətə çatdırılan hadisə və ya xarakter oxucunun yadında daha çox qalır*" [6, s.98].

Şair burada hadisələrin cərəyan etdiyi Bakı şəhərini daha çox diqqətə çatdırmaq, orada baş verən dəyişiklikləri oxucusuna çatdırmaq üçün müxtəlif təkrardan fərqli formada istifadə edir:

*O vaxt dağı dağ kimiydi,*
*O vaxt bağı bağ kimiydi.*
*Yarpağı yarpaq kimiydi,*
*Torpağı torpaq kimiydi,*
*Gülürdü hər yanda şəhər* [11, s.139].

Şair sanki Bakının həmin şəhər olmadığını, onun gördüyü, bildiyi, sevdiyi şəhərin dəyişdiyini, başqa şəhərə çevrildiyini təkrarlarla oxucusuna çatdırmağa çalışır və buna nail olur. Şeirin ikinci hissəsində şair ürək ağrısı ilə Bakıdan çox az şey qaldığını qeyd edir və yenə də təkrardan üslubi vasitə kimi məharətlə istifadə edir:

*Bircə divarları qalır,*
*Qala divarları qalır.*
*Bu şəhərdə qədimlərdən*
*Qalan bircə Qız qalası*
*Bir də qərib Saray qalır.*
*Bakı köhnə Bakı deyil,*
*Həmişəki Bakı deyil...* [11, s.140].

Vahid Əziz şeirlərində bədii cizgilərlə canlanan müəyyən bir hadisə, əhvalat təkrar vasitəsi ilə daha da qabardılır, oxucu hadisəni daha yaxşı dərk etsin deyə təkrar bədii vasitə kimi məharətlə istifadə edilir. Bakıya həsr etdiyi şeirdə şair son bənddə yenidən təkrar elementindən məharətlə istifadə edərək sanki əvvələ qayıdır və yenidən ilk misraları təkrarlayaraq hadisələri bitirir. Bu sayaq təkrar şeiri qapamağa, tamamlamağa xidmət edir:

*...Şəhərin içində şəhər,*
*İçinin içində şəhər.*
*Baxırsan - hər yanda şəhər.*
*Özəlləşir özəl Bakı,*
*Heyif səndən, gözəl Bakı...* [11, s.140].

Nümunədən də göründüyü kimi, həm sözlərin, həm də səslərin təkrarından məharətlə istifadə edən şair şeirdə sadəcə bir neçə sözün və eyni zamanda səs təkrarı vasitəsi ilə harmoniya yaradır və sanki şeir su kimi axır, qətiyyən artıqlıq hiss olunmur, əksinə təkrar elementi şeirin ahəngini daha da artırır.

Şeirdən də göründüyü kimi, şair şeiri təkrar elementi üzərində qurub və şeirdəki misra və fikirləri məhz təkrarlar hesabına bir-birinə bağlayır.

Məlum olduğu kimi, Azərbaycan poeziyasında anaforik təkrarların rolu danılmazdır. "İzahlı dilçilik terminləri lüğəti"ndə anaforaya belə tərif verilir: Müvazi nitq parçalarında (söz, söz birləşməsi, cümlə) ilk ünsürlərin (səs, səs birləşməsi, söz, söz birləşməsi, cümlə) təkrarı" [2, s.25]. Məhz bu cür təkrarlar Vahid Əziz poeziyası üçün xarakterikdir:

***İnanmıram** ayrılığın*
*Bizi uzaq salmağına,*
***İnanmıram** sevgimizin*
*Belə bədbin sonluğuna.*

***İnanmıram** dediklərin*
*Belə acı yalan ola,*
***İnanmıram** əllərini*
*əllərimdən alan ola.*

***İnanmıram** məni atıb,*
*Özgəsinə yar olasan,*
***İnanmıram** qırov tutub*
*Saçlarımda qar olasan* [13, s.162].

Nümunədən də göründüyü kimi, anaforik təkrar şeirin əsasını təşkil etməklə yanaşı, həm də şeirdəki fikirləri bir-birinə bağlayan vasitə kimi çıxış edir.

Anaforanın müxtəlif növləri vardır. Bunlar içərisində leksik anafora xüsusi yer tutur. "Leksik anafora – bir və ya bir neçə sözün təkrarı" da Vahid Əziz poeziyası üçün xarakterikdir:

***Qorxuram yanıb - atsın,***
*Yada inanıb – atsın,*
*Vay o günə yar məni*
*Bivəfa sanıb – atsın.*

***Qorxuram yanıb – atsın,***
*əhdini danıb – atsın,*
*mənə "aldadıb" deyib,*
*özü aldadıb – atsın* [13, s.404].

Başqa bir nümunəyə baxaq:

***Bu necə** inaddı, **bu necə** əda,*
***Bu necə** bəladı, bu necə qada,*
*Niyə hər an məni atırsan oda,*
*Niyə istəmirsən unudam səni?* [13, s.323].

Tədqiqatçılar "morfem anaforası – eyni morfemlərin təkrarı"nı da fərqləndirirlər [8, s.25].

*Sən harda, mən harda? – bilmirik indi*
*Şikəstmi olmuş**uq**? Kormu qalmış**ıq**?*
*Sevgi ikimizin böyüyü idi –*
*Gör, kimin sözünü yerə salmış**ıq**?!* [13, s.281].

Nümunələrdən də göründüyü kimi, Vahid Əziz poeziyası sanki təkrarlar üzərində qurulmuş poeziyadır. Şairin poeziyasında təkrarların bütün formalarına rast gəlmək olur.

Vahid Əziz yaradıcılığında epiforik təkrarlar da xüsusi çalar, rəng yaradır və şeirin ahəngdarlığını, ritmini artırır, ona xüsusi bir forma verir. Məhz bu cür üslubi priyomlar söz ustadının istedadından xəbər verir. Məlumdur ki, "*epifora Paralel vahidlərin (misra, beyt, bənd, cümlə, ifadə və s.) sonunda eyni ünsürlərin təkrarlanmasından ibarət ritorik fiqurdur. Adətən anafora ilə qarşılaşdırılır. Epiforada məqsəd bədii dilin ifadəliliyini təmin etməkdir*" [2, s.144].

*Dirçəldin – qəfəsdə* ***quş olsan belə,***
*Həsrətli gözlərdə* ***yaş olsan belə,***
*Bir şeyi bilirəm* ***daş olsam belə,***
*Qarabağ, köksündə ərimək asan!* [14, s.18]

Şairin yaradıcılığında fonetik təkrarlara da tez-tez rast gəlinir. "*Şeirdə səs təkrarları avtonom deyil, onları təşkil edən digər bütöv sistem münasibətlərinə: ritm, intonasiya və bütövlükdə şeirin ümumi məna fəaliyyətinə, onda xarakter və vəziyyətlərin təsvirinə daxildir, buna görə yalnız bunların qarşılıqlı əlaqəsini nəzərə aldıqda səs təkrarlarını tədqiq etmək və şeirdə onların bədii ifadəlilik imkanlarını öyrənmək olar*" [5, s.29]. Səs təkrarları təkrarın ən qədim formasıdır və ən qədim folklor nümunələrində də biz səs təkrarlarının bütün formalarına rast gələ bilərik. Bu mənada poeziyanı səs təkrarları olmadan təsəvvür etmək mümkün deyil. Vahid Əziz poeziyasında alliterasiya tez-tez rast gəlinən təkrarlardandır. Elmi ədəbiyyatda: "alliterasiya – alm. alliteration (f), anreim (m), ing. alliteration - /əˌlıtə'reɪʃ(ə)n/, fr. allitération, azərb. alliterasiya (eyni səs və ya hecaların təkrarından işarət şeir) – sözlərin əvvəlindəki, yaxud ortasındakı samitlərin ya da fonem birləşmələrinin eyni və yaxın olması. Sözlərin əvvəlindəki, yaxud ortasındakı samitlərin, ya da fonem birləşmələrinin eyni və ya yaxın olması" [4, s.35] kimi izah edilir.

Vahid Əziz poeziyası bu mənada olduqca xarakterikdir:

*Yüyürdü, yıxıldı, qalxdı, yüyürdü,*
*Durna qanad çaldı, yüyürdü qoca,*
*Durna qanad çaldı, qoca yüyürdü,*
*Durnaya, göylərə yalvardı qoca.*

*Çatdı, qucaqladı qoca, durnanı,*
*Durnanın ayağı yerə dəymədi,*
*Öpdü, qucaqladı qoca, durnanı, -*
*Vətən torpağının qoxusu gəldi* [10, s.11].

Başqa bir nümunəyə baxaq:

*Bu göylərin ulduzunu*
*Saymaq ilə qurtarmaz,*
*Bu gözlərin arzusunu*
*Duymaq ilə qurtarmaz.*

*Bu ürəyin gileyini*
*Yaymaq ilə qurtarmaz,*
*Bu gözlərin sevgisinə*
*Uymaq ilə qurtarmaz* [13, s.31].

Nümunələrdən də göründüyü kimi, şair müxtəlif səslərin ahəngindən istifadə edərək, alliterasiya yaradır və bu şeirin məzmununa da öz təsirini göstərir.

**Nəticə**. Bütün bu deyilənlər bir daha təkrarın poeziyada nə qədər əhəmiyyətli rol oynadığını və qüdrətli şair üçün nə qədər vacib bir üslubi fiqur olduğunu bir daha sübut edir. Vahid Əziz poeziyasında da təkrarlar xüsusi əhəmiyyətə malikdir və şair öz yaradıcılığında bu üslubi vasitəyə tez-tez müraciət edir.

## ƏDƏBİYYAT


1. *Adilov M.* Xalq dilində və Füzuli şeirində alliterasiya. Seçilmiş əsərləri: 10 cilddə, V c. Bakı: Elm və təhsil, 2019, s.261 -273
2. *Adilov M., Verdiyeva Z., Ağayeva F.* İzahlı dilçilik terminləri lüğəti. Bakı: Elm və təhsil, 2020, 656 s.
3. *Dəmirçizadə Ə.* Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərnəşr, 1962, 270 s.
4. Dilçilik ensiklopediyası: 2 cilddə, I c. Bakı: Mütərcim, 2006, 516 s.
5. *Hacıyeva N.* Azərbaycan dilində fonetik vahidlərin üslubi xüsusiyyətləri. Bakı: Elm və təhsil, 2016, 328 s.
6. *Hüseynova H.* Bədii əsərlərin üslubi sintaksisi (Mir Cəlalın bədii əsərləri əsasında). Bakı: ADPU, 2016, 232 s.
7. *Mir Cəlal.* Füzulinin poetik xüsusiyyətləri. Bakı: Azfan, 1940, 93 s.
8. *Vəliyeva M.* Azərbaycan dilinin poetik fonetikası. Bakı: Oka ofset, 2008, 128 s.
9. *Vahid Əziz*. İllərin baharı. Bakı: Yazıçı, 1980, 133 s.
10. *Vahid Əziz.* Əllərimin kölgəsi. Bakı: Gənclik, 1985, 232 s.
11. *Vahid Əziz*. Dözmək olmur. Bakı: Gənclik, 1997, 212 s.
12. *Vahid Əziz.* Şeirlər, poemalar, tərcümələr, publisistika: 4 cilddə, II c., Bakı: Gənclik, 2005, 434 s.
13. *Vahid Əziz.* Alça çiçəyinə bənzəyən ömür. Bakı: Azərnəşr, 2008, 672 s.
14. *Vahid Əziz.* Param-parça olan illər. Bakı: Azərnəşr, 2021, 240 s.


Redaksiyaya daxil olub 25.11.2023

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2023, C.71, №4, s. 24-32
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2023, V.71, №4, pp. 24-32

***UOT 002***

***P.F.Kazimi, O.B.Usubaliyev***
*Bakı Dövlət Universiteti*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*pkazimi@mail.ru, usubaliev.orxan@mail.ru*

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCANDA KİTAB MƏHSULLARININ TİRAJ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *kitab bazarı, kitab-oxucu münasibətləri, tiraj problemi, kitab yayımı, kitab nəşri*

Məqalədə müstəqillik illərində Azərbaycanda kitab məhsullarının tiraj xüsusiyyətləri geniş təhlil olunur. Məqalədə bu sahədə mövcud olan problemlərin həlli yolları təhlil edilir. Bu problem ətrafında vacib hesab olunan həll variantları araşdırılır. Bu problemin həlli istiqamətində nəşriyyatların və dövlətin həyata keçirdiyi işlər işıqlandırılır. Məqalədə problemin əsas mahiyyəti təhlil edilir. Məqalədə kitab məhsullarının tiraj xüsusiyyətləri problemində kitab nəşri və kitab yayımı məsələlərinə də yer verilir. Məqalədə həmçinin problemin statistik analizi (cədvəl şəklində) və problemin kontent analizi verilir. Məqalədə sovet hakimiyyəti dövrü ilə müstəqillik illərində Azərbaycanda kitab məhsulunun tirajı müqayisə edilir. Məqalədə həm də nəşriyyat-kitab-oxucu münasibətlərinin problemin həllində vacibliyi izah olunur.

***П.Ф.Казими, О.Б.Усубалиев***

## ТИРАЖНЫЕ ОСОБЕННОСТИ КНИЖНОЙ ПРОДУКЦИИ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ НЕЗАВИСИМОСТИ

***Ключевые слова:*** *книжный рынок, отношения между читателями и книгами, проблема тиража, книгораспространение, книгоиздание*

В статье подробно анализируются особенности обращения книжной продукции в Азербайджане в годы независимости. В статье анализируются пути решения проблем в этой области. Рассмотренные важные варианты решения этой проблемы исследуются. В целях решения данной проблемы освещены работы, проводимые издательствами и государством. В статье анализируется основная суть проблемы. В статье рассматриваются вопросы книгоиздания и книгораспространения в проблеме особенностей тиража книжной продукции. Также в статье приводится статистический анализ проблемы (в виде таблицы) и контент-анализ проблемы. В статье сравнивается обращение книжной продукции в Азербайджане в период советской власти и в годы независимости. В данной статье также объясняется важность отношений издатель-книгочитатель в решении этой проблемы.

**_P.F.Kazimi, O.B.Usubaliyev_**

## CIRCULATION FEATURES OF BOOK PRODUCTS IN AZERBAIJAN IN THE YEARS OF INDEPENDENCE

***Keywords:*** *book market, book-reader relations, circulation problem, book distribution, book publishing*

This article extensively analyzes the circulation characteristics of book products in Azerbaijan during the years of independence. The article analyzes the ways of solving problems in this field. Considered important solution options around this problem are being investigated. In order to solve this problem, the works carried out by publishing houses and the state are highlighted. The main essence of the problem is analyzed in the article. The article deals with issues of book publishing and book distribution in the problem of circulation characteristics of book products. The article also provides a statistical analysis of the problem (in the form of a table) and a content analysis of the problem. The article compares the circulation of book products in Azerbaijan during the period of Soviet rule and the years of independence. This article also explains the importance of publisher-book-reader relations in solving this problem.

### Giriş

Sovet hakimiyyətinin dağılması ilə milli dillərdə ədəbiyyatın nəşri genişləndi. Bu prosesi bütün postsovet respublikalarında müşahidə etmək olar. Çap məhsullarının tematik əlamətlərinin genişlənməsi ilə yanaşı, senzura aradan qaldırıldı və kitab məhsulunun tiraj xüsusiyyətləri də əsaslı şəkildə dəyişdi. Sovet hakimiyyətinin kitab nəşri siyasəti ayrıca bir neçə tədqiqatın obyektidir. Lakin milli dövlətlərin yaranması ilə dəyişən kitab nəşri və tiraj problemləri müxtəlif respublikalarda, müxtəlif metodlarla həll olunmağa başladıldı. Bəzi respublikalarda sovet mirası olan və böyük tirajlarla çap olunmuş siyasi və humanitar ədəbiyyat dövriyyədən çıxarılır və utilizasiya olunur, bəzi respublikalarda kitab çatışmazlığı səbəbindən kitabxanalar bağlanırdı, orta məktəblərdə, universitetlərdə dərslik problemləri ilə qarşılaşırdılar.

1980-cı illərdən Azərbaycanda elmi-kütləvi (eləcə də humanitar elmlər üzrə) kitab nəşrinin tirajında dövlətin ideolojı xüsusiyyətləri özünü ifadə edirdi. Məsələn, 1982-ci ildə çap edilmiş C.S.Quliyevin “İki dünya, iki həyat tərzi” kitabı 1000 nüsxə ilə, M.Cəlilovun “Məişət, ənənə və ateist tərbiyə” adlı elmi-kütləvi kitabı 500 nüsxə ilə, 1984-cü ildə çap olunan “Bəzi psixi və təbii fizioloji hadisələrin elmi izahına dair” kitabı 500 nüsxə ilə, T.Bünyadovun “Qızıl qaya” əsəri 10 min nüsxə ilə, E.Hacıyevin “Ömrü nəyə həsr edək” əsəri 7 min nüsxə ilə, 1986-cı ilə çap edilən V.Ə.Paşayevin “Elmi qabaqgörənlik” əsəri 500 nüsxə ilə, B.Çərkəsovun “Beynəlmiləl tərbiyə və incəsənət” kitabı 7 min nüsxə ilə buraxılmışdır [3; 4; 5]. Çap məhsullarının yuxarıda göstərilən tirajları

heç bir elmi, iqtisadi təhlilə uyğun gəlmir. Belə bir mənzərə yalnız dövlətin ideoloji xüsusiyyəti ilə izah oluna bilər.

Müstəqilliyin əldə olunması ilə Azərbaycan Respublikasında da milli nəşrlərin genişlənməsi ilə yanaşı, sovet mirası tədricən dövriyyədən çıxır, əlifba islahatı isə yeni və radikal tədbirlərin həyata keçirilməsini tələb edirdi.

**Problemin mahiyyəti.** Belə hesab edilir ki, kitab məhsulunun tirajı əsas etibarı ilə ölkənin istehlak bazarı əsasında müəyyənləşir. İstehlak bazarında süni istehlakın yaradılması, müxtəlif marketinq texnologiyasının təsiri ilə bazar yaratmaq və s. müxtəlif metodların tətbiqindən xəbərdar olsaq da, sabit inkişafın göstəricisi olaraq istehlak bazarı anlayışı və Azərbaycanda kitab məhsullarının tiraj problemini araşdırmağa çalışaq. Kitab məhsulunun tirajı istehlak bazarından asılıdır və onu müəyyənləşdirən istehlak bazarı isə bir neçə amildən asılı ola bilir. Bu asılılıq aşağıdakı göstəricilərdən asılıdır:

1. Ölkə əhalisinin sayı
2. Əhalinin savadlılıq səviyyəsi və ya aktiv oxucu kontingenti
3. Əhalinin dil xüsusiyyətləri
4. Əhalinin alıcılıq qabiliyyəti
5. Kitab yayım kommunikasiyalarının mövcud olması

Bu amillərin məcmusu ölkədə kitab məhsulunun tipologiyasından asılı olaraq tirajlarını müəyyən etməyə əsas verir. Müstəqillik illərində müxtəlif problemlərlə qarşılaşan kitab nəşri və kitab yayımçılığı Azərbaycan dövlətinin düzgün milli siyasətinin nəticəsi olaraq sabit duruma gətirildi və istehlak bazarının tələblərinə cavab vermək səviyyəsinə çatdırıldı. Azərbaycan əhalisinin sayı və əhalinin savadlılıq səviyyəsi dinamik inkişaf edən statistika ilə özünü göstərir. Azərbaycan bu göstəricilərdə Şərqi Avropa ölkələrindən bəzi əlamətlərə görə hətta irəlidə gedir. Sadalanan beş xüsusiyyətin üçüncüsü Azərbaycan kitabçılıq mədəniyyətinin formalaşmasında, inkişafında və bugünkü informativ mühitinin ifadə olunmasında mühüm rol oynayır.

Məlumdur ki, XX əsrdə Azərbaycanda üç dəfə əlifba islahatı keçirilib və bu da öz növbəsində kitab məhsulunun yenilənməsini, yeni nəslin əvvəllər çap olunmuş kitab məhsulundan istifadə edə bilməməsi kimi texniki problemlər yaratmışdır. Əgər buna Sovet hakimiyyətinin ideoloji dövlət olması, humanitar sahələrdə çap olunmuş kitab məhsullarının az bir müddətdə məzmunca köhnəlməsi və dövriyyədən çıxması hallarını da nəzərə alsaq, ümumi mənzərənin ürəkaçan olmadığını görərik.

Müstəqilliyin ilk illərində bu problemləri həll etmək mümkün olmadı. Düşmən işğalı, iqtisadi tənəzzül, yeni ideoloji platformanın olmaması kitabçılıq işinə, onun tirajına, yayımına mənfi təsir edirdi. Əhalinin alıcılıq qabiliyyətinin aşağı olması, başqa ölkələrdən gətirilən kağız və digər poliqrafiya materiallarının qıtlığı kitab nəşri və yayımı işinin geriləməsinə səbəb olmuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsi ilə bir sıra

yeniliklər baş verir, hər şeydən vacib isə insanlarda ümid yaranırdı. Dövlət üzərində, dövlətin büdcəsində böyük maliyyə yükü olan "Azərkitab" özəlləşdirməyə verilir, dövlət kitab nəşri siyasətində ünvanlı layihələrə üstünlük verilməyə başlayır. İslahatların nəticəsi olaraq Azərbaycanda nəşriyyat-poliqrafiya avadanlığı yenilənir, yeni texnologiyalar gətirilir, azərbaycanlı mühəndislər qabaqcıl Avropa nəşriyyatlarında təcrübə keçərək yerli mətbəələrdə fəaliyyətə başlayır [6].

Dövlət kitab çapı sahəsində öz prioritetlərini müəyyənləşdirir və bu istiqamətə yönəldilmiş layihələri dəstəkləyir, onlara maliyyə vəsaiti ayırır və təmənnasız yayımını təşkil edir. Dövlətin kitab çapı sahəsində və nəşriyyat-poliqrafiya sənayesinin dəstəklənməsi istiqamətində ilk və çox əhəmiyyətli layihəsi orta məktəb dərsliklərinin dövlət hesabına çap edilməsi və məktəb kitabxanaları vasitəsi ilə məktəblilərə pulsuz paylanması oldu. Bu, alimlərin, pedaqoqların kitab tərtibatçısı kimi, nəşriyyat-poliqrafiya müəssisələrinin isə sənaye və istehsalat sahəsi olaraq dəstəklənməsinə və inkişafına səbəb oldu [1].

2003-cü ildən başlayaraq Azərbaycan iqtisadiyyatının dirçəlməsi və inkişafı kitab mədəniyyətində də özünü göstərməyə başladı. Azərbaycan dövləti dünya və milli klassiklərimizin əsərlərini latın qrafikasında yeni və nəfis nəşrlərinin sifarişçisi oldu. Dövlət böyük tirajlarla klassiklərin kitablarını məktəblərə və kitabxanalara pulsuz yayımını təşkil etdi və bununla da kitab istehlakında mövcud olan böyük boşluğu doldurmuş oldu.

**Problemin statistik analizi.** 2010-cu ildən etibarən Azərbaycanda kitab məhsulunun tirajlanmasında bir tendensiya müşahidə olunmağa başlayır. Yuxarıda qeyd olunduğu kimi, Sovet hakimiyyəti illərində ciddi nəzarət altında olan kitab çapı bəzi hallarda 500 nüsxə, bəzi hallarda (sovet ideologiyasını təbliğ etdiyi zaman) yüz min tirajlarla çap olunduğu halda, müstəqillik illərində sabit bazar münasibətlərinə uyğunlaşmağa başlayır. Doğrudur ki, azad bazar münasibətlərində kitab məhsulu ilə manipulyasiya imkanlarına yol verməyən müvafiq strukturlar bir sıra hallarda bazara müdaxilə edir, tənzimləyici addımlar atırdı. Nəticədə, 2000-ci illərdə aşağıdakı rəqəmlər Azərbaycanda kitab məhsulunun ümumiləşdirilmiş tiraj xüsusiyyətlərini ifadə etməyə başladı.

**Cədvəl №1**

| | Çap məhsullarının xarakteri | Tirajı | Dil göstəricisi | Ödəniş şərtləri |
|---|---|---|---|---|
| 1 | Dövlət sifarişi ilə çap olunan kitablar | 10000-25000 | Azərbaycan | Ödənişsiz |
| 2 | Dövlət qurumları tərəfindən dəstəklənən nəşrlər | 1000-5000 | Azərbaycan | Ödənişli və ödənişsiz |
| 3 | Müəlliflər tərəfindən çap olunan nəşrlər | 300-500 | Azərbaycan | Ödənişli |

XXI əsrin əvvəllərindən başlayaraq Azərbaycanda çap məhsullarının tirajlanması sabit rəqəmlərlə ifadə olunmağa başlanır. Kitab bazarını monitorinq edən ictimai birliklərin verdiyi məlumata görə, cədvəl №1-də göstərilən rəqəmlər diqqəti cəlb edir.

Dövlət sifarişi ilə çap olunan kitab məhsulu istehlak bazarında kitaba olan ehtiyacı ödəyir, möhtəkirliyə və sui-istifadəyə yol vermir. Kitab məhsulunun istehlak ehtiyaclarını ödəmək məqsədi ilə yüksək tirajlarla çap olunan dövlət sifarişli nəşrlərin kitabxanalara və məktəblərə pulsuz verilməsi ilə kitab bazarındakı boşluğun böyük bir hissəsini doldurur. Bununla yanaşı, bir çox dövlət strukturları və şirkətlər vaxtaşırı sosial-humanitar təyinatlı kitabların çap olunmasını maliyyələşdirir və sponsor dəstəyi göstərməklə nəfis nəşrlər kitab bazarına daxil olur. Bu nəşrlər də sponsor dəstəyi ilə nəşr olunduğuna görə istehlak bazarının şərtlərinə uyğun gəlir. Fiziki şəxslərin və müəlliflərin çap etdiyi kitab məhsullarının ad göstəricisi geniş olsa da, tiraj göstəricilərinə görə rasional hesab edilə bilər [9].

Etiraf olunmalıdır ki, kitab yayım müəssisələri əsasən Bakı şəhərində yerləşir və kitab yayımı prosesinin çox böyük hissəsi məhz burada baş verir. Lakin qeyd olunmalıdır ki, son beş ildə Azərbaycanda onlayn kitab yayımı xeyli genişlənmiş və ölkənin bütün istiqamətlərində kitab yayımı işini həyata keçirirlər. Heç şübhəsiz yaxın zamanlarda onlayn kitab yayımı kitab ticarətinin böyük hissəsini öz əlinə alacaq və kitab mağazaları bu istiqamətdə yeni servis formalarının tətbiqi hesabına ayaqda qala biləcək. Beynəlxalq təcrübə bunu sübut edir.

**Problemin kontent analizi.** Ümummilli lider Heydər Əliyevin ilk dəfə “Kitabxana işi haqqında” (25 dekabr 1998-ci il); “Nəşriyyat işi haqqında” (30 may 2000-ci il) və bu sahədə digər qəbul edilmiş qanunları Azərbaycançılıq fəlsəfi konsepsiyasına əsaslanmaqla müstəqil dövlətimizin kitabxanaçılıq və kitabçılıq işi sahəsində siyasətini formalaşdırdı, bu sahələr mədəni quruculuğun tərkib hissəsi kimi dövlətimizin diqqət və qayğısı nəticəsində uğurlu inkişaf yoluna qədəm qoydu. Bu qanunlar kitab nəşrinin genişlənməsində, nəşriyyat müəssisələrinin fəaliyyətlərinin təşkilində və inkişaf etdirilməsində böyük əhəmiyyətli rol oynadı. “Nəşriyyat işi haqqında” Azərbaycan Respublikasının Qanununun nəşriyyat işi sahəsində dövlət siyasətinin əsas prinsipləri: nəşriyyat işi sahəsində sərbəstliyin təmin edilməsi; nəşriyyat işinin maddi-texniki bazasının, təşkilati və hüquqi elmi əsaslara söykənməsi; kitab nəşrinin inkişafına yardım edilməsi; nəşriyyat işinin inkişafına dair dövlət proqramının hazırlanması və həyata keçirilməsi; Azərbaycan xalqının klassik irsi və milli-mənəvi sərvətləri sayılan əsərlərin dövlət sifarişi əsasında nəşrinin həyata keçirilməsi; nəşriyyatın maddi-texniki bazasının genişləndirilməsinin, poliqrafiya sənayesinin inkişafının, nəşriyyat məhsullarının satılmasının

stimullaşdırılması və s. respublikamızda nəşriyyat fəaliyyətinin dinamik inkişafına kömək etdi [7, s.522-526].

Azərbaycanda 1920-ci ildə yaradılmış Kitab Palatası 2002-ci ildə Milli Kitabxananın şöbəsi olaraq fəaliyyətini davam etdirməyə başladı. Respublikada kitab məhsulunun geniş palitrasını müəyyən etmək üçün Kitab Palatasının illik bülletenlərinin təhlil olunması vacibdir. Təəssüflə qeyd olunmalıdır ki, məcburi nüsxələr haqqında qanunun icra mexanizmi tətbiq olunmadığı səbəbdən Kitab Palatası çap məhsullarının nüsxələrini sistemli şəkildə almır. Bu kimi faktları ictimai təşkilatların çap etdirdiyi "Yeni nəşrlər" bülleteni ilə Milli Kitabxananın fonduna daxil olunmuş nəşrlərin müqayisəsi də təsdiq edir.

"Yeni nəşrlər" bülletenləri də mütəmadi çap olunmadığı səbəbindən Azərbaycanda kitab məhsulunun tam mənzərəsini əldə etmək çətindir. Lakin humanitar sahələrdə kitab nəşrinin genişləndiyi bu bülletenlərdə özünü aydın göstərir. Eləcə də kitab bazarını monitorinq edən ictimai qurumların məlumatına görə humanitar yönümlü ədəbiyyatın kütləsi kitab bazarında dərslik və dərs vəsaitlərindən sonra üçüncü yerdə müəyyənləşir. Bununla yanaşı, ölkəmizdə kitab məhsulunun ümumiləşdirilmiş mənzərəsini müəyyən etmək mümkündür. Bu gün Azərbaycanın aktiv oxucusu Azərbaycan dili ilə yanaşı, rus, türk və ingilis dillərində mütaliə etmək imkanlarına malikdir və bu baxımdan Azərbaycanın kitab bazarında müvafiq dillərdə ədəbiyyatın xüsusi kütləsi çap məhsulunun yalnız 6-10%-ni təşkil edir. Kitab bazarının sistemli monitorinqi nəticəsində müəyyən edilir ki, rus və ingilis dillərində əsasən dilçiliyə dair kitablar, rus və türk dillərində bestsellerlər, romanlar, hekayə və poeziya nümunələri, ingilis dilində xüsusi tədris ədəbiyyatı, eləcə də rus dilində elmi-pedaqoji ədəbiyyata daha çox tələbat mövcuddur.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycanda qadağan olunmuş kitablar anlayışı yoxdur. Dünyanın bir çox ölkələrində qadağan olunmuş kitabların hər il siyahısı çap olunduğu halda Azərbaycanda kitab məhsulu sərbəst dövriyyə edir, yalnız dini mövzulu ədəbiyyatın dövlət tərəfindən tənzimlənməsi və xüsusi kitab satış müəssisələrində yayım olunması tələb edilir [10].

Cədvəl №1-də göstərilən üçüncü sətirdə göstərilən "Müəlliflər tərəfindən çap olunan nəşrlər" mövzusuna görə də geniş sahələri əhatə edir. Bu kateqoriyaya şəxsi yaradıcılıq məhsulları, həvəskar poeziya və nəsr nümunələri və bir sıra dar təyinatlı ədəbiyyat daxildir.

Azərbaycanda akademik nəşrlərin tirajları da sahələrindən asılı olaraq 300-500 nüsxə təşkil edir. Bu tiraj uzun illərlə formalaşmış və nəhayət, müəyyənləşmiş ölkədaxili istehlak bazarının normalarını ifadə edir. Elmin müxtəlif istiqamətlərinə dair hər il Azərbaycanda müxtəlif nəşriyyatların kitab məhsulu ölkənin elmi, elmi-pedaqojı ədəbiyyata ehtiyacını ödəyir.

AMEA-nın "Elm" nəşriyyatı ilə yanaşı, ali məktəblərin nəşriyyat fəaliyyəti son on ildə təhsilin informasiya təminatını uğurla yerinə

yetirməkdədir. Ali təhsil sistemində fundamental fənlər üzrə dərsliklərin və tədris planlarının hər beş ildə yenilənməsi eyni zamanda yeni tədris ədəbiyyatının çap olunmasını stimullaşdırır.

Müstəqil Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş mədəni siyasət onun layiqli davamçısı ölkəmizin prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilməkdədir. Prezident İlham Əliyevin 2004-cü ildə imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikasında kitabxana informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramı" kimi böyük strateji əhəmiyyət kəsb edən sərəncamları və dövlət proqramları bu mənada diqqətəlayiqdir. Bu qanunlar Azərbaycanda nəşriyyat işinin inkişafında xüsusi rol oynadı. 2005-2006-cı illərdə respublikamızda bütün elm və bilik sahələrinə dair (eləcə də humanitar elmlər üzrə) 1400-1500 addan çox kitab və kitabça, 10 milyon nüsxəyə qədər tirajla çap olundu. Kitabın nəşrində ad etibarilə artım nəzərə çarpırdı. Lakin ölkəmizdə tiraj siyasəti olmadığına görə artım nəzərə çarpmır. Belə bir faktı qeyd edim ki, cənab prezident İlham Əliyevin 2004-cü il 27 dekabr tarixli "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərəncamına əsasən siyahıya 546 adda kitab daxil edilmiş və hər kitabın 25 min nüsxə tirajla çapdan buraxılması planlaşdırılmış, beləliklə də, 13 milyon 650 min nüsxə kitabın nəşr olunması nəzərdə tutulmuşdur. Bu kitablar 2005-2009-cu illərdə çapdan buraxılmış və pulsuz olaraq 46 respublika kitabxanasına hədiyyə edilmişdir. Qeyd edim ki, hədiyyə olunan kitablar AMEA Mərkəzi Elmi Kitabxanasının fondunun zənginləşdirilməsinə kömək etmişdir. Belə ki, 2005-ci ilin iyun ayınadək çap olunan 106 adda kitabdan 5500 nüsxə bu kitabxanaya daxil edilmişdir [8]. Bu, həm də ölkəmizdə kitab mübadiləsinin genişlənməsinə kömək etmişdir. Həmin kitablar arasında Azərbaycan yazıçılarının, dünya klassiklərinin əsərləri latın qrafikası ilə çap edilmişdir. Prezident İlham Əliyevin 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası" seriyasının çapdan buraxılmasına dair sərəncamı da kitab və kitabçılıq işinə dövlətimizin diqqət və qayğısının təzahürüdür [2].

Azərbaycanda humanitar sahələrdə kitab məhsulunun çap olunması dinamikası hər il dövlət rəhbəri tərəfindən elan olunan tarixi hadisələrin qeyd olunması ilə də səciyyələnir. Belə ki, Azərbaycanda "Multikulturalizm ili", "Nəsimi ili" və nəhayət, 2021-ci ili "Nizami Gəncəvi ili"nin elan olunması müvafiq mövzularda çox sayda kütləvi, elmi-kütləvi, elmi ədəbiyyatın çap olunması, müxtəlif dillərə tərcümə olunması ilə müşahidə olundu. Bu nəşrlərin də cədvəldə qeyd olunan tiraj xüsusiyyətlərinə malik olduğunu iddia etmək olar.

**Nəticə**

2000-ci illərdən başlayaraq Azərbaycanda ölkənin mədəniyyətini, inkişafını, mədəniyyətinin arxitekturasını, musiqisini təbliğ edən kitabların sayı bir tərəfdən genişlənir, digər tərəfdən Azərbaycanı dünyaya tanıtmaq məqsədi ilə ingilis, rus, alman, fransız və ərəb dillərində tərcümələri yayılmağa başlayır. Bu növ kitabların nəfis poliqrafik icrasının olması bir tərəfdən onun maliyyə yükünü artırır, digər tərəfdən dövlət strukturlarının dəstəyi ilə çap olunduğuna görə bazar qiymətləri balanslaşdırılır və istehlak şərtlərinə uyğunlaşır.

Bu gün də insanların həyat və peşə fəaliyyətində kitab, ondan istifadə və ictimai mütaliə mühüm rol oynayır. İnformasiya əldə etməyin üsulları genişlənsə də, ictimai mütaliədə kitab hələ də öz mühüm yerini tutur. Eləcə də kitabın mədəni funksiyası da qorunub saxlanılmaqdadır.

Çap məhsullarının tirajlarının artırılması məqsədi ilə dünyada tətbiq olunan təcrübənin də öyrənilməsi çox əhəmiyyətlidir. Bu gün müasir PR texnologiyalarının tətbiqi ilə bədii ədəbiyyatın təbliği vasitəsi ilə tirajların artırılması mümkündür və bunun çox sayda nümunələrini görə bilərik. Lakin bionika, nanotexnologiyalar, mikologiya sahələrində çap olunmuş elmi kitablar və xüsusi təhsil məqsədli dərsliklərin təbliği onun tirajının artmasına səbəb olmayacaq, yalnız tərtibatçı və müəlliflərinin təbliğini həyata keçirəcək. Məlumdur ki, bir çox sahələrə dair ədəbiyyat o sahənin mütəxəssislərinin istifadəsi üçün faydalı rasionallıq prinsipinə uyğun müəyyənləşir [11].

Müasir dövrdə Azərbaycanda kitab məhsulunun tirajı nə az, nə də çox anlayışları ilə qiymətləndirilə bilməz. Kitab məhsulu faydalı rasional statistika ilə qiymətləndirilməlidir. Faydalılıq əmsalının yüksəlməsi ölkədə mütaliənin artması və intellektual səviyyənin yüksəlməsini göstərə bilər.

Bədii ədəbiyyatın tirajlanmasının faydalı rasionallıq faizini müəyyən etmək üçün əgər əhalinin müvafiq qrupunu konkret nəşrin tirajına bölməklə maraqlı göstəricilər əldə etmək olar. Eləcə də akademik fəaliyyət göstərən qrupun hər il çap olunmuş elmi nəşrlərini və monoqrafiyalarını tirajına bölməklə akademik aktivliyi müəyyən etmək olar. Qeyd olunan nəzəri təhlil ilə yanaşı, real kitab bazarının monitorinqi ölkənin elmmetrik tədqiqatları üçün də xeyli informativ material verir.

## ƏDƏBİYYAT

1. *Aslan K.* Müasir şəraitdə nəşriyyat işinin aktual problemləri // "İnformasiya cəmiyyəti və kitabxana-informasiya fəaliyyəti" Respublika elmi konfransının materialları (Bakı Dövlət Universiteti, 20 dekabr 2012), Bakı, 2012, s.12-16
2. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 2004-cü ildə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısı / "Respublika" qəz., Bakı, 2004, 13 yanvar

3. Birillik Azərbaycan kitabiyyatı. 1982. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1983, 228 s.
4. Birillik Azərbaycan kitabiyyatı. 1984. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1985, 235 s.
5. Birillik Azərbaycan kitabiyyatı. 1986. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1988, 223 s.
6. *Kazimi P.* Kitab yayım mədəniyyəti bu gün // Kitabxana.az, 2011, №5
7. Nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanunu (30 may 2000-ci il). Azərbaycan Respublikasının Qanunlar külliyyatı, III kitab. Bakı: Qanun, 2001, s.522-526
8. *Rzayeva S.* AMEA Mərkəzi Elmi Kitabxanasında ədəbiyyatın komplektləşdirilməsi məsələləri // Elmi əsərlər, AMEA MEK 80, bur.6, B., 2005, s.69-78
9. *Usubaliyev O.* Müasir dövrdə kitabçılıq işi və onun problemləri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal, Bakı, 2015, №2 (37), s.85-88
10. *Поливаноский С.Ф., Успенский В.В.* Организация и техника торговли книгой. М.: Книга, 1992, 223 с.
11. *Alguliev R.M., Mahmudova R. Sh.* Information Culture Formation as The Most Promising Direction of Individual’ s General Culture // International Journal Modern Education and Computer Science, 2015, №3, pp.54-61

Redaksiyaya daxil olub 09.11.2023

*UOT 372.8:811.111*

***N.N.Rəcəbova***
*Bakı Dövlət Universiteti*
*narmina_87@yahoo.com*

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV SƏRİŞTƏNİN ROLU VƏ ONUN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *kommunikativ səriştə, qrammatik səriştə, sosiolinqvistik səriştə, diskurs səriştə, strateji səriştə, kommunikativ tapşırıqlar*

Məqalə kommunikativ səriştə, onun inkişaf etdirilməsi yolları və bunun üçün istifadə edilən tapşırıq növlərindən bəhs edir. Burada D.Hayms, M.Kanel və M.Sveyn, M.A.K.Hallidey, M.Sels-Mursia, Z.Dörnyei və S.Zurrell və L.F.Baxman kimi alim və metodistlərin kommunikativ səriştə nəzəriyyələri haqqında geniş məlumat verilmişdir. Məqalədə eyni zamanda kommunikativ səriştənin inkişaf etdirilməsi üçün lazımi tapşırıq növləri göstərilmiş və bu tapşırıqlara əsasən nümunələr təqdim edilmişdir. Kommunikativ yanaşmanın əsasının kommunikativ səriştə olduğu, eyni zamanda kommunikativ səriştəyə malik olmayan tələbənin fikir, ideya və hisslərini ifadə edə bilmədiyini nəzərə almaqla kommunikativ səriştə və onun inkişaf etdirilməsi haqqında tədqiqatlar müstəsna əhəmiyyətə malikdir.

***Н.Н.Раджабова***

# РОЛЬ КОММУНИКАТИВНОЙ КОМПЕТЕНТНОСТИ В ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ И ПУТИ ЕЕ РАЗВИТИЯ

***Ключевые слова:*** *коммуникативная компетентность, грамматическая компетентность, социолингвистическая компетентность, дискурсивная компетентность, стратегическая компетентность, коммуникативные задачи*

В статье речь идет о коммуникативной компетентности, способах ее развития и видах, используемых для нее заданий. Представлено обширное сведенияе о теориях коммуникативной компетентности таких ученых и методистов, как Д.Хеймс, М.Канель и М.Суэйн, М.А.К.Холлидей, М.Селс-Мурсиа, З.Дорнией и С.Зуррелл, Л.Ф.Бахман. При этом, в статье показаны необходимые виды заданий для развития коммуникативной компетентности и приведены примеры на основе этих заданий. Учитывая, что основой коммуникативного подхода является коммуникативная компетентность, и в то же время студент, не обладающий коммуникативной компетентностью, не может выражать свои мысли, идеи и чувства, исследования коммуникативной компетентности и ее развития имеют исключительное значение.

***N.N.Rajabova***

# THE ROLE OF THE COMMUNICATIVE COMPETENCE IN TEACHING OF THE ENGLISH LANGUAGE AND THE WAYS FOR ITS DEVELOPMENT

***Keywords:*** *communicative competence, grammatical competence, sosiolinguistic competence, discourse competence, strategical competence, communicative tasks*

The article deals with communicative competence, methods of its development and the types of tasks used for it. Extensive information is presented about the theories of communicative competence of such scientists and methodologists as D.Hames, M.Kanel and M.Swain, M.A.K.Halliday, M.Sels-Murcia, Z.Dorney and S.Zurrell, L.F.Bachman. At the same time, the article shows the necessary types of tasks for the development of communicative competence and provides examples based on these tasks. Considering that the basis of the communicative approach is communicative competence, and at the same time, a student who does not have communicative competence cannot express his thoughts, ideas and feelings, research on communicative competence and its development is of exceptional importance.

**Giriş**. Dil tədrisinin əsasını onun kommunikasiya üçün istifadəsi təşkil edir, başqa sözlə, müasir ingilis dili tədrisinin əsas məqsədi ingilis dilindən kommunikasiya üçün istifadə etməyi bacaran şəxsiyyət yetişdirməkdir. Görkəmli ingilis filosofu H.Spenser təhsilin əsas məqsədinin bilik deyil, fəaliyyət olduğunu göstərərək, təhsil qarşısında duran əsas məqsədin bilik əldə etmək, ali məqsədin isə onu tətbiq və istifadə etmək olduğunu bildirir. Bəzi tədqiqatçılar, o cümlədən D.Hayms [12] kommunikativ səriştənin inkişaf etdirilməsini dil tədrisinin məqsədi, yəni kommunikativ dil tədrisinin kommunikativ səriştənin pedaqoji tətbiqi olduğunu bildirir.

**Kommunikativ səriştə və onun növləri.** Kommunikativ səriştə insanın öz fikir və ideyalarını digərlərinə nə dərəcədə yaxşı ötürmə qabiliyyətidir. Kommunikativ səriştə anlayışı dilçiliyin praqmatika hissəsindən və nitq aktlarının daxil olduğu dil fəlsəfəsindən təsirlənir. Bu termin D.D.Hayms tərəfindən 1966-cı ildə N.Xomskinin dil səriştəsi nəzəriyyəsinə əks olaraq təklif edilmişdir. Belə ki, N.Xomski nitqi linqvistik səriştə və çıxış (performans) kimi hissələrə ayırmışdır. O, ideal danışan-dinləyən dedikdə, nitq prosesi zamanı heç bir qrammatik faktdan (diqqət yayımı, marağın itməsi və s.) təsirlənməyən nitqi nəzərdə tuturdu. Xomskiyə görə, danışanın ünsiyyət zamanı qrammatik cəhətdən doğru cümlələr yaratması linqvistik səriştədir. D.D.Hayms bu fikrin reallığı əks etdirmədiyini bildirir. D.D.Haymsa görə, linqvistik nəzəriyyəyə kommunikasiya və

mədəniyyətin vəhdəti kimi baxılmalıdır. Hayms tərəfindən əsası qoyulan bu yanaşma kommunikasiyanın etnoqrafiyası adlanır. D.Haymsın təklif etdiyi kommunikativ səriştəyə yiyələnən tələbə həm biliyə, həm də faktın yerinə yetirilib-yetirilmədiyindən, məzmuna uyğun olub-olmadığından, həyata keçirilib-keçirilmədiyindən, formal mümkünlüyündən asılı olmayaraq dildən istifadə qabiliyyətinə sahib olur. O, kommunikativ səriştənin həm qrammatik, lüğət və semantik, həm də danışığın sosiolinqvistik qaydalar haqqında biliklərini özündə ehtiva etdirdiyini bildirir. D.Haymsa görə [12], kommunikativ səriştənin dörd əsas bölməsi vardır:

- Kommunikasiya formal olaraq mümkündürmü (hansı dərəcəyə qədər);
- Kommunikasiyanın həyata keçirilməsi mümkündürmü (hansı dərəcəyə qədər);
- Kommunikasiya istifadə edilən və qiymətləndirilən kontekstə uyğundurmu (hansı dərəcəyə qədər);
- Kommunikasiya yerinə yetirilib və nələr ediləcəkdir (hansı dərəcəyə qədər).

Kommunikativ dil tədrisi yanaşmasını dəstəkləyən dilçi alim Hallidey [8] dil tədrisinin məqsədi kimi funksiyaların yerinə yetirilməsini qeyd edir. O, [9] uşaqların ana dilini öyrənərkən dilin yerinə yetirdiyi yeddi əsas funksiyanı aşağıdakı kimi qruplaşdırmışdır:

- Alət funksiyası – nə isə əldə etmək üçün dildən istifadə;
- Tənzimləyici funksiya – digərlərinin davranışına nəzarət etmək üçün dildən istifadə;
- Qarşılıqlı əlaqə funksiyası – digərləri ilə əlaqə saxlamaq üçün dildən istifadə;
- Şəxsi funksiya – şəxsi hisslərini ifadə etmək üçün dildən istifadə;
- Evristik funksiya – öyrənmək və kəşf etmək üçün dildən istifadə;
- Təsəvvür funksiyası – yeni ideyaları təsəvvür etmək üçün dildən istifadə;
- Təsviri funksiya – məlumatı ötürmək üçün dildən istifadə.

Hallideyin fikrincə, ikinci dili öyrənən tələbə ana dilinin yuxarıda sadalan yeddi əsas funksiyasını reallaşdırmağı bacarmalıdır. H.Vidouson [22] "Dilin kommunikasiya kimi tədrisi" (H.Widdowson – Teaching Language as Communication) kitabında linqvistik sistem ilə kommunikativ dəyərlər arasındakı əlaqəni mətn və nitq çərçivəsində təqdim etmişdir. Z.Ozsevik [18] isə öz növbəsində kommunikativ səriştənin situasiyadan asılı olaraq nə demək və necə demək, iştirakçılar və onların istəkləri haqqında biliklər toplusu kimi qeyd edir.

Kommunikativ səriştə haqqında mövcud olan modellərdən üçü xüsusi əhəmiyyətə malikdir. Bunlardan birincisi, M.Kanal və M.Sveynin modeli, ikincisi, sosiomədəni məzmunu xüsusilə vurğulayan və 1995-ci ildə M.Sels-

Murcia, Z.Dornyei və S.Zurrell [5] tərəfindən yaradılan modeldir. Onlar kommunikativ səriştədə linqvistik səriştə, strateji səriştə, sosiomədəni səriştə, fəaliyyət səriştəsi və diskurs səriştənin olduğunu müəyyən etmişlər. Sonuncu, üçüncü model isə Kanadada əsası qoyulmuş A.Baxman və L.F.Palmer modelidir.

M.Kanal və M.Sveyndir [4] kommunikativ səriştə anlayışını inkişaf etdirərək onu dörd əsas növə ayırmışdır:

- Qrammatik səriştə;
- Sosiolinqvistik səriştə;
- Diskurs səriştə;
- Strateji səriştə.

M.Kanal və M.Sveynin qrammatik adlandırdığı səriştə Xomskinin linqvistik səriştəsi ilə eynilik təşkil edir. Belə ki, tələbənin qrammatik səriştəyə sahib olması onun qrammatik və leksik biliklərə malik olmasıdır. Qrammatik biliklər dedikdə, nitq hissələri, feilin zamanları, cümlənin düzəldilməsi və s. haqqında biliklər nəzərdə tutulur. Burada qrammatik və ya linqvistik səriştə əsas bazadır. Bununla belə, yalnız qrammatik səriştəyə malik olmaq dildən istifadəni qeyri-mümkün edir. Buna görə də hər bir tələbə müxtəlif məqsəd və situasiyalarda dildən necə istifadəni, kontekst və iştirakçıdan asılı olaraq düzgün üslubu seçməyi, müxtəlif növ mətnləri başa düşməyi bilməlidir. Sosiolinqvistik səriştə rollar arasındakı əlaqə, kommunikasiyanın məqsədi, məlumat mübadiləsi də daxil olmaqla kommunikasiyanın baş verdiyi konteksti öyrənir. Eyni zamanda, sosiolinqvistik səriştəyə yiyələnərkən tələbə tədris olunan dilin mədəniyyətini, hansı sözlərdən istifadə etməyin qadağan edildiyini və s. öyrənir, məs., nazirə "hey, guy" deyə müraciət etmək doğru deyil və ya məlum olduğu kimi ingilis xalqı nəzakətlidir, buna görə də hər zaman "excuse me, sorry və s." kimi ifadələrdən istifadə edilir. Diskurs səriştə müxtəlif vəziyyətlərdə tələbənin dildən necə istifadə edəcəyini əks etdirən səriştə növüdür. Bütün diskurs və mətn daxilində mənanın necə təqdim olunması və anlaşılması diskurs səriştə növünün predmetidir. Bəzən tələbə ona verilən suala bir-iki sözlə cavab verir. Bu onun mövzuya maraqsız olduğunu və ya danışmaq istəmədiyini göstərir, məs., "What is your hobby?" sualına "Painting. Listening to music". Lakin diskurs səriştəyə malik tələbə daha geniş cümlələrlə öz fikrini bildirir. Sonuncu səriştə növü – strateji səriştəyə malik kommunikator söhbətə necə başlamaq, bitirmək kimi strategiyaları bilməlidir.

M.Sels-Murcia, Z.Dörnyei və S.Zurrell [6] dil tədrisində kommunikativ yanaşmanın aşağıdakı xüsusiyyətlərini müəyyən etmişlər:

- Dil mənanı ifadə etmək üçün bir sistemdir;
- Dilin əsas funksiyası qarşılıqlı əlaqə və kommunikasiyadır;

- Dilin strukturu onun kommunikativ və funksional istifadəsini özündə əks etdirir;
- Dilin əsas vahidləri qrammatik və struktur xüsusiyyətləri deyil, diskurs səviyyəsindəki funksional və kommunikativ kateqoriyalarıdır.
-




M.Sels-Murcia [7] öz tədqiqatlarında diskurs səriştənin kommunikasiyanın mərkəzində olduğunu, digər səriştələrin, o cümlədən sosiomədəni (praqmatik bilik) səriştə, qarşılıqlı əlaqə səriştəsi (dil funksiyaları və dilin sözsüz vasitələri), linqvistik səriştə (dil sistemi) və formal səriştənin (ifadə və idiomlardan biixtiyarı istifadə) isə onun ətrafında cəmləşdiyini qeyd edir. Onun fikrincə, məsələlərin həlli və səhvlərin düzəldilməsi üçün strateji səriştə əvəzolunmazdır.

Uso-Juan və Martínez-Flor [21] kommunikativ səriştənin dinləmə, oxuma, yazma və danışma kimi kommunikativ bacarıqların inkişafından asılı olduğunu vurğulayaraq, onun linqvistik, strateji, mədəniyyətlərarası, praqmatik və diskurs növlərini ayırır.

Üçüncü modelin nümayəndəsi tədqiqatçı alim A.Baxmana [2] görə, kommunikativ səriştə sınaq və qiymətləndirməyə əsasən müəyyən edilir. Onun fikrincə, kommunikativ səriştə təşkilati və praqmatik səriştədən ibarətdir. Belə ki, təşkilati səriştə qrammatik (fonologiya, leksikologiya, morfologiya və sintaksis) və mətn (şifahi və ya yazılı mətn düzəltmək) səriştəsini, praqmatik səriştə isə insanların fikir və ideyalarının, hisslərinin də daxil olduğu kommunikativ situasiya kontekstini nəzərə alaraq dildən istifadə qabiliyyətini özündə əks etdirir.

Kommunikativ səriştə haqqında ən son araşdırmalar aparan alimlərdən olan V.Litlvud [16] özündən əvvəlki metodistlərin nəzəriyyələrini tədqiq edərək kommunikativ səriştənin aşağıdakı növlərini müəyyən etmişdir;

a) qrammatik, leksik, fonoloji və semantik bilikləri özündə ehtiva edən linqvistik səriştə; b) diskursda iştirakı göstərən diskurs səriştə; c) dildən real həyatda istifadə etmə bacarığını əks etdirən praqmatik səriştə; d) müxtəlif situasiyalarda dildən düzgün istifadəni göstərən sosiolinqvistik səriştə; e) mədəni biliklər toplusu olan sosiomədəni səriştə.

Kommunikativ səriştəyə yiyələnmənin praktik və nəzəri əsasları vardır. Belə ki, J.Riçards və T.Rodcers [20] kommunikativ səriştə nəzəriyyəsinin üç əsas prinsipini müəyyən etmişdir:

Kommunikativ prinsip – real kommunikasiyadan ibarət fəaliyyət öyrənməni təmin edir;

Tapşırıq prinsipi – mənalı tapşırıqları yerinə yetirmək üçün dildən istifadə edilən tapşırıqlar öyrənməni təmin edir;

Mənalılıq prinsipi – tələbələr üçün mənalı olan dil öyrənmə prosesinin özülüdür.

Yuxarıda da qeyd etdiyimiz kimi, kommunikativ yanaşmanın əsas məqsədi müxtəlif kontekstlərdə düzgün strategiyanı seçərək ünsiyyət saxlamaq bacarığıdır. H.E.Piepho [19] isə bu məqsədi müxtəlif səviyyələrə bölmüşdür:

a) inteqrativ və məzmun səviyyəsi – bu səviyyə dil ifadə etmək üçün bir vasitədir; b) linqvistik və alət səviyyə – dil semiotik sistemdir və öyrənmənin obyektidir; c) insanlar arasındakı əlaqəyə təsiredici səviyyə – insanların özü və ətrafındakılar haqqında dəyərləri ifadə etmək və mühakimə etmək; d) şəxsi ehtiyacları ödəmək üçün dilin öyrənmə səviyyəsi – səhvlər üzərində insanın öz dil bacarıqlarını təkmilləşdirməsi; e) ümumi təhsil səviyyəsi – məktəb proqramına əsasən dil tədrisi.

Məlum olduğu kimi, hər bir metodun özünəməxsus sillabusu vardır. İngilis dilinin kommunikativ yanaşma vasitəsi ilə tədrisi üçün bir çox alimlər fərqli sillabuslar təklif etmişlər. Məsələn, D.A.Vilkinsin [23] struktur + funksiya modeli, Allenin struktur, funksional, instrumental modeli, H.G.Viddouson [22] qarşılıqlı əlaqə əsaslı modelləri.

Kommunikativ yanaşmada müəllim və tələbənin rolu. Əvvəllər mövcud olmuş metodlarda əsas rolu müəllim oynayırdı, yəni müəllim dərsin mərkəzində idi. Kommunikativ dil tədrisində isə müəllim sadəcə müəllim deyil, digər bir neçə funksiyanı da yerinə yetirir, o, vasitəçi, tələbə isə iştirakçı olur və kommunikativ tapşırıqlar vasitəsilə birgə işləyirlər. Breen və Candlin [3] müəllimin rolunu aşağıdakı kimi qiymətləndirirlər:

İştirakçılardan biri – tapşırıq prosesində kommunikasiyanı asanlaşdıran;

Müstəqil iştirakçı – bu rolu özündə ehtiva edən müəllim həm təşkilatçı, həm də tədqiqatçı xüsusiyyətlərinə malik olmalıdır.

C.Harmerə [11] görə, müəllim sinif tapşırıqlarının təşkilatçısı və iştirakçısı, tələbənin səhvlərini qiymətləndirən, tələbələrini cəsarətləndirən və tələbələrin dil bacarıqlarını inkişaf etdirən təlimçidir. Ümumilikdə isə müəllim tədris prosesi zamanı ehtiyacları analiz edir, məsləhət verir və qrup prosesini idarə edir. Kommunikativ yanaşmanı tədris edən müəllim tələbənin ehtiyacını formal və ya qeyri-formal şəkildə olmaqla, tələbə ilə təkbətək ödəməlidir. Bunun üçün müəllim fərdi və ya qrup şəklində tələbələrlə görüşməli və həll olunmamış problemi müzakirə edib həll etməlidir. Danışanın demək istədiyi ilə dinləyənin doğru anlaması üçün müəllim parafraza, təsdiq və ya "feedback" verir. Kommunikativ yanaşmadan istifadə edilən tədris prosesində dərs zamanı tələbə daha fəal olmalıdır. Bu zaman müəllim sinif fəaliyyətini və tapşırıqları təşkil etməli, ehtiyac olduqda tələbələri ruhlandırmalı, sonra isə qrammatik, leksik və strateji səhvləri düzəltməlidir. Tələbənin əsas funksiyası isə "negotiator"dur, o həm özü ilə, həm öyrənmə prosesi, həm də digər tərəf müqabili ilə təmasda olmalıdır.

Kommunikativ dil tədrisinin əsas xüsusiyyətlərindən biri də kommunikativ yanaşma zamanı istifadə olunan tapşırıqların tələbələr tərəfindən kiçik qruplarda yerinə yetirilməsidir [14]. Kiçik qruplar vasitəsilə tələbələr onlara ayrılmış vaxtdan maksimum səmərəli istifadə edərək kommunikativ aktı yerinə yetirirlər. Kommunikativ yanaşma tədris prosesində tələbələrin fərdi deyil, birgə və ya cüt formada iştirakına önəm verir. Kommunikativ dil tədrisinin digər əsas xüsusiyyəti tələbənin tədris prosesinin mərkəzində olmasıdır [20]. Burada tələbələr passiv deyil, aktiv iştirakçı olmalıdırlar.

Kommunikativ üslub və strategiyalar. Tələbə ingilis dilini mənimsəyə bilər, lakin tələbənin xarakteristikası və genetikası kommunikasiyaya öz təsirini göstərir. Məsələn, auditoriya qarşısına çıxan tələbə narahat ola və nə deyəcəyini unuda bilər. Kommunikativ səriştənin nə olduğunu bilən tələbə bundan istifadə edərək öz qorxusunun öhdəsindən gəlir. Hər bir tələbə kommunikativ səriştə üzərində işləyərkən aşağıdakı mərhələlərdən keçir [10]:

Şüursuz səriştəsizlik – kommunikasiyanı necə inkişaf etdirməyi bilmir və tamamilə kommunikasiya etdiyindən xəbərsiz olur;

Şüurlu səriştəsizlik – kommunikativ səriştə haqqında biliklərə yiyələnir, ancaq nitq zamanı bunu tətbiq edə bilmir;

Şüurlu səriştəlilik – yaxşı kommunikasiya edir və bu təcrübədən öyrənir, gələcəkdəki qarşılıqlı əlaqəni bunun əsasında yaradır;

Şüursuz səriştəlilik – fikirləşmədən kommunikasiya edə bilir və sosial həyatda təbii bacarıq kimi formalaşır.

Bir qayda olaraq, kommunikativ səriştəyə malik tələbə eyni zamanda kommunikativ üslublara da yiyələnmiş olur. Kommunikativ səriştəyə malik olmanın üstünlükləri aşağıdakılardır:

Kommunikativ məqsədə özünü təqdim etmə məqsədi – kim olduğunu göstərmək;

Digərləri ilə münasibət qurma məqsədi – ətrafındakılar ilə necə münasibət qurub inkişaf etdirmək olar;

Alət məqsədi – şəxsiyyətlərarası mübahisələri necə həll etmək, qarşı tərəfə necə təsir edib inandırmaq olar.

Yanlış məlumatı müəyyən etmək – kommunikativ səriştəyə malik tələbə məzmun və sözsüz açarlardan (bədən dili) istifadə edərək qarşı tərəfin doğru və ya yanlış məlumat verdiyini bilir;

İncidici terminlərdən və stereotiplərdən uzaq olmaq – bu, həmçinin tələbənin geniş söz ehtiyatına və dərin biliklərə malik olduğunu göstərir;

Mübahisələri azaltmaq – kommunikasiya prosesində kommunikativ səriştəyə malik tələbə şəxsiyyətlərarası münasibətlərdə gərginliyi görərək mübahisələri azalda bilər, məsələn, mövzunu dəyişərək, hər iki tərəf ortaq məxrəc taparaq və s.

Tələbələrə kommunikativ səriştənin nə olduğunu aşıladıqdan və onların bu bacarıqlara yiyələnməsindən sonra kommunikativ səriştəni inkişaf etdirmək lazımdır. Bunun üçün tələbə aktiv və diqqətli dinləməli, fikirlərini aydın çatdırmalı, daim öz üzərində işləməli və qarşı tərəfin rəyini bilməlidir.

Kommunikativ tapşırıqlar. İngilis dilinin kommunikativ yanaşma vasitəsilə tədrisi zamanı çoxsaylı tapşırıq növlərindən istifadə edilir. V.Littlevood [15] tərəfindən tapşırıqlar "funksional kommunikasiya tapşırıqları" və ya "kommunikasiyadan öncəki tapşırıqlar" və "sosial əlaqə tapşırıqları" və ya "kommunikativ tapşırıqlar" olmaqla iki qrupa ayırılmışdır. Funksional tapşırıqların məqsədi linqvistik formaları mənimsəmək, kommunikativ tapşırıqların əsas məqsədi mənalı kommunikasiyadır. Bir qayda olaraq şəkili təsvir etmək, oxşar və fərqli xüsusiyyətləri tapmaq, xəritə üzərində iş, buraxılmış məlumatları tapmaq kimi tapşırıqlar funksional kommunikasiya çalışmalarına, söhbət, müzakirə, dialoq, rol oyunları, debatlar isə sosial əlaqə tapşırıqlarına aiddir [1]. C.Riçards və T.S.Rodcers kommunikativ yanaşma vasitəsi ilə tədris prosesində istifadə olunan çalışmaları üç qrupa ayırır:

a) Mətnə əsaslanan çalışmalar. Dərs zamanı müəllimin tələbələrə hər hansı mətni təqdim etməsi, sonra həmin mövzuya aid sual verməsi, qeyd aparması mətnə əsaslanan çalışma növünə misaldır.

b) Tapşırığa əsaslanan çalışmalar. Müxtəlif oyunlar, rol oyunları, mövzuya uyğun söhbət və dialoqlar isə tapşırığa əsaslanan çalışma növünə aid nümunələrdir.

c) Real çalışmalar.

Bir çox alimlər göstərir ki, oyunlar dərsi daha kommunikativ və effektiv edir. Bəzi tədqiqatçılar oyunları iki qrupa bölür – yarış oyunları və birgə oyunlar [13]. Oyunlardan həm dil bacarıqlarını, həm də yalnız ünsiyyət bacarığını inkişaf etdirmək üçün istifadə edilir. Əvvəlki metodlardan fərqli olaraq, kommunikativ yanaşmada həqiqi və real həyatdan götürülmüş materiallardan ibarət olan real çalışmalar tələbələrdə daha çox maraq yaradır. Belə ki, bu tip çalışmalara qəzet və jurnallardan olan məqalələr, xəritələr, cədvəllərlə iş və son xəbərlərin müzakirəsi aid edilir. Suppiah, Subramaniam və Maykl real çalışmalar qrupuna aid olan və "Throw-away" adlandırdıqları materialların əhəmiyyətli olduğunu vurğulayır. "Throw-away" material asan əldə edilən, rəngarəng, heç bir maddiyyat tələb etməyən materiallardır. Lakin bu zaman materialın dili (qrammatikası, sözləri) tələbənin səviyyəsinə uyğun olmalıdır. K.Morrou və K.Johnson "Communicate" [17] adlı kitabında tələbələrin danışmaq bacarıqlarını inkişaf etdirmək üçün yalnız vizual şəkillərdən və səsli dinləmələrdən istifadə edilməsini əhəmiyyətli saymışdı.

Kommunikativ dil tədrisinin məqsədi tədris edilən dildə mənalı ünsiyyət qurmaq, başqa sözlə, kommunikativ səriştəyə malik olmaq olduğundan müəllim sinifdə müxtəlif növ tapşırıqlardan istifadə etməlidir. Məsələn,

Kommunikativ fəaliyyət tapşırıqları. Tələbələr kommunikasiya aktının baş verdiyi həqiqi situasiyalarda dildən istifadə etməlidir və qeyd etmək lazımdır ki, istifadə edilən dil əvvəlcədən bəlli olmamalıdır, məs., istiqamət soruşmaq, bank xidməti:

Banker: How can I help you?

Ed: I'd like to cash a check.

Banker: Endorse this, please. May I see some ID?

Ed: I'd also like to apply for a loan. Can you explain a balloon loan and fixed rate loan? Which is better?

Banker: You'll have to speak to a bank officer about that. Do you want large or small bills?

Ed: Tens and twenties, please.

Məlumat boşluqlarının doldurulması çalışması. Bu çalışma növündən istifadə edərkən tələbələr əvvəlcədən onların bilmədikləri məlumatı qarşı tərəfdən öyrənmək üçün ünsiyyət saxlayır, məs., tələbələr cütlüklərə bölünür və bir-birlərinə sual verib məlumat əldə edirlər: təyyarənin uçuş və enmə vaxtı, uçuş müddəti, təyyarə biletinin qiyməti və s.

Tapşırığın tamamlanması. Tələbə vəsaitdən istifadə edərək tapşırığı tamamlamalıdır, məs., yapboz, xəritəyə əsasən yerləri müəyyən etmək [24].




• Məlumat toplanılması çalışması. Bu növ tapşırığı yerinə yetirərkən tələbə vəsaitdən istifadə edərək məlumat toplamalıdır, məs., sorğu, intervü:

Survey

- ✓ What are your favourite/least favourite subject?
- ✓ What do you like most/least about school?
- ✓ With subject are you struggling with?
- ✓ Which activities in the classroom do you enjoy the most?
- ✓ How is your teachers' attitude towards your questions?
- ✓ How many hours do you spend on your homework everyday?

• Fikir mübadiləsi tapşırığı. Tələbələr öz fikirlərini, dəyərlərini, inanclarını və istəklərini bölüşür, məsələn, yaxşı dostun keyfiyyətləri, ideal müəllim necə olmalıdır.

• Məlumatın köçürülməsi tapşırığı. Tələbə bir formadakı məlumatı başqa formada təqdim edir, məsələn, mətn formadakı məlumatı cədvəl və ya xəritə formasında təqdim edir:

At the end of the lesson the teacher took test. Students were ready, because they knew that they would have it on Monday. After checking answers the teacher was happy. Students got the subject, from 50 students 35 got A, 10 got B and only 5 of them got C. There was no fail.




• Nəticə çıxartmaq, məsələn, mətni oxuduqdan və ya dinlədikdən sonra hansı nəticəyə gəldiyini bildirir:

Tapşırıqlar yerinə yetirilərkən və ya kommunikasiya zamanı tələbələrdə motivasiya yaratmaq lazımdır. Təcrübə göstərir ki, audio və vizual vasitələrdən istifadə, müzakirələr, oyunlar, rol oyunları daha çox motivasiyaedicidir.

**Nəticə.** Müxtəlif alim və metodistlərin tədqiqat işlərinin təhlili əsasında müəyyən edilmişdir ki, hər bir alim kommunikativ səriştəni fərqli növlərə ayırsa da, aparılmış bütün tədqiqatlarda kommunikativ səriştənin mühüm əhəmiyyətə malik olduğu vurğulanmışdır. Belə ki, tələbə müxtəlif situasiyalarda kommunikasiyaya nail olmaq üçün bilik (leksik, fonoloji, morfoloji və sintaktik) və bacarıqlarla (oxuma, yazma, dinləmə və danışma) yanaşı fərqli situasiyalarda hansı sözlərdən istifadə etməyi, mövzunu necə başlamalı, dəyişməli və ya bitirməli olduğunu, fərqli strategiyalardan istifadəni, sosial və mədəni məzmunda dildən düzgün istifadə etməyi, bir sözlə, kommunikativ səriştəni mənimsəməlidir.

## ƏDƏBİYYAT


1. *Babayeva N.* Xarici dil təlimi zamanı tələbələrin şifahi nitq bacarıqlarını kulturoloji aspektdə formalaşdıran amillər // Azərbaycan məktəbi, 2021, №2, s.81-88
2. *Bachman L.F.* Fundamental considerations in language testing. Oxford: Oxford University Press, 1990, 408 p.
3. *Breen and Candlin C.* The essentials of a communicative curriculum in language teaching, Applied Linguistics, 1(2), 1980, pp.89-112
4. *Canale M.* Theorotical Bases of Communicative Approaches to Second Language Teaching and Testing, Applied Linguistics 1, 1980, pp.1-47
5. *Celce – Murcia M., Dornyei Z., Thurrell S.* A pedagogical framework for communicative competence: A Pedagogically motivated model with content specifications. In: Issues in Applied Linguistics, Vol. 6, Issue 2, 1995, pp.5-35
6. *Celce – Murcia M., Dornyei Z., Thurrell S.* Direct approaches in L2 instruction: A turning point in Communicative Language Teaching, TESOL Quarterly 1997, 31(1), pp.141-152
7. *Celce-Murcia M.* Rethinking the Role of Communicative Competence in Language Teaching. In: Soler E.A.-Jorda Safont M.P. (eds.), Intercultural Language Use and Language Learning. Springer, Dordrecht, 2008, pp.41-57
8. *Halliday M.A.K.* "Functional Diversity in Language as seen from a Consideration of Modality and Mood in English. Foundations of Language" // International Journal of Language and Philosophy, 6, pp. 322–6; in M.A.K. Hallidey, 2005, Studies in English Language.
9. *Halliday M.A.K.* Learning How to Mean. London: Edward Arnold, 1975, p.176

10. *Hargie O.* Skilled Interpersonal Interaction: Research, Theory, and Practice (London: Routledge), 2011, p.605
11. *Harmer J.* The Practice of English Language Teaching, 3rd Edition, Harlow: Longman, 2001, p.442
12. *Hymes D.* On Communicative Competence, In J.B.Pride and J. Holmes (eds). Sociolinguistics. Harmondsworth:Penguin, 1972, pp.269-293
13. *Johnson D.W., Johnson R.T. & Stanne M.B.* Cooperative learning methods: A meta-analysis. Cooperative Learning Center, University of Minnesota, 2000, p. 40.
14. *Larsen-Freeman D.* Techniques and Principles in Language Teaching, New York: Oxford University Press, 1986, p. 132
15. *Littlewood W.* Communicative Language Teaching. Beijing: Foreign Language and Research Press, 2000
16. *Littlewood W.* Communicative language teaching: An expanding concept for a changing world. In E. Hinkel (ed.), Handbook of Research in Second Language Teaching and Learning, Volume II. New York: Routledge, 2011, pp.541-547
17. *Morrow K., Johnson K.* Communicate: English for social interaction, Cambridge University Press, 1979, p.155
18. *Ozsevik Z.* The use of communicative language teaching (clt): turkish efl teachers' perceived difficulties in implementing CLT in Turkey, Urbana, Illinois, 2010, p.155
19. *Piepho H.E.* Establishing objectives in the teaching of English. In C.Candlin (ed.), The Communicative Teaching of English: Principles and an Exercise Typology, London, Longman, 1981, pp.8-23
20. *Richards J.C., Rodgers T.S.* Approaches and Methods in Language Teaching. Cambridge: Cambridge University Press, 1986, p.169
21. *Uso-Juan E., Martinez-Flor A.* Current Trends in the Development and Teaching of the Four Language Skills. Walter de Gruyter, 2006, 499 p.
22. *Widdowson H.G.* Teaching Language as Communication, OUP Oxford, 1978, p.168
23. *Wilkins D. A.* Notional Syllabuses, Oxford University Press,1976, p.89
24. http://www.eslcrosswords.com/pdfs/Illness%20&%20TreatmentADV13_pairs.pdf


Redaksiyaya daxil olub 24.11.2023

**Pedaqoji Universitetin Xəbərləri. Riyaziyyat və təbiət elmləri seriyası – 2023, C. 71, №4, s. 45-51**
**Transactions of Pedagogical University. Series of mathematics and natural sciences – 2023, V. 71, №4, pp. 45-51**

***UOT 81.37***

***T.H.İsmayılova***
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi*
*Akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*tunzaleismailova7@gmail.com*

# QARABAĞIN TARİXİ HƏQİQƏTLƏRİNİ ƏKS ETDİRƏN, SOYQIRIMA MƏRUZ QALAN TOPONİMLƏRİ

***Açar sözlər:*** *toponomika, Qarabağ, təcavüzkar, erməni, mədəni irs, terrorçu, azad olunan ərazilər, saxtalaşdırma*

Məqalədə ermənilərin təkcə Qarabağın əhalisinə deyil, eyni zamanda tarixi həqiqətlərini yaşadan toponimlərinə kütləvi şəkildə təcavüz etmələri işıqlandırılmışdır. Son yüz ildə saysız Azərbaycan mənşəli toponimlərin erməniləşdirildiyi şərh olunur. Erməni təcavüzkarlarının əsas məqsədi özlərini "yerli xalq" kimi göstərmək, buranın "yerli əhali"si kimi qələmə vermək istəyi, Azərbaycan-türk mənşəli toponimləri saxtalaşdırmağa maraqlı olduqları haqqında geniş məlumatlar yer alıb. Tarixi vərəqləyərək toponimlərin dəyişdirilməsi prosesinin zaman-zaman aparılması, mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq, əqli mülkiyyətimizin terrorçusuna çevrilərək neçə əsrlərdir ki, Azərbaycan toponimlərinə qarşı təcavüzkar siyasətlərini reallaşdırdıqları təhlil olunur. Azərbaycan Ordusunun işğal edilmiş əraziləri azad edəndən sonra həmin yaşayış məntəqələrinin, coğrafi obyektlərin tarixi adlarının bərpa edilməsi, Qarabağ ərazisi azad edildikcə qarşıda yüzlərlə belə yaşayış məntəqəsi və coğrafi obyektin özünün əvvəlki toponimikasına qayıtması zərurətinin yaranması şərh olunur.

***Т.Г.Исмаилова***

# ТОПОНИМЫ, ОТРАЖАЮЩИЕ ИСТОРИЧЕСКИЕ ИСТИНЫ КАРАБАХА, ПОДВЕРГШИЕСЯ ГЕНОЦИДУ

***Ключевые слова:*** *топономика, Карабах, агрессор, армянин, культурное наследие, террорист, освобожденные территории, фальсификация*

В статье освещается массовое посягательство армян не только на население Карабаха, но и на их топонимы, которые живут своей исторической правдой. Говорят, что за последние сто лет бесчисленное количество топонимов азербайджанского происхождения были арменизированы. Имеются обширные сведения об основных целях армянских агрессоров: представить себя «местными жителями», охарактеризовать себя как «местное население» этой местности, фальсифицировать топонимы азербайджано-турецкого происхождения. Анализируется процесс смены топонимов время от времени, попыток внедрения образцов культурного наследия под именем армянского достояния, превращения в террористов нашей интеллектуальной собственности и проведения агрессивной политики против азербайджанских

топонимов на протяжении столетий. После освобождения азербайджанской армией оккупированных территорий, восстановления исторических названий тех населенных пунктов и географических объектов и необходимости возвращения сотен таких населенных пунктов и географических объектов к их прежней топономике, по мере освобождения территории Карабаха, объясняется.

***T.Kh.Ismailova***

**TOPONYMS REFLECTING THE HISTORICAL TRUTHS OF KARABAKH, SUBJECT TO GENOCIDE**

***Keywords:*** *топономика, Карабах, агрессор, армянин, культурное наследие, террорист, освобожденные территории, фальсификация*

The article highlights the mass encroachment of Armenians not only on the population of Karabakh, but also on their toponyms, which live by their historical truth. It is said that over the past hundred years, countless toponyms of Azerbaijani origin have been Armenianized. There is extensive information about the main goals of the Armenian aggressors: to present themselves as "local residents", to characterize themselves as the "local population" of this area, to falsify toponyms of Azerbaijani-Turkish origin. The process of changing toponyms from time to time, attempts to introduce samples of cultural heritage under the name of Armenian heritage, turning our intellectual property into terrorists and pursuing an aggressive policy against Azerbaijani toponyms over the centuries is analyzed. After the liberation of the occupied territories by the Azerbaijani army, the restoration of the historical names of those settlements and geographical objects and the need to return hundreds of such settlements and geographical objects to their former toponymy, as the territory of Karabakh was liberated, it is explained.

## Giriş

Toponimlər hər bir xalqın milli kimliyinə, milli indentikliyinə söykənən bir amildir. Azərbaycan türkləri tarixən yaşadıqları, sahib olduqları torpaqlarda özlərinin toponimlərini yaradıbdır. Hər hansı bir ərazidə toponimlər sisteminin formalaşması üçün yüz illər, bəlkə də min illər lazımdır. Cənubi Qafqazda qədim türklərə, oğuz və qıpçaq boylarına məxsus toponimlərin yaranmasından min illərlə zaman keçir. Bunları yaşadıqları ərazinin coğrafi relyefi, tarixi şəxsiyyətlərinin və tayfaların adları ilə adlandırmışlar. Keçmişə nəzər saldıqca, qədim türk tayfalarının yaşadıqları ərazilərdə toponomik cəhətdən dəyişdirilən adlar tarixi şəxsiyyətlərinin və tayfaların adları ilə üst-üstə düşür. Qafqaz ətrafı ölkələr olaraq Azərbaycan, Gürcüstan və indiki Ermənistan ərazisində on minlərlə toponim məhz tarixin qədim qatlarında formalaşmışdır [1].

## Tədqiqatın şərhi

Bildiyimiz kimi, tarixi Azərbaycan torpağı olan İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradılmışdır. Rusiya tərəfindən 1827-ci ildə İrəvan və

Naxçıvan xanlıqları işğal edildi. Sonra yeni yaradılan inzibati-ərazi vahidində, yəni "Erməni vilayəti"nin ərazisinə daxil edilən 1111 kənddən yalnız 62-sində ermənilər yaşayırdı. Onlar da 1828-ci ilədək buraya köçürülmüş ermənilər idi. Burada göstərilən 62 kəndin ancaq 14-nün adı erməni mənşəli idi.

1827-ci ildə Rusiya İrəvan xanlığını işğal etmişdi, 1918-ci ildə isə tarixi Azərbaycan torpaqlarında Ermənistan Respublikası yaranmışdı. Bu müddət ərzində həmin ərazidə yalnız üç azərbaycanlı yaşayış məntəqəsinin adları dəyişdirilmişdi. 1828-ci ildə işğaldan sonra İrəvan şəhəri Erivan adlandırılmışdır. 1837-ci ildə Gümrüyə gəlməsindən sonra İrəvan şəhərinin adı dəyişdirilərək Rusiya çarı İ.Nikolayın çarın arvadı Aleksandra Feodorovnanın şərəfinə Aleksandropol adlandırılmışdır [2].

Türk mənşəli toponimlərin erməniçələşdirmə kampaniyasına Ermənistanda hələ daşnak hökuməti zamanında başlanılmışdır. Ermənistan hökumətinin qərarı ilə daxili işlər nazirliyinin nəzdində kəndlərin, şəhərlərin, çayların və dağların adlarının dəyişdirilməsi üçün 1919-cu ilin dekabrında xüsusi komissiya yaradılmışdı.

İkinci Dünya müharibəsindən sonra toponimlərin dəyişdirilməsi prosesi daha da sürətləndi. Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana 1946–1948-ci illərdə köçən ermənilərin sayı artmışdı. Təqribən 90 000 erməninin Qərbi Azərbaycana köçürülməsi qeyd olunan illərdə buna səbəb idi. Bu zaman toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası olunması idi.

Deportasiya olunmuş 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlılar Ermənistandan köçürüldü. O zamandan artıq soyqırımı başlanmışdı. Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırımın qurbanı olub. Beləliklə, zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. 1930-cu il sentyabrın 9-da adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Ərazidə yerləşən göllərin, irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çayların adları dəyişdirilərək erməniləşdirilib. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmiş adı Masrik) çayıdır. Basarkeçər 1969-cu il iyunun 11-nə kimi öz adı ilə adlandırılıb. Lakin həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Çaxırlı yaylası da bu rayon ərazisindədir [1]. Cədvəl 1-də Qarabağdakı kəndlərimizin adları 1954-cü ildən 2009-cu ilədək dəyişdirilmiş versiyası verilmişdir.

Silah gücünə boşaldılmış azərbaycanlı yaşayış məntəqələrində Türkiyədən qaçıb gələn erməni qaçqınlarının məskunlaşdırılması ilə yanaşı, həmin yaşayış məntəqələrinin adları da zaman-zaman dəyişdirilib. Tarixi vərəqləsək, ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir. Bu zaman çərçivəsində təkcə ərazi iddiaları ilə təcavüzkar siyasətlərini davam etdirməyiblər, eyni zamanda mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikib, onları özününküləşdirməyə çalışıblar [6].

***Cədvəl 1***

*Qarabağda adları dəyişdirilən kəndlərin yeni adları*

| Yeni adlar | Keçmiş adlar | Daxil olduğu inzibati ərazi vahidi | Tarix |
|---|---|---|---|
| Ağgədik | Kötük | Xocalı | 29.12.1992 |
| Ağoğlan | Kosalar | Laçın | 22.11.1965 |
| Aşağı Fərəcan | Cəfərabad | Laçın | 20.01.1954 |
| Ballıqaya | Kiçan | Ağdam | 29.12.1992 |
| Əfətli | Məşədilər | Ağdam | 30.06.1954 |
| Çəmənli | Dilənçilər | Bərdə | 14.04.2009 |
| Ağoğlan | Kosalar | Laçın | 22.11.1965 |
| Zəngilan | Pirçivan | Zəngilan | 31.08.1957 |

***Mənbə:*** *Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. İrəvan Quberniyasının sosial-demoqrafik inkişafı və toponimikanın qorunması problemləri. Bakı,* 2022

Təcavüzkar ermənilərin Azərbaycan ərazilərinə, xüsusən də Qarabağ torpaqlarına keçən əsrlərdən köçməsindən sonra yerləşdikləri ərazilərdəki yaşayış məntəqələrinin adlarını dəyişdirərək erməniləşdirmişdilər. O zaman elədikləri cəhdləri hazırda həmin yaşayış məntəqələrinin dünyada ermənilərin tarixi torpağı kimi tanınmasına səbəb olur. Keçən 2 əsrdə Qarabağdakı bir çox yaşayış məntəqələrinin adları dəyişdirilmiş və ərazi işğal edildikdən sonra isə qalan kənd və şəhərlərin də adını dəyişib erməni adları qoyublar. Cədvəl 2-də onlardan bəzilərini təqdim edək [1].

Azərbaycan toponimlərinə qarşı təcavüzkar siyasətlərini reallaşdırmaq əsrlərlə davam etmişdir. Keçən bu dövrlərdə mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışmışlar.

Ermənilər həm Qərbi Azərbaycanda, həm də Qarabağda və ətraf rayonlarda olan toponimləri kütləvi şəkildə saxtalaşdırıblar, bunları xəritələrə, kitablara salıblar. Erməniləşdirdikləri Azərbaycan toponimləri ilə bağlı qondarma ensiklopediyalar çap ediblər, bu saxta materialları müxtəlif dillərdə yayıblar. Bu torpaqlar işğalda olduğu üçün əvvəllər bu ərazilərin toponimikasına müdaxilə edə bilmirdik. Amma bu gün ərazilərimiz işğaldan azad edilib və bu da bizə imkan verir ki, düşmənin kütləvi olaraq saxtalaşdırıb erməniləşdirdiyi Azərbaycan-türk toponimlərinin tarixi adlarını yenidən bərpa edək. Çünki ermənilər heç cür bizim öz torpaqlarımızı işğaldan azad etməyimizlə barışmır, erməni alimləri bundan sonra çalışacaqlar ki, öz uydurma kitablarını, xəritələrini, dəyişdirdikləri toponimləri reklam edərək, beynəlxalq aləmdə bu saxtakarlıqlarını davam etdirsinlər.

***Cədvəl 2***

*Qarabağın bəzi rayonlarında sonradan adları dəyişdirilən kəndləri*

| **Rayon** | **Kənd** | **Dəyişdirilmiş adı** |
|---|---|---|
| Şuşa | Sarıbaba | Yextsahoğ |
| Şuşa | Böyük Qaladərəsi | Metsqaladərəsi |
| Şuşa | Onverst | Saxkadzor |
| Şuşa | Sarıbaba | Yextsahoğ |
| Şuşa | Göytala | Qanaçtala |
| Kəlbəcər | Alıbəyli | Tirkeşvənd |
| Ağdərə | Dovşanlı | Araçadzor |
| Ağdərə | Dəvədaşı | Poqosoqomer |
| Xocalı | Sərdarkənd | Sardaraşen |
| Xocalı | Seyidbəyli | Seyidişen |
| Xocalı | Almalı | Xndzristan |
| Xocalı | Aşağı Yemişan | Nerkin Sıznek |
| Xocalı | Ağgədik | Kətük |
| Xocalı | Dağyurd | Saruşen |
| Xocalı | Xanyurdu | Xanadzax |
| Xocalı | Daşkənd | Daşuşen |
| Xocavənd | Ağkənd | Spitakşen |
| Xocavənd | Arpadüzü | Kolxozaşen |
| Xocəvənd | Binədərəsi | Banazur |
| Xocəvənd | Cütcü | Maçkalaşen |
| Xocəvənd | Çağadüz | Sərkisaşen |
| Xocəvənd | Mirikənd | Miruşen |
| Xocəvənd | Çörəkli | Hatsi |

***Mənbə:*** *Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. İrəvan Quberniyasının sosial-demoqrafik inkişafı və toponimikanın qorunması problemləri. Bakı,* 2022.

Tarix boyu formalaşmış toponimlər sistemini kökündən dəyişdirmək həmin xalqın tarixi-coğrafi ərazidəki izlərinin silinməsinə xidmət edir. Təcavüzkar Ermənistan Respublikasında azərbaycanlılara məxsus toponimlərin dəyişdirilməsi rəsmi dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Onların fikrincə, adları dəyişməklə sanki bu əraziləri xəritələrdən silməyə belə nail olacaqlar [7].

Azərbaycan mənşəli toponimlərin erməniləşdirildiyi son yüz ildə aparılan tədqiqatlardan aydın görünür. Təcavüzkar ermənilərin əsas məqsədi özlərini “yerli xalq” kimi göstərmək, buranın “yerli əhali”si kimi qələmə vermək istəyi olub. Kütləvi şəkildə Azərbaycan-türk mənşəli toponimlər bu mənfur düşmənlər tərəfindən saxtalaşdırılmışdır.

30 ilə yaxın işğala məruz qalan Qarabağ ərazisi 44 günlük Vətən müharibəsi nəticəsində azad oldu. Azadlığına qovuşan Qarabağ torpaqlarında türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Belə ki, 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Suqovuşan kəndi 1923-cü ildə təşkil edilmiş Dağlıq Qarabağ Muxtar Vilayətində Ağdərə rayonu inzibati ərazisinə daxil edilib. Suqovuşan kəndi də Tərtər rayonuna birləşdirilən kəndlərdən biri olmuşdur. 1991–1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən Suqovuşan ilk dəfə işğaldan azad edilib. 1994-cü ilin aprel ayında Manvel Qriqoryanın başçılığı altında Ermənistan ordusunun Eçmiədzin könüllülər dəstəsi yenidən Suqovuşanı işğal edib. Hazırda isə Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. 1943-cü ildə Suqovuşana şəhər tipli qəsəbə statusu verilmişdi. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi qonşu Ağdam rayonu, Tərtər rayonu və Kəlbəcər rayonu arasında bölüşdürüldü [8].

Toponim və tarixçi alimlərimizin apardıqları tədqiqatlara əsasən deyə bilərik ki, ermənilər Azərbaycan adlarını dəyişdirərkən yeni ad tapa bilmədiklərindən ya öz dillərinə sözləri tərcümə edib, ya da sözlərin yazılışında bir-iki hərf dəyişdirilmişdir. Onlardan bəzilərini misal göstərmək olar. Məsələn, Dəmirçi sözü Darpnik kimi, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Məlikkənd-Melikgyuğ kimi adlandırılmışdır [7].

Azərbaycan Ordusu işğal edilmiş əraziləri azad edəndən sonra həmin yaşayış məntəqələrinin, coğrafi obyektlərin tarixi adlarının bərpa edilməsi zərurəti ortaya çıxıb. Qarabağ ərazisi azad edildikcə adları da bərpa edilməidir. Hələ qarşıda yüzlərlə belə yaşayış məntəqəsi və coğrafi obyekt qalır ki, özünün əvvəlki toponimikasına qayıtsın. Ona görə də bu sahədə çalışan alimlərimiz, yaradılan Toponimika Komissiyası ümid edirik ki, işğaldan azad olan ərazilərdə adların mənşəyini dəqiq izah etməyə səy göstərərlər.

Dəyişdiriləcək yeni adların da mənaları qədim tariximizi, mədəniyyətimizi, dilimizi özündə əks etdirməlidir. Məsələn, coğrafi bölgələrimizin, 30 il müddətində zaman-zaman şəhid olan Azərbaycan oğullarının, tariximizə qızıl hərflərlə yazılan

44-günlük müharibədə qəhrəmanlıq göstərən, şəhidlik zirvəsinə ucalan igid oğulların adlarından istifadə etmək olar. Manna, Midiya, Alban, Qarqar, Arsak, Göyçə, Atropatena, Qarqarlı, Uruzlu, Maday, Kutilər, Saklar, Babək, Qorqudlu, Bayandurlu, Qazan, Buta, Baharlı, Xalçalı, Novruzlu, Şamlıq, Muğlar, Xıdırlı, Qatlar, Polad, Xudayar, Zaur, Xəyyam və s. Bu istəyimizi həyata keçirməliyik, biz bu torpaqlarda ən qədim xalq olduğumuzu qədim toponimlərimizi bərpa etməklə təsdiq etməliyik [1].

Azərbaycanın qədim tarixini, mədəni irsini yaşatmalıyıq. Çünki qədim diyar olan vətənimiz nə islam dininin burada yayılmasından, nə də Albaniyadan sonra yaranan ərazi deyil. Xalqımız bu torpaqlarda 10 min illik mədəniyyət və tarix yaradıb. Bu irsə sahib çıxmalıyıq və bu qədim tarixi qorumalıyıq. Sübut etməliyik ki, bu ərazilərdə məskən salmış ən qədim xalq bizik, gəlmə olan erməni təcavüzkarlarıdır. Şəhidlərimizin axan qanı naminə tarixi-mədəni irsimizi və ədaləti bərpa etməliyik.

**Nəticə**

Qarabağın tarixi həqiqətlərini yaşadan, soyqırımına məruz qalan toponimlərini bərpa etmək üçün həm tarixi toponimlər, həm də Azərbaycan Ordusunun Vətən müharibəsində tarix yazan oğullarının göstərdiyi qəhrəmanlıqları, yeni tarixin nişanələri ilə bağlı yer adlarının qoyulması daha məqsədəuyğun olar. Bütün Qarabağ erməni işğalından tamamilə azad olunandan sonra erməni əhalisinin yaşamaq üçün qaldığı yaşayış məntəqələri Azərbaycanın nəzarətinə qaytarılanda dünya birliyində Qarabağda şəhər və kəndlər qanuni Azərbaycan adlarına qayıdacaqlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu. İrəvan Quberniyasının sosial-demoqrafik inkişafı və toponimikanın qorunması problemləri. Bakı, 2022
2. Azərbaycan toponimləri: ensiklopedik lüğət. Bakı, 1999, 588 s.
3. *Budaqov B.Ə., Qeybullayev Q.Ə.* Ermənistanda Azərbaycan mənşəli toponimlərin lüğəti. Bakı, 1998, 262 s.
4. *Qeybullayev Q.A.* Azərbaycan toponimiyası. Bakı: Elm, 1986, 192 s.
5. *Nəbiyev N.* Coğrafi adların mənşəyi. Bakı: Azərnəşr, 1965, 70 s.
6. *Əliyev C., Budaqov B.* Türklər, azərbaycanlılar, ermənilər: soyqırımı, tarixi həqiqət. Bakı: Azərbaycan, 2003, 176 s.
7. *Çingizoğlu Ə., Baxşəliyev F.* Qarabağın el və obaları. Bakı: Şuşa, 2007, 224 s.
8. *Xəlilli X.* Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi. Bakı, 2007, 386 s.

Redaksiyaya daxil olub 01.06.2023

# İctimai elmlər

*UOT 342.5:008*

***R.Ə.Abbasova***
*Azərbaycan Dillər Universiteti*
*aygun.qasimova.88@mail.ru*

## AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU (1969-1982-ci illər)

***Açar sözlər:*** *mədəniyyət, incəsənət, təhsil, teatr, kinematoqrafiya, musiqi*

70-80 ci illərdə Azərbaycan mədəniyyətinin inkişafı tariximizin parlaq səhifələrindən birini təşkil edir. Ümummilli lider H.Əliyev milli kadrların peşəkarlıq səviyyəsini artırmaq üçün təhsil, elm, mətbuat, ədəbiyyat, incəsənətin inkişafı üçün əlverişli atmosfer yaranmasına xüsusi diqqət vermişdi. Respublikamızın mənəvi dəyərləri, kadr potensialı güclənmiş oldu. Respublikanın uzaqgörən rəhbəri xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi, Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin dünyada tanınması üçün şərait yaratmışdı.

***Р.А.Аббасова***

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В РАЗВИТИИ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА В 1969-1982-х ГОДАХ

***Ключевые слова:*** *культура, искусство, образование, театр, кинематография, музыка*

Развитие азербайджанской культуры в 70-80-е годы – одна из ярких страниц нашей истории. Общенациональный лидер Г.Алиев уделил особое внимание созданию благоприятной атмосферы для развития образования, науки, печати, литературы и искусства в целях повышения профессионального уровня национальных кадров. Укрепились моральные ценности и кадровый потенциал нашей республики. Дальновидный руководитель республики создал условия для изучения культурного наследия, истории, языка народа, признания деятелей культуры и искусства Азербайджана в мире.

***R.A.Abbasova***

## THE ROLE OF HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF AZERBAIJANI CULTURE IN THE 69s AND 82s

***Keywords:*** *culture, art, education, theatre, cinematography, music*

The development of Azerbaijani culture in the 70s and 80s is one of the bright pages of our history. National leader H.Aliyev paid special attention to the creation of a favorable atmosphere for the development of education, science, press, literature, and art in order to increase the professional level of national personnel. The moral values and personnel potential of our republic have strengthened. The visionary leader of the republic created conditions for the study of the cultural heritage, history, language of the people, and for the recognition of Azerbaijan's cultural and artistic figures in the world.

1969-1982-ci illərdə Azərbaycan SSR-nin rəhbəri olmuş Ulu Öndər Azərbaycanın gələcəkdə müstəqil dövlət olacağına əmin olduğu üçün milli kadrların yetişdirilməsinə xüsusi diqqət verirdi. Azərbaycanlı olduğu ilə fəxr edən Ümummilli Lider hər zaman Azərbaycanlı gəncləri, tariximizi, milli kimliyimizi, mədəniyyətimizi öyrənməyə çağırırdı. H.Əliyev təhsilə, elmə, mədəniyyətə böyük diqqət və qayğı göstərirdi. 1969-1982-ci illərdə uşaq müəssisələrinin, məktəblərin maddi-texniki bazası möhkəmlənmiş, təhsilin keyfiyyəti yüksəlmişdir. 70-80-ci illərdə Azərbaycanda ali və orta təhsil inkişaf edirdi. Ölkənin 4356 orta məktəbində 1,5 mln. şagird, ali və orta ixtisas məktəblərində 100 mindən artıq tələbə təhsil alırdı. 70-80-ci illərdə 101 min nəfərlik məktəbəqədər, 2185 məktəbdən kənar uşaq müəssisələri, 240 uşaq idman, 210 uşaq musiqi məktəbi fəaliyyət göstərirdi. 70-80-ci illərdə 100 texniki-peşə məktəbi açılmışdı ki, burada 83 minə yaxın gənc müxtəlif peşələrə yiyələnirdilər. Respublikada 70-80-ci illərdə 78 orta ixtisas məktəbində hər il 60-70 min tələbə təhsil alırdı. Respublikada bu illərdə ali təhsil də inkişaf edirdi. 1971-ci ildə Rus dili və ədəbiyyatı və Pedaqoji Xarici Dillər İnstitutları, məktəblərin 98%-də fənn kabinələri, laboratoriyalar, əmək emalatxanaları fəaliyyət göstərirdi. 1972-ci ildə İnşaat Mühəndislər İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu, 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji İnstitutları açıldı. Milli kadrlara olan tələbatı nəzərə alaraq, 6000-dən çox gənc təhsil almaq üçün ölkənin Moskva, Leninqrad, Kiyev, Minsk kimi şəhərlərinə bilavasitə H.Əliyevin təşəbbüsü və dəstəyi ilə göndərilir, vətənə lazımlı kadr kimi geri dönürdülər [7]. Ölkənin gələcəkdə hərbi potensialını qurmaq və bilavasitə H.Əliyevin düşünülmüş siyasəti nəticəsində 1971-ci ildə C.Naxçıvanski adına hərbi internat məktəbi açıldı. Bu vaxta qədər Azərbaycan gəncləri SSRİ ordularında yalnız inşaat hərbi batalyonlarında və ya perspektivsiz II-III dərəcəli batalyonlarda hərbi xidmət keçirdilər. Bu Ulu Öndəri təmin etmirdi. O, bilirdi ki, Azərbaycan gec-tez müstəqillik əldə edəcək və SSRİ istibdadından qurtaracaq. Bu işdə Azərbaycana savadlı hərbi kadrlar lazım olacaq. H.Əliyev deyirdi: "Bir dövlətin mövcudluğu üçün əsas atributlardan biri ordudur. Ordu olmazsa, dövlətin mövcudluğu zərbə altında olar". Ovaxtkı SSRİ də Suvorov və Naximov adına hərbi məktəblər vardı, burada

da Azərbaycanlı gənclərin təhsil alması üçün çox böyük çətinliklər törədilirdi. Doğrudan da hərbi məktəbi bitirən gənclər bilavasitə H.Əliyevin dəstəyi və qayğısı ilə ölkənin ali hərbi məktəblərində hərbi işin sirlərini öyrəndilər, bu da milli hərbi kadrların yetişməsində, gələcəkdə Qarabağ müharibəsində qalib gəlmək üçün rüşeym oldu. Azərbaycanın igid oğullarının 44 günlük Vətən müharibəsindəki qələbəsi məhz Ulu Öndərin əsasını hələ 70-ci illərdə qoyduğu kadr siyasətinin bariz nümunəsidir. H.Əliyev deyirdi: "C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacam" [9]. Azərbaycan elminin inkişafında H.Əliyevin rolu böyükdür. O, həmişə ziyalılara, alimlərə xüsusi diqqəti ilə seçilib. XX əsrdə sürətlə inkişaf edən Azərbaycan elmi H.Əliyevin dövründə xüsusilə fərqlənirdi. Yeni elm sahələri: neft-kimya sənayesi, kimya, neft emalı sənayesinə kapital qoyuluşu artmış, astronomiya, kosmik tədqiqatlar, biokimya, molekulyar biologiya, biofizika, biotexnologiya sahələri inkişaf etmişdir. Bu dövrdə respublikada onlarla nəhəng sənaye kompleksi: neft emalı, neft-kimya, maşınqayırma müəssisələri yaradıldı ki, bu da elmin sürətli inkişafını təmin etdi. "Şamaxı" rəsədxanası SSRİ-də ən böyüklərdən biri idi. "Xəzər" elmi mərkəzinin kosmosun öyrənilməsində danılmaz xidmətləri olmuşdur. 1987-ci ildə Bakıda kosmik tədqiqatlar elmi-tədqiqat mərkəzi fəaliyyət göstərirdi. Akademik Azad Mirzəcanzadə burada öz elmi işlərini yaratmışdı. Bakı "Neft akademiyası" adlanırdı. M.Qaşqay, Ş.Mehdiyev, Ə.Əlizadə fundamental və dəqiq elmlərin əsasını öyrənir, geologiya elminə böyük töhfələr verirdilər. F.Salmanov Qərbi Sibirdə təxminən 20-dən artıq neft yatağı kəşf etmişdi. 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində aparılan elmi tədqiqatların 55-i sovet elminin mühüm nailiyyətləri sırasında qeyd edilirdi. On il ərzində (70-80-ci illər) elmi nailiyyətlərin istehsalata tətbiqi nəticəsində sovet iqtisadiyyatına 570 mln. manat iqtisadi səmərə verilmişdir. Bu dövrdə 5 Azərbaycan alimi Lenin mükafatı laureatı, 14 alim dövlət mükafatı laureatı oldu. Akademik İsmayılov R.X, Topçubaşov M.A., Nağıyev M.F., Hüseynov M.A. sosialist əməyi Qəhrəmanı adı aldılar [3]. Azərbaycan Elmlər Akademiyası, bütövlükdə Azərbaycan elminin inkişafına həyatını sərf etmiş ziyalılara böyük hörmət göstərən Ulu Öndər xüsusilə hakimiyyətdə olduğu 1969-82-ci illərdə onlara dəstək olmuş, mayak rolunu oynamışdı. O, Azərbaycan Elmlər Akademiyasının 50 illik yubileyində demişdir: "Akademiyanın 50 ilinin yarıdan çoxu mənim həyatımla, rəhbərlik dövrümlə bağlıdır. Mən öz siyasi təcrübəmdə, fəaliyyətimdə elmin ən yeni nailiyyətlərindən faydalanmışam" [4]. O,1969-cu il Azərbaycan KP-nin avqust plenumunda demişdir: "Elmlər Akademiyası ETT-nin sürətlənməsi uğrunda, işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmişdir. Elə etmək lazımdır ki, elmə yalnız onu həqiqətən

zənginləşdirməyə, irəlilətməyə qabil olan şəxslər gəlsinlər". Ulu Öndər Azərbaycan elminin ölkədə və dünyada tanınmasına səy göstərir, görkəmli alimlərin yaradıcılığı tədqiq olunur, onlar mükafatlandırılırdılar. 1969-cu ildə respublikada 89 elmi-tədqiqat institutu, 12850 elmi işçi, 55 akademik və müxbir üzv, 329 elmlər doktoru vardısa, 1978-ci ildə bu rəqəm müvafiq olaraq: 118 elmi-tədqiqat institutu, 21407 elmi işçi, 100 akademik və müxbir üzv, 853 elmlər doktoru fəaliyyət göstərirdi [7]. H.Əliyev Elmlər Akademiyasının bir çox elmi-tədqiqat institutlarının binasını: Genetika, Seleksiya, Zoologiya İnstitutlarının binalarını tikdirmişdir. 1979-cu ildə təbiət və ictimai elmlər sahəsində aparılan elmi-tədqiqat işlərinin 55-i sovet elminin nailiyyətləri sırasında qeyd edilirdi. İstehsalata tətbiqi nəticəsində 70-80-ci illərdə (on il ərzində) ölkəyə 570 mln. manat iqtisadi səmərə verilmiş, 850 iş xalq təsərrüfatında müsbət tətbiq edilmişdi [7]. XX əsrin 70-ci illərindən başlayaraq uzaqgörən dövlət xadimi xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, Azərbaycan tarixinin şəffaf şəkildə öyrənilməsi, ana dilimizin rolunun artması, ədəbi-bədii yönümlü topluların hücumlardan qorunması, saflığı, təmizliyi istiqamətində yeritdiyi siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi. O, tarixin, ədəbiyyatın, mədəniyyətin inkişafına diqqət yetirir, humanitar elmlərin bazasını zənginləşdirməyi tövsiyə edirdi. XX əsrin II yarısında Azərbaycan dilinin hərtərəfli inkişafı, onu dövlət dilinə çevirmək bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Bu dilin tətbiqi sahəsinin genişlənməsi və yad ünsürlərdən qorunması, saflığı istiqamətində onun yürütdüyü siyasəti bu gün İlham Əliyev davam etdirir. 70-80-ci illərin statistik məlumatına görə respublikada 7,1 mln. insan yaşayırdı. Əhalinin 6 milyonunu azəri türkləri, 1,1 milyonunu isə qeyri-azərbaycanlılar (20%-dən çoxu) təşkil edirdi. Təhsil sahəsində oxuyanların 4/3-ü Azərbaycan dilində təhsil alırdı. Respublika ərazisində etnik birləşmələr arasında ünsiyyət vasitəsi rus dili idi. H.Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra Azərbaycan dilinin nəinki gündəlik ünsiyyət vasitəsi kimi, həm də dövlət tədbirlərində istifadəsinə rəvac verdi. Bakı Dövlət Universitetinin 50 illik yubileyi münasibəti ilə keçirilmiş tədbirdə o, öz doğma dilimizdə çıxış etdi. Sonralar o, xatirələrində deyirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevirəm və bu dildə danışmağımla fəxr edirəm". Bu ziyalılar arasında bir ajiotaj yaratdı. H.Əliyevin təşəbbüsü ilə Azərbaycan dilini öyrənmək üçün prioritetlər yarandı. Ana dili hər bir xalqın varlığını təsdiq edən amildir. Dil xalqın milli sərvətidir [6]. Sovet imperiyası "sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, milli kimliyini yox etməyə çalışırdı. Bu siyasət Azərbaycanda da özünü qabarıq şəkildə göstərirdi. Ölkədə rəsmi dil rus dili idi. Dövlət tədbirləri rus dilində aparılırdı. Ulu Öndər hər kəsə örnək oldu, 1978-ci il 2 aprel IX çağırış Azərbaycan SSRİ Ali Sovetinin VII

sessiyasında 1978-ci il Konstitusiyasının 73-cü maddəsində belə bir cümlə yazılmışdı: "Azərbaycan SSR-in rəsmi dövlət dili – Azərbaycan dilidir" [2]. Dövlətimizin qurucusunun göstərişi ilə məktəblərdə Azərbaycan dilinin tədrisi saatları artırıldı, rusdilli məktəblərdə Azərbaycan dili dərsliklərinin daha çox istifadəsinə göstərişlər verilmişdi. "H.Əliyevin dil siyasəti əsl məktəbdir və biz bu təcrübədən istifadə etməliyik" (İ.Əliyev). İctimai elmlərin kökündə sovet ideologiyasının güclü təsiri var idi. Əsasən də bu özünü tarix elminin inkişafında göstərirdi. Ziya Bünyadov, Sara Aşurbəyli, İqrar Əliyev, Tofiq Köçərli, Cəmil Quliyev, Mahmud İsmayılov Azərbaycan tarixinin öyrənilməsinə böyük töhfələr vermiş, illərlə saxtalaşdırılmış tariximizi üzə çıxarmaq üçün var gücləri ilə çalışmışlar. Kommunist Partiyasının ideologiyasının əksinə olaraq, Azərbaycanın tarixi keçmişi öyrənilir, qondarma problemlər üzə çıxırdı. Azərbaycan dilinin qrammatikasının öyrənilməsində dilçi alimlər: Ağamusa Axundov, Əlövsət Abdullayev, Yusif Seyidovun müstəsna xidmətləri nəzərə alınmalıdır. Bu dövrdə Abbas Zamanov, Məmmədhüseyn Təhmasib, Mirzə İbrahimov, Bəkir Nəbiyev, Mir Cəlal Azərbaycan ədəbiyyatına, Firudin Köçərli, Fuad Qasımzadə fəlsəfə, Teymur Vəliyev, Ziyad Səmədzadə iqtisadiyyat sahəsində elmi-tədqiqat işləri aparır, Azərbaycan elminə, mədəniyyətinə böyük töhfələr verirdilər. Görkəmli pedaqoq alim M.Mehdizadənin elmi işləri pedaqogika və xalq maarifinin təşkilində əvəzsiz rol oynadı. Ədəbiyyatımızın zənginləşməsində M.Dilbazi, N.Xəzri, R.Rza, B.Vahabzadə, X.Rzanın əsərləri günümüzün reallıqlarını ortaya qoyur, sovet cəmiyyətinin nöqsanları, bürokratizm, rüşvətxorluq tənqid olunurdu. S.Rəhimov, İ.Əfəndiyev, Ə.Cəfərzadə, İ.Hüseynov Azərbaycan ədəbiyyatı tarixində dərin iz qoymuşlar. Bu dövrdə üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", üçcildlik "Azərbaycan tarixi", "Cənubi Azərbaycanın oçerkləri", "Cənubi Azərbaycan tarixinin məqalələri", dördcildlik "Müasir Azərbaycan dili", "Azərbaycan fəlsəfi fikir tarixinin oçerkləri", "Azərbaycan etnoqrafiyası" əsərləri nəşr olunmuşdur. Ulu öndərin dəstəyi ilə Qobustan qayaüstü təsvirlərinin, Mingəçevir arxeoloji abidələrinin, Azıx mağarasının, orta əsr Şabran abidələrinin öyrənilməsinə vəsait ayrılmış, Azərbaycanda qədimdən ilk insan məskənlərinin olması dünyaya sübut edilmişdir. Kommunist Partiyası kütləvi informasiya vasitələrini, dövri mətbuatı tam nəzarəti altında saxlayırdı, insanların sovet ideologiyasına, mədəni səviyyəsinin yüksəlməsinə xidmət edən mədəni-maarif müəssisələri, qəzetlər, jurnallar əhəmiyyətli rol oynayırdı. 70-80-ci illərdə respublikada 220 min yerlik 1066 klub, 111 kinoteatr istifadəyə verilmişdi. Kitabxanalar çoxalmış, kitab və jurnalların sayı 45,3 mln. nüsxəyə çatdırılmışdı. Ulu Öndər xalqın mənəvi-əxlaqi dəyərlərini qoruyub saxlayır, xalqımızın dəyərli övladları üçün xatirə muzeyləri açdırır, maddi-mənəvi, etnoqrafik ənənələrini dünyaya tanıtmaq

üçün əlindən gələni əsirgəmirdi. 1972-ci ildə Azərbaycan xalçası və tətbiqi sənət muzeyi, S.Yeseninin Mərdəkanda ev muzeyi, 1975-ci ildə Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri açılmış, əyalətlərdə tarix-diyarşünaslıq muzeyləri fəaliyyət göstərmişdi. Gəncədə Nizami təsviri sənət qalereyası, "Nizami dövrü və yaradıcılığı" muzeyi buna misal olur. 1982-ci ildə H.Cavidin cənazəsi İrkutskdan gətirildi. Həmin ildə Şuşada Vaqifin ev muzeyi açıldı. Bu böyüməkdə olan gənc nəslin inkişafında böyük rol oynadı. 70-80-ci illərdə ölkəmizdə 8 dövlət teatrı fəaliyyətə başladı və bununla da onların sayı 20 oldu. KİV-in sayı 256-ya çatmışdı, illik 49 mln. nüsxə tirajla çap olunurdu. 1976-88-ci illərdə oncildlik "Azərbaycan Sovet ensiklopediyası", 20 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası", 50 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 12 cildlik "Molla Nəsrəddin" toplusu, oncildlik Dünya ədəbiyyatı kitabxanası bilavasitə Ulu Öndərin göstərişi ilə nəşr olunmuşdur. Respublikada incəsənət sahəsində sıçrayışlar baş verirdi. Uzaqgörən siyasətçi yetişməkdə olan gənc nəslin milli-mənəvi şüurunun oyanmasında, kökümüzə qayıdış prosesində adət-ənənələrimizin öyrənilməsinə xüsusi diqqət verirdi. Məhz buna görə də o, incəsənətin, musiqimizin, kinomuzun, teatrımızın inkişafına xüsusi diqqət yetirməyi tövsiyə edirdi. R.Behbudov, M.Maqomayev, Z.Xanlarova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, F.Bədəlbəyli, H.Əliyev, H.Bayramov, V.Mustafazadə öz istedadı və zəngin repertuarları ilə seçilirdilər. 70-ci illər Azərbaycan musiqisi böyük inkişaf yolu keçdi. F.Əmirov "1001 gecə", A.Əlizadə "Babək" baletləri, Ş.Axundova "Gəlin qayası" operası, E.Sabitoğlu "Hicran" musiqili komediyasını yazdılar. Bəstəkarlar T.Quliyev, S.Ələsgərov, C.Quliyev, E.Sabitoğlu əsrarəngiz musiqilər bəstələdilər. Azərbaycan kinosunun bu dövrdəki inkişafından danışmamaq mümkün deyil. H.Əliyev kinoşünaslara kino tarixinin araşdırılması ilə məşğul olmağı tapşırmışdı. Azərbaycan kino tarixinin 1916-cı ildən deyil, 1898-ci ildən başladığını sübut etmişlər. H.Əliyev: "Azərbaycan kino tarixi 1898-ci ildən başlayır, bu o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi o, Azərbaycana gəlib". Azərbaycanfilm kinostudiyası "Şərikli çörək", "Yeddi oğul istərəm", "Babək", "Tütək səsi", "Axırıncı aşırım", "İstintaq", "Dədə Qorqud" kimi ölməz əsərləri kinolentə almışlar. H.Əliyev: "Teatr müqəddəs yerdir. İnsanların mənəvi cəhətdən formalaşmasında teatr həmişə çox böyük rol oynamışdır". Bu sözlərlə Ümummilli Liderin teatr sənətinə verdiyi böyük qiyməti görürük [5]. 70-80-ci illər Azərbaycan səhnəsi H.Turabov, H.Qurbanova, F.Poladov, A.Pənahova, S.Aslan, N.Zeynalova, B.Şəkinskaya, A.Gəraybəyli, İ.Osmanlı, M.Şeyxzamanov, M.Dadaşov kimi sənət fədailəri ilə fəxr edirdi. 70-80-ci illərin mədəniyyət tarixinə nəzər salsaq, Bakının, eləcə də Azərbaycanın

digər şəhər və qəsəbələrinin salınmasında Azərbaycan memarlığının tərəqqi etdiyini görərik. Yaşayış binaları, gözəl üslublarda tikilmiş ictimai binalar göz oxşayırdı. Memarlar H.Əsgərov, Ə.Hüseynov, M.Hüseynovun layihələri milli memarlıq elementləri ilə zəngin idi. Bakıda "Bakı" (1970), "Moskva" (1980), "Azərbaycan" (1970), "Qarabağ" (1970), "Abşeron" (1985) mehmanxanaları, "Respublika (ovaxtkı Lenin adına) sarayı" (1972), "Gülüstan sarayı" (1978), Gəncədə "Kəpəz", Şəkidə "Şəki", Şuşada "Şuşa" mehmanxanaları tikilmişdi. H.Əliyev milli memarlıq ənənələrinin inkişafına xüsusi önəm verirdi. Azərbaycan rəssamlıq məktəbi çiçəklənirdi. Düzdür, həmin dövr qeyd etdiyimiz kimi, öz ideyalarını bu sahə vasitəsilə cəmiyyətə aşılasa da, istedadlı fırça ustaları bəşəri ideyaları əks etdirən yüzlərlə tablo yaratmışlar. S.Bəhlulzadə "Qudyalçay vadisi", "Kəpəzin göz yaşları", "Şəlalə", "Xəzər üzərində axşam" mənzərələrini çəkmiş, nəinki sovet məkanında, dünyada tanınmışdır. T.Salahovun "Səhər qatarı", "Q.Qarayevin portreti", "Təmirçilər" əsərləri bədii məzmunu, əlvanlığı, estetikliyi, müasirliyi ilə göz oxşayırdı. M.Abdullayev, V.Səmədova, S.Salamzadə, T.Nərimanbəyov, M.Rəhmanzadə, xalçaçı rəssam Z.Kərimov Azərbaycan incəsənətinə öz töhfələrini vermişlər. Heykəltəraşlar F.Əbdurrəhmanova, C.Qaryağdı, Ö.Eldarov, T.Məmmədov möhtəşəm sənət əsərləri yaratmışlar.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2016, 78 s.
2. Azərbaycanın rəhbəri (1969-1982). Prezident kitabxanası. Bakı, 2015, s.5
3. *Bünyadov Z.M., Yusifov Y.B.* Azərbaycan tarixi. Bakı: Çıraq, 2007, 720 s.
4. *Əliyeva N.* Müstəqilliyin banisi, Bakı, "Azərbaycan" qəz., 2017, 9 may
5. *Əlizadə M.* H.Əliyev və Azərbaycan teatrı, Bakı, "525-ci qəzet", 2003, 9 may s.4
6. *Əliyeva J.* H.Əliyev və ana dilimiz, Bakı, "Xalq" qəz., 2010, 8 may s.7
7. H.Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. 1969-1982; 1993-1996: 3 clilddə, I c., Bakı: Nurlar, 2008, 504 s.
8. *Məmmədova G.* Azərbaycan təhsilinin memarı. Bakı: "Xalq" qəz., 2017, 12 dekabr
9. C.Naxçıvanski və H.Əliyev adına hərbi lisey. Azərbaycan Respublikası Mudafiə Nazirliyinin saytı. 03.11.2022 / https://mod.gov.az/az/pre/26536.html

Redaksiyaya daxil olub 04.08.2023

***УДК 94(479.24)***

***Л.А.Алышанова***
*Институт истории и этнологии имени А.А.Бакиханова НАНА*
*larisa.alishanova@yahoo.com*

# К ВОПРОСУ О РАБОТЕ ЛИКВИДАЦИОННОЙ КОМИССИИ ПО ДЕЛАМ БАКИНСКОГО СОВЕТА НАРОДНОГО ХОЗЯЙСТВА (1918-1919 гг.)

***Ключевые слова:*** *национализация, ликвидация, промышленность, постановления*

Ликвидационная комиссия была создана правительством во главе с Фатали ханом Хойским. Основная работа этой комиссии была связана с экономическими проблемами, возникшими в результате политики национализации, проводимой в области нефтяной промышленности. Ликвидационная комиссия приняла важные экономические решения по восстановлению соответствующих связей между всеми отраслями нефтяной промышленности, включая производство, продажу, банковское дело и т.д.

***L.A.Alışanova***

# BAKI XALQ TƏSƏRRÜFATI ŞURASININ FƏALİYYƏTİ İLƏ BAĞLI LƏĞVETMƏ KOMİSSİYASININ İŞLƏRİNƏ DAİR (1918-1919-CU İLLƏR)

***Açar sözlər:*** *milliləşdirmə, ləğvetmə, sənaye, qərarlar*

Ləğvetmə Komissiyası Fətəli Xan Xoyskinin rəhbərlik etdiyi hökumət tərəfindən yaradılmışdır. Bu Komissiyanın əsas işi neft sənayesi sahəsində aparılmış milliləşdirmə siyasəti nəticəsində ortaya çıxan iqtisadi problemlərlə əlaqədar idi. Neft sənayesinin bütün sahələri, o cümlədən istehsal, satış, bank və s. arasında müvafiq əlaqələrin bərpası üçün Ləğvetmə Komissiyası mühüm iqtisadi qərarlar çıxartmışdır.

***L.A.Alishanova***

# REGARDING THE WORK OF THE LIQUIDATION COMMISSION RELATED TO THE ACTIVITIES OF THE BAKU NATIONAL ECONOMIC COUNCIL (1918-1919 yy.)

***Keywords:*** *nationalization, liquidation, industry, decrees*

The Liquidation Commission was established by the government led by Fatali Khan Khoyski. The Commission was primarily focused on the economic issues that arose as a result of the nationalization policy implemented in the oil industry. The Liquidation Commission made important economic decisions to

restore relevant relations between all sectors of the oil industry, including production, sales, banking, and others.

С освобождением Баку 15 сентября 1918 года от антинациональных сил Диктатуры Центрокаспия закончилось четырёхмесячное двоевластие и была установлена власть законного Азербайджанского правительства во главе с Фатали ханом Хойским. Одним из важных шагов, предпринятых правительством, было "Постановление о денационализации нефтяной промышленности" от 5 октября 1918 года:

"1. Все декреты и распоряжения о национализации нефтяной промышленности и подсобных к ним предприятий, а равно и Торгового флота в пределах Бакинской губернии, а также касательно порядка управления всеми этими предприятиями, изданные бывшим Бакинским Советом Народных Комиссаров, признать отменёнными.

2. Владение всеми промыслами, заводами, судами и всем вообще без исключения имуществом этих предприятий, а также управление и заведование всеми делами предприятий, немедленно, по приведении в известность всего наличного запаса нефти и продуктов её обработки в этих предприятиях, передать их владельцам, или лицам, уполномоченным на то последними.

3.Обязать каждого предпринимателя представить в Министерство Торговли и Промышленности сведения о местонахождении и количестве имеющихся у него запасов нефти и нефтяных продуктов..." [1].

Работа по ликвидации Бакинского Совета Народного Хозяйства была начата Ликвидационной Комиссией 3 декабря 1918 года.

Идея организации Ликвидационной Комиссии из представителей правительства и заинтересованных в ликвидации групп возникла в Президиуме Совета Народного Хозяйства и была принята Министерством Торговли и Промышленности. Комиссия представляла собой совещательный орган из компетентных в различных вопросах людей. Комиссия всегда считала себя совещательным органом [2].

Главной задачей Ликвидационной Комиссии было распутать сложные отношения, созданные осуществлённой большевистским правительством национализацией нефтяной промышленности и предприятий подрядного бурения. С объявлением денационализации восстанавливались начальные отношения, и все произведённые за период национализации операции предстояло трансформировать таким образом, будто они были совершены при существовании частной собственности. Но приступая к выполнению основных задач, Комиссии необходимо было выяснить юридическую природу главного факта, т.е.

национализации нефтяной промышленности, определить, являлось ли большевистское правительство законным правительством, а провозглашённые им декреты и законы актами государственной власти. Были ли утрачены права частной собственности на весь период национализации и возникли ли они вновь в силу декрета о денационализации, или же "de jure" они оставались неизменными за весь этот период и лишь были нарушены "de facto"? Большевистское правительство действовало совершенно открыто на подчинённой ему территории, соблюдая все атрибуты государственной власти обычными для этой власти способами, а поэтому его деятельность можно считать вполне обоснованной. Отсюда следует, что если большевистское правительство было законным, то его декреты и постановления также можно считать законодательными актами. Таким образом, национализация нефтяной промышленности являлась правовым изменением её действительного положения на известный период времени. В период национализации казна была и "de jure" и "de facto" единственным собственником всех нефтяных предприятий и соответствующих им производств. То обстоятельство, что все эти предприятия продолжали существовать под своими прежними названиями и сохранили в большинстве случаев весь контингент своих служащих, ничего не изменяет в юридической природе этого факта и указывает лишь на то, что правительство сочло необходимым для управления этими предприятиями сохранить уже существующий аппарат. Но если казна была действительным собственником предприятий, то администрация каждого из них в отдельности подчинявшаяся в своих действиях распоряжениям Совнархоза, являлась в роли организации государственных служащих, заведовавших отдельными частями государственного хозяйства. Отдельные фирмы, являясь как бы уполномоченными Государственной казны, должны были отчитываться перед своим доверителем, т.е. перед Государственной казной. А так как Государственная казна в период действия Ликвидационной Комиссии представляется Азербайджанским правительством, то фирмы должны, в конечном счёте, рассчитываться именно с Азербайджанским правительством [3].

Но существовала и другая точка зрения, согласно которой национализация не изменила юридической природы тех правовых отношений, которые сложились и существовали на основании действующих законов. За всеми декретами и законами советской власти отрицалось какое бы то ни было юридическое значение, а сама национализация приобретала значение факта, которым причинён имущественный ущерб различным лицам. Этому факту, прервавшему на известный период времени нормальное течение правовой жизни, присваивается

признак неопределённости, а все явление рассматривается как воздействие непреодолимой силы. Не разделяя этой точки зрения, я считаю нужным осветить положение и установить методы расчёта, применимого к ликвидации вытекающих из национализации расчётов в том случае, если бы правительство в основу расчёта положило именно этот принцип. Непреодолимая сила является таким признаком событий, который квалифицирует его как невозможное к предвидению и своевременному устранению.

Здесь мы видим особый вид случая (“casus”). Ответственность за убыток, причинённый случаем по общему принципу, падает на владельца (“casum sentit dominus”), но в том случае, если существует лицо или учреждение, за исключением ответственности за те случаи, которым может быть сообщён признак непреодолимости (“cis major”).

Итак, вторжение большевиков и внесённые ими изменения экономической и правовой жизни, прежде всего, рассматриваются как случай, подпадающий под действие провала: каждый несёт ответственность сам за себя. Есть ли необходимость квалифицировать этот случай как случай непреодолимой силы? Есть, но лишь при том условии, если существует лицо и учреждение, в обязанности которого лежало предотвратить этот случай. На ком же могла лежать такая обязанность?

В самом деле, если данный случай был непредотвратим, то он был таковым лишь для сопротивления в данном масштабе. Специальная организация, весь аппарат сопротивления находился в руках правительства. Правительство со своей полицией, военной силой, находившейся в его распоряжении и содержавшейся на средства граждан, было обязано не допустить нарушения прав граждан. Оно не исполнило этой обязанности, следовательно, оно ответственно перед пострадавшими гражданами за весь причинённый ущерб, который должен быть возмещён из того финансового источника, которым располагает правительство, т.е. из Государственной казны.

Итак, учреждению, ликвидирующему данные национализацией промышленности отношения, предстояло решить следующие задачи:

1. Прежде всего, следовало выяснить отношения национализированных фирм к государственному казначейству, российскому и азербайджанскому, т.е. определить сумму долга казначейству каждой нефтепромышленной и подсобной фирмы.

2. Затем как для расчётов фирм между собою, так и для распределения потерь и убытков, вызванных национализацией, являлось необходимым выяснить товарные счета всех национализированных фирм.

3. На четырёх нефтепроводах общего пользования (Арамазд, Бакинский нефтепровод, Балаханский и Бинагадинский) с объявлением национализации было взято на учёт и объявлено государственной собственностью значительное количество нефти. Часть этой нефти принадлежала нефтепромышленным фирмам и должна была показана в общей сумме остатка на 1 июля нефтепромышленными фирмами. Часть же нефти принадлежала торговцам нефтью и случайным приобретателям и хранилась по документам, имеющим обращение на рынке как товарный документ (ордерная нефть). Документы эти с объявлением нефтяных запасов государственной собственностью были изъяты из рыночного обращения, в большинстве отобраны от владельцев и заменены квитанциями Совета Народного Хозяйства. Так как с владельцами этой нефти также предстояло произвести расчёт, то надлежало выяснить обороты нефтепроводов, которые в период национализации также отпускали нефть на переработку и вывоз по распоряжению Совета Народного Хозяйства. Для этого необходимо было выяснить:

а) каков был остаток нефти на нефтепроводе на 1 июня 1918 года. Иными словами, каковы были обязательства нефтепровода на этот срок;

б) сколько нефти и от кого поступало на нефтепровод с 1 июня по 11 октября 1918 года;

в) сколько нефти отпущено и кому ордерами Совета Народного Хозяйства;

г) сколько нефти отпущено и кому по собственным сделкам;

д) остаток нефти в натуре на нефтепровод на 11 октября 1918 года.

4. Кроме промышленной нефти, в распоряжение Совета Народного Хозяйства поступили все запасы и поступила текущая добыча с предприятий ручной добычи, которые не были национализированы. Нефть эта приобреталась по цене 92-96 коп. за пуд и расчёт за неё производился через частные нефтепроводы. Следовательно, необходимо было выяснить количество этой нефти, сумму денег, отпущенную для расплаты с собственниками с нефтепроводов, и произвести расчёт с теми и другими.

5. Особенное значение для расчётов имело выяснение количества вывоза из Баку морем и судьба вывезенного товара. Поэтому ликвидирующему учреждению предстояло выяснить, какое количество, каким судном и на какой адрес было вывезено нефти и продуктов по распоряжению Совета Народного Хозяйства, и какое по инициативе экспортирующих фирм.

6. Также предстояло выяснить долг Совета Народного Хозяйства нефтепромышленных фирм за отпущенные по ордерам товары, и должников Совета по товарному отпуску [4].

Таковы главные вопросы, которые предстояло выяснить ликвидирующему учреждению для ликвидации отношений, созданных национализацией нефтяной промышленности. Кроме того, по хозяйственной деятельности Совета по реквизициям, производившимся Советом довольно широко и по разного рода претензиям к Совету, предстояло выяснить ряд менее сложных вопросов и определить задолженность Совету ненационализированных предприятий, пользовавшихся ссудами на уплату по табелям рабочим и служащим.

Ликвидационная Комиссия вынуждена была, как в интересах казны, так и нефтепромышленников заняться выяснением всех спорных вопросов по взаимным расчётам, как между казной и промышленниками, так и между промышленниками, чтобы путём выяснения основных принципов расчёта подготовить путь миролюбивого разрешения спорных вопросов и недоразумений.

Для большей ясности и определённости постановлений, Ликвидационной Комиссии необходимо было пересмотреть ранее принятые постановления и представить их в общем своде. Работа эта была проведена, и уже 18 июня 1919 года на заседании Ликвидационной Комиссии по делам Совета Народного Хозяйства под председательством особоуполномоченного Министерства Торговли и Промышленности Эфендиева прошло обсуждение "Свода постановлений Ликвидационной Комиссии по делам Совета Народного Хозяйства".

Следует отметить, что Ликвидационная Комиссия разбивалась на подкомиссии:

1) Финансовая (по выявлению денежных расходов, как падающих на каждое отдельное предприятие, так и общих – на общие нужды нефтепромышленности);

2) Коммерческая – для выяснения принадлежащего непосредственно Совету Народного Хозяйства имущества, товаров и т.д., для выяснения товарооборота и запасов нефтяных продуктов как каждого предприятия отдельно, так и частных лиц – ордеросодержателей.

3) По разбору претензий предприятий к Совету Народного Хозяйства. Необходимо было выяснить, обязаны ли земельные владельцы, имеющие долевое отчисление, как то: казна и частные лица, нести часть расходов, вызванных национализацией нефтепромышленных и подсобных предприятий.

4) Согласно Постановлению Ликвидационной Комиссии, содержание Совета Народного Хозяйства было возложено с согласия пред-

ставителей на нефтепромышленные фирмы. Поэтому ожидать того, что нефтепромышленные фирмы возьмут на себя содержание Ликвидационного Отдела, было бы неверно. Содержание Отдела должно было проходить по смете Министерства Торговли и Промышленности.

Был решён вопрос о задолженности бывших национализированных фирм Казначейству по оплате жалованья служащим и рабочим. Бухгалтерия Совета в этой части велась удовлетворительно и была возможность определить точную сумму задолженности каждой фирмы. Суммы эти были подтверждены отчётами коллегий по управлению национализированными предприятиями и отчётами фирм о полученных суммах. Общая сумма задолженности нефтепромышленных предприятий выражалась в 105.148.331 руб. 01 коп., из коих на долю Российского Казначейства приходилось 85.416.173 руб. 75 коп. и на долю Азербайджана – 19.732.157 руб. 26 коп. (сумма, прошедшая через Совет Народного Хозяйства, т.е. включавшая в себя выдачу только до декабря 1918 г.).

Общая сумма задолженности предприятий подрядного бурения – 7.237.157 руб. 43 коп., из коих на долю Российского Казначейства приходилось 5.960.013 руб. 76 коп. и Азербайджана – на декабрь 1918 г. 1.277.143 руб. 67 коп.

К этим суммам должна быть прибавлена сумма расходов по содержанию Совета Народного Хозяйства, коллегии и Ликвидационной Комиссии, распределившаяся между фирмами пропорционально полученным суммам в размере 921.564 руб. 59 коп., и вычтен долг Совета фирмам за отпущенный по его ордерам за наличный расчёт товар на 3.029.158 руб. 08 коп. В случае одобрения Постановления Ликвидационной Комиссии от 19 февраля 1919 г., со счетов фирм должны быть списаны похищенные из фирменных касс в период национализации деньги всего на сумму 1.962.580 руб. 41 коп.

Иначе обстояло дело с реализацией этих счетов. Долг нефтепромышленных фирм до некоторой степени обеспечивался запасов нефти, которая в размере $^{1}/_{3}$ остатка на 11 октября 1918 года оставалась в распоряжении Казны. Но такой запас имелся не у всех фирм. В числе должников Казны были фирмы, которые ко дню национализации не имели никаких запасов, не вели добычи, а также фирмы, прекратившие свою деятельность.

Что касается предприятий подрядного бурения, то их долг ничем не был обеспечен. Вопрос об обеспечении кредитов и о безнадёжных или сомнительных долгах оставался ранее вне поля зрения, поэтому Ликвидационная Комиссия занялась выяснением этих вопросов.

В 1501 г. в битве в местности Шарур, где кызылбашский шах Исмаил I Сефевид одержал победу над Алвенд Мирзой, прекратилось существование государства Ак-Коюнлу и таким образом, было основано государство Сефевидов, со столицей в Тебризе, где в июле 1501 года Исмаил I провозгласил себя шахом [11, с.253]. Территориальным ядром азербайджанского Сефевидского государства являлось владение одного из суфийско-дервишского ордена «Сефевие» в Ардебиле. В состав государства Сефевидов, кроме Южного Кавказа и Персии, входили также Ирак, часть Афганистана и Средней Азии. Но приход к власти в Иране шаха Исмаила I не означало начало чекана на Тифлисском монетном дворе монет от имени шахов из династии Сефевидов. Согласно сообщению Парсадана Горгиджанидзе, «Шах Тамаз прибыл в Карабах, некоторых властителей сменил, на других наложил повинности и дань. Картлийцев, месхов, кахов и шемахинцев заставил чеканить монету со своим именем» [8, с.28-29]. О приходе в Тбилиси шаха Тахмаспа сообщает также Вахушти Багратиони [1, с.35-36]. В период существования государства Сефевидов в Грузии осуществлялся выпуск иранских монет, чеканившихся от имени Сефевидских шахов. К периоду царствования шаха Тахмаспа Первого на монетном дворе Загеми начался чекан монет от имени шаха Тахмаспа I, наиболее ранней монетой Загема является монета 963 г.х./1555-6 г., согласно данным Т.С.Кутелия [5, с.108], А.М.Раджабли читает монету как Зейям или Зегам [12, с.56], локализуя монетный двор Зейям на территории современного Закатальского района Азербайджанской Республики [14, с.72], хотя Т.С.Кутелия связывает чекан монет от имени Сефевидов с Кахетинским царством [5, с.21], следует отметить, что с момента утверждения власти династии Сефевидов в Грузии, нам не известен чекан национальных грузинских монет, на что указывает также Д.Г.Капанадзе [4, с.118]. На Тифлисском монетном дворе чекан монет от имени Сефевидов начался при шахе Аббасе I. Е.А.Пахомов приводит подробные описания монет шаха Аббаса I и его преемников, где наиболее ранней монетой является фулус, чеканенный в Тифлисе в 1014 г.х. и аббаси 1032 г. [10, с.217]. По мнению Е.А.Пахомова, на монетном дворе Тифлиса чеканились только лишь серебряные и медные монеты, ни одного золотого экземпляра до сих пор не найдено [10, с.217]. Но в примечаниях к монографии Е.А.Пахомова, Д.Г.Капанадзе сообщает о золотом ашрефи тифлисской чеканки, помеченный 1160 г.х./1747 г., сведения о котором приводится в третьем издании Каталога

восточных монет А.К.Маркова [10, с.342-343]. Кутелия Т.С. отмечает, что чекан монет от имени сефевидского шаха означал признание политической зависимости грузинских государств от его верховной власти [5, с.15]. А.К.Марковым приводится описание аббаси, чеканенного от имени шаха Аббаса I в Тифлисе, на котором стерт год [7, с.713], далее 1 1/3 аббаси 1073 г. битого от имени шаха Аббаса II [7, с.714].

Монетная система Сефевидского государства, равно как и системе почти всех предшествующих, а также современных Сефевидам восточных государств, основывалась на серебряном монометаллизме и основной монетной единицей был принят крупный высокопробный номинал, – «шахи», весом в 2 мискаля (9,36 грамма) с номинальной стоимостью 50 медных динаров или 25 двойных динаров [14, с.207].

После денежной реформы Аббаса I в 1595 г. и вплоть до падения государства Сефевидов в XVIII в., денежное обращение государства Сефевидов базировалось на «аббаси», – аббасова монета, весившая 7,8гр. При шахе Аббасе I денежное обращение государства Сефевидов состояла из: аббаси (7,8 г.), мухаммади (3,90 г.), шахи (1,91 г.), бисти (0,78 г.), чеканившие из серебра [13, с. 228].

В девяти выпусках Е.А.Пахомова «Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа» приводятся описание монет, которые чеканились на монетном дворе Тифлиса. К продукции монетного двора Тифлиса относятся махмуди шаха Сулеймана, чекан Тифлиса (№198,[1] 208, 209, 210, 508), пять шахи, шахи, махмуди и аббаси Аббаса II, чеканенные в 1072 и 1106 г., г.х., аббаси шаха Хусейна I, чеканенные в 1107 г., 1110 г., 1114 г., 1115 г., 1118 г., 1119 г., 1128 г., 1130 г., 1131 г., 1132 г., 1133 г., 1134 г., махмуди Тифлиса 1130 г., шахи Тифлиса 1131 г. (№ 196, 203, 206, 208, 217, 219, 222, 234, 238, 518, 521, 522, 527, 893, 894, 895, 896, 898, 900, 901, 1199, 1200, 1206, 1208, 1838, 1840, 2018, 2019, 2022), аббаси шаха Аббаса II, чекан Тифлиса в 1053 г. (№506, 512, 519, 520). М.А.Сейфеддини приводит описание аббаси Тифлиса, чеканенного от имени шаха Хусейна, дата-1118 г.х./ 1706 г., вес - 7,4 гр., который был обнаружен в 1983 г. с. Ахмедлы Лачинского района Азербайджанской Республики [15, с.82].

**Фото** Аббаси шаха Аббаса II, чекан монетного двора Тифлиса в 1064/1064 г.х. [17].

[1] Здесь и далее нумерация по находкам монет из 9-ти выпусков Е.А.Пахомова «Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа», 1926-1966 гг.



В период сефевидо-османских войн Тифлис был захвачен турецкими войсками, о чем свидетельствуют как письменные [8, с.40], так и нумизматические источники. Так, в кладе №208 наряду с монетами Сефевидов чекана Тифлиса были обнаружены также онлыки султана Ахмеда III, изготовленные на монетном дворе Тифлиса. Онлыки, бешлыки и нисфбешлыки Тифлиса 1115 г., чеканенные от имени султана Ахмеда III и султана Махмуда I 1143 г. были обнаружены также в других кладах (№210, 215, 515, 518, 521, 522, 896, 899, 906, 1205, 1206, 1207, 1482, 2019, 2020).

**Фото.** Онлык султана Махмуда I 1143 г.х., чекан монетного двора Тифлиса [18].



Монеты Сефевидов и Османов Тифлисского монетного двора обращались наряду с монетами, чеканившими на других монетных дворах государства Сефевидов, – в Тебризе, Эривани, Гяндже, Шемахе,

Нахичевани, Мешхеде, Реште, Казвине, Мазандеране, Ширазе, Исфахане.

С приходом к власти шаха Надир Афшара, монетный двор Тифлиса после занятия Надиршахом Тифлиса в 1736 г. начал чеканить монеты от имени Афшаридов. Так, в кладах были обнаружены монеты, битые от имени шаха Надира с датами 1134 г., 1148г., 1150 г., 1151 г., 1162 г.х., и Ибрагим-шаха в 1162-1168 гг., в Тифлисе, а также в Тебризе, Герате, Ширазе, Кабуле, от имени Шах-роха в тех же городах, в 1162-1168 гг., аббаси, шахи и шесть шахи Надира, чекан Тифлиса 1149 г., 1150 г., 1151 г. и 1152 г., аббаси Шахруха, чекан Тифлиса, 1163 г., 1164 г. (№ 215, 216, 217, 219, 238, 521, 525, 527, 901, 906, 1206, 1207, 1208, 1857, 2020, 2021).

**Фото.** Шестишахи Надир-шаха Афшара, 1150 г.х., чекан монетного двора Тифлиса [19].



В период правления Керим-хана Зенда в Тифлисском монетном дворе чеканились анонимные полутораабазники 1182 г.х. и 1184 г.х. и абазники 1210 г.х. (№ 1209, 1216, 1217, 1498). Согласно описанию Д.Г.Капанадзе, на этих анонимных серебряных монетах было воззвание на персидском языке «О, Милосердный» и на арабском языке, чеканка этих монет началась в 1166 г.х. (1752/53 г.) и продолжалось до 1213 г.х. (1798-99 г.), Д.Г.Капанадзе именует данные монеты «багратидское» серебро второй половины XVIII в.» [4, с.130]. Е.А.Пахомовым дается описание данных монет с воззваниями «О, Милосердный» и «Слава Богу, владыке обоих миров!», вес данных анонимных серебряных монет составляет 4,50 гр., 3,00 гр., 1,50 гр. [10, с.238-239]. Но, монеты с подобными воззваниями чеканились не только на монетном дворе Тифлиса, но, также на монетных дворах северо-азербайджанских ханств. В период правления Керим хана Зенда на монетных дворах

северо-азербайджанских ханств чеканились анонимные серебряные монеты с воззванием "О, Милосердный", "О, Владыка времени" и др. Обращает на себя внимание начало чекана анонимных серебряных монет, – 1166 г.х. (1752/53 г.), когда в Персии шла борьба за власть, который закончился приходом к власти Керим-хана Зенда в 1758 г. [11, с.326]. Согласно сведениям М.А.Сейфеддини, с 1181 г.х./1767-1768 г. и вплоть до 1187 г.х./1773-1774 г. монетные дворы Гянджи и Шемахи чеканили монеты Керим-хана Зенда. Параллельно с монетами Керим-хана, начиная с 1181 г.х./ 1767 г. и вплоть 1187 г.х./1773 г. на шемахинском монетном дворе выпускались анонимные аббаси с воззванием "О, Повелитель времени". М.А.Сейфеддини приводит описание аббаси, чеканенной в Гяндже в 1181 г.х. с воззванием "О, Милосердный", вес данной монеты составил 3,6 гр. Данная монета была обнаружена в кладе серебряных монет XVIII в. в г. Шемахе [15, с.59]. В приложениях к кандидатской диссертации Е.А.Синициной [16], в Типологической классификации монет азербайджанских ханств второй половины XVIII – первой четверти XIX вв. приводятся описания анонимных серебряных монет с воззваниями "О, Милосердный", "О, Владыка времени" и др. Так, в 1177 г.х./1763 г. на монетном дворе Гянджи была чеканена анонимная серебряная монета с подобным воззванием [16, с.180]. В Шемахе в 1177 г. была чеканена анонимная серебряная монет с аналогичным воззванием [16, с.189]. Весы анонимных серебряных монет Гянджи, согласно каталогу серебряных анонимов азербайджанских ханств, составляли 4,65; 4,54; 4,50; 4,68 гр. [16, с.212], а весы анонимных монет Шемахи составляли 4,45; 4,59; 4,48 гр. [16, с.237]. Таким образом, начало чекана этих анонимных монет относится к периоду прихода к власти Зендов, а прекращение чекана анонимных монет, согласно данным Д.Г.Капанадзе, произошло в 1213 г.х. (1798/99 г.), значить в период правления Зендов и Каджаров на монетном дворе Тифлиса осуществлялся чекан анонимных серебряных монет, что происходило также в северо-азербайджанских ханствах в исследуемый период. Чекан анонимных серебряных монет продолжался также после заключения Георгиевского мирного трактата 1783 г., что свидетельствует о торгово-экономических отношениях между Грузией и Ираном, на что указывают грузинские историки. Т.С.Кутелия указывает на традиционное тяготение грузинского купечества к Ирану и многовековые торгово-экономические связи Грузии с Востоком [5, с.107]. И, хотя монография Т.С.Кутелии посвящена нумизматике Грузии периода царствования династии Сефевидов, тем не менее, нельзя другим объяснить чекан во второй половине 18 в. монет с надписями на персидском и арабском языках на монетном дворе Тиф-

лиса.

Наряду с серебряными монетами монетный двор Тифлиса чеканил также медные монеты. Если первоначально медные монеты были анонимными, то, впоследствии на них указывалось имя представителей царствовавшей в Грузии династии Багратионов. При этом, как указывал Е.А.Пахомов, во всю первую половину XVIII в. на тифлисской медной монете выставлялись имена не грузинских царей, а их заместителей, фактических правителей Тифлиса и Карталинии. Со второй половины XVIII в. носители царского титула лично становятся правителями страны и в силу этого, а не по праву царя, по установившемуся обычаю, помечают тифлисскую медь своими именами [9, с.95]. На медных монетах Тифлиса было указано имя царей Теймураза и Ираклия, 1169 г., с именами Вахтанга, Свимона и Бакара и с изображениями корабля, дракона, павлина и оленя (№558, 1491), но, без упоминания титула царя, по типу персидских монет. Данные медные монеты были обнаружены в кладах наряду с медными монетами Шемахи и Гянджи. Т.С.Кутелия отмечает, что иранскую медную монету чеканили также потомственные владыки государств, находящихся в вассальной зависимости от Ирана, например, цари Картли, официально считавшиеся вали-наместниками шаха [6, с.108]. Исходя из описанных и перечисленных Е.А.Пахомовым медных монет, можно прийти к заключению, что на Тифлисском монетном дворе чеканились монеты следующих номиналов, – полубисти, шаур и бисти [9, с.108]. Помещение имени шаха Ирана на медной монете было редчайшим исключением: Т.С.Кутелия приводит описание полубисти Тбилиси, с изображением льва, за ним восходящее солнце, на которой упомянут шах Сефи [5, с.51]. Система, по которой на тбилисском монетном дворе чеканилась монета в XVII-XVIII вв., пережила Сефевидов, и по той же системе чеканились русско-грузинские монеты в первой трети XIX в. [5, с.49]. Согласно сведениям письменных источников, Тифлисский монетный двор передавался на откуп, что являлось одним из источников обогащения местных правителей [3, с.39].

М.Х.Гейдаров отмечал тенденцию увеличения всех видов торговой пошлины на рубеже XVII-XVIII вв., которое наблюдалось по всем разветвлениям транзитных путей, проходивших через территорию Азербайджана и сопредельных стран [2, с.60]. Это вызывало необходимость в чеканке монет в Тифлисском монетном дворе, как и на монетных дворах других стран, находившихся в зависимом положении от Ирана, в том числе Грузии, которая являлась валийством т.е. наместничеством, в период царствования этих династий.

Что касается организации монетного дела на монетном дворе

Тифлиса, то, как указывает Т.С.Кутелия [5, с.32], в «Тазкират ал-мулук» и «Дастураламали» приводятся сведения об организации монетного дела, что позволяет определить процесс чеканки монет на монетном дворе Тифлиса.

Таким образом, чекан монет с именами шахов из династий Сефевидов, Афшаридов, а также оккупационных монет султанов из династии Османов, затем анонимных серебряных монет в период правления шахов из династий Зендов и Каджаров на Тифлисском монетном дворе, что также наблюдалось на монетных дворах северо-азербайджанских ханств, свидетельствует не только о политических отношениях Грузии с Ираном и Турцией, но, также о торгово-экономических отношениях между этими странами.

## ЛИТЕРАТУРА


1. *Вахушти Б.* История царства Грузинского. Перевод Н.Т.Накашидзе. Тбилиси: Мецниереба, 1976 г., 338 с.
2. *Гейдаров М.Х.* О системе и количестве торгово-пошлинного сбора в Азербайджане XVII в. // Известия Академии Наук Азербайджанской ССР, Серия История, Философия и право, 1968, № 1, с.56-64
3. Дневник Закария Акулисского. Пер. с арм. Ереван: Армянский филиал АН СССР, 1939 г., 159 с.
4. *Капанадзе Д.Г.* Грузинская нумизматика. Москва: АН СССР, 1955 г., 186 с.
5. *Кутелия Т.С.* Грузия и сефевидский Иран (по данным нумизматики). Тбилиси: Мецниереба, 1979 г., 120 с.
6. *Кутелия Т.С.* Каталог иранских медных монет (по фондам Государственного музея Грузии). На грузин., русск. и англ. языках. Тбилиси: Мецниереба, 1990 г., 116 с.
7. *Марков А.К.* Инвентарный каталог мусульманских монет Императорского Эрмитажа. Санкт-Петербург, 1896 г., 872 с.
8. *Парсадан Горгиджанидзе*. История Грузии. Перевод Р.К.Кикнадзе и В.С.Путуридзе. Тбилиси: Мецниереба, 1990 г., 183 с.
9. *Пахомов Е.А.* Вес и достоинство медной монеты Тифлиса XVII-XVIII вв. Баку: Азербайджанский государственный университет, 1928 г., 109 с.
10. *Пахомов Е.А.* Монеты Грузии. Тбилиси: Мецниереба, 1970 г., 352 с.
11. *Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П. и др.* История Ирана с древнейших времен до конца XVIII в. Ленинград: Ленинградский университет, 1958 г., 390 с.
12. *Раджабли А.М.* Из истории монетного дела в Сефевидском государстве / Материалы по истории Азербайджана. Труды Музея истории Азербайджана, Т. IV. Баку: Академия Наук Азербайджанской ССР,

1961 г., с.44-67

13. *Раджабли А.* Монеты Азербайджана. Баку: Халг банк, 2012 г., 358 с.
14. *Раджабли А.* Монетное дело Азербайджанского государства Сефевидов. Баку: Зия, 2014 г., 232 с.
15. *Сейфеддини М.А.* Средневековые монетные клады Азербайджана (1968-1983 гг.). Баку: Элм, 1994 г., 196 с.
16. *Синицина Е.А.* Денежное обращение Азербайджана (Гянджинского, Карабахского, Шемахинского, Шекинского, Бакинского, Дербендского и Кубинского ханств) во второй половине XVIII – первой четверти XIX вв. Дисс. ... канд. истор. наук. Баку, 1992 г., 214 с.
17. https://www.zeno.ru/showphoto.php?photo=319717
18. https://www.zeno.ru/showphoto.php?photo=314213
19. https://www.zeno.ru/showphoto.php?photo=319855

Redaksiyaya daxil olub 24.11.2023

***UOT 94(479.24)***

***Ə.Ş.Nəcəfov, A.T.Kərimli***
*ADPU-nun Ağcabədi filialı*
*elizade.necefov@bk.ru, kerimli_anar@mail.ru*

# TARİXİMİZİN HƏR SƏHİFƏSİ BİZİM ÜÇÜN ƏZİZDİR

***Açar sözlər:*** *Qarabağ Universiteti, tarix, münaqişə, sərəncam, filial*

Məqalədə Xankəndi Pedaqoji Universitetinin yaranma və inkişaf tarixi əks olunmuşdur. Qeyd olunmuşdur ki, bu tədris ocağı ötən illər ərzində çox mürəkkəb və çətin şəraitdə müxtəlif adlarla 1969-1972-ci illərdə APİ-nin filialı, 1973-1989-cu illərdə müstəqil institut, 1989-1991-ci illərdə Gəncə Pedaqoji İnstitutunun tərkibində, 1991-1992-ci illərdə APİ-nin Şuşa fakültəsi, 1992-2000-ci illərdə APİ-nin Şuşa filialı, 2000-2014-cü illərdə AMİ-nin Ağcabədi filialı və nəhayət, 2015-ci ildən indiyə kimi ADPU-nun Ağcabədi filialı kimi uğurla fəaliyyət göstərir.

Müəlliflər Prezidentin sərəncamı ilə yaradılan Xankəndi Dövlət Universitetinin Qarabağın, ümumilikdə Azərbaycanın ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayacağını xüsusi vurğulamışlar.

***А.Ш.Наджафов, А.Т.Каримли***

# НАМ ДОРОГА КАЖДАЯ СТРАНИЦА НАШЕЙ ИСТОРИИ

***Ключевые слова***: *Карабахский университет, история, конфликт, распоряжение, филиал*

В статье отражена история создания и развития Ханкендиского Педагогического Университета. Было отмечено, что этот учебный центр в последние годы находился в очень сложных и трудных условиях, под разными названиями: в 1969-1972 годах - филиал АПИ, в 1973-1989 годах - независимый институт, в 1989-1991 годах - в составе Гянджинского педагогического института. 1991 г. -Успешно работает на Шушинском факультете API в 1992 г., Шушинском филиале АПИ в 1992-2000 гг., Агджабединском филиале АМИ в 2000-2014 гг. и, наконец, Агджабединском филиале АДПУ с 2015 г. по настоящее время.

Авторы особо подчеркнули, что Ханкендиский Государственный Университет, созданный по распоряжению президента, будет играть важную роль в общественно-политической жизни Карабаха и Азербайджана в целом.

***A.Sh.Najafov, A.T.Karimli***

**EVERY PAGE OF OUR HISTORY IS DEAR TO US**

***Keywords:*** *Karabakh University, history, conflict, order, branch*

The history of the establishment and development of Khankendi Pedagogical University is reflected in the article. It was noted that this educational center was in very complex and difficult conditions during the past years, under different names: a branch of API in 1969-1972, an independent institute in 1973-1989, a part of Ganja Pedagogical Institute in 1989-1991, 1991 -Successfully working as the Shusha faculty of API in 1992, Shusha branch of API in 1992-2000, Agjabedi branch of AMI in 2000-2014 and finally Agjabedi branch of ASPU from 2015 to now shows.

The authors specially emphasized that the Khankendi State University, established by the order of the President, will play an important role in the social and political life of Karabakh and Azerbaijan in general.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin keçmiş Xankəndi filialının təşkilindən 55, həmin filialın müstəqil İnstituta çevrilməsindən isə 51 il keçir. Əsas cəhət budur ki, bu tədris ocağı ötən illər ərzində çox mürəkkəb və çətin şəraitdə, müxtəlif adlarla 1969-1972-ci illərdə APİ-nin filialı, 1973-1989-cu illərdə müstəqil institut, 1989-1991-ci illərdə Gəncə Pedaqoji İnstitutunun tərkibində, 1991-1992-ci illərdə APİ-nin Şuşa fakültəsi, 1992-2000-ci illərdə APİ-nin Şuşa filialı, 2000-2014-cü illərdə AMİ-nin Ağcabədi filialı və nəhayət, 2015-ci ildən indiyə kimi ADPU-nun Ağcabədi filialı kimi uğurla fəaliyyət göstərir. Bu tədris ocağının tarixinə qısa ekskursiya etməklə onun maraqlı inkişaf yolu ilə daha ətraflı tanış olmaq mümkündür.

Əvvəla qeyd etməliyik ki, Azərbaycanın ali təhsil müəssisələri içərisində Xankəndi Pedaqoji İnstitutu və onun Azərbaycan şöbəsinin bazası əsasında yaradılmış və müxtəlif adlarla indiyənə kimi fəaliyyət göstərmiş tədris müəssisələri özünəməxsus yer tutur. Bu ali məktəb Qarabağda ərazi cəhətdən ona bitişik və yaxın olan rayonların bölgə gənclərinin ali pedaqoji təhsilə cəlb olunmasında, ali məktəb tariximizdə təhsilimizə şərəfli xidməti və 30 ildən çox köçkünlük həyatı yaşaması ilə fərqlənir.

Keçən əsrin 70-ci illərində Naxçıvan MR-da və keçmiş DQMV-də APİ-nin filiallarının açılması məqsədyönlü bir dövlət tədbiri kimi bu bölgələrdə yerləşən ümumtəhsil məktəblərinin ali pedaqoji təhsilli mütəxəssislərə olan ehtiyacını aradan qaldırmaq üçün həyata keçirilmişdir.

Bu məqsədlə də Azərbaycan KP MK-nın tapşırığı ilə Azərbaycan SSR Nazirlər Soveti 10 aprel 1969-cu il tarixdə (N 143) bu məsələni müzakirə edərək qərara alır:

1. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinə tapşırılsın:

a) 1969-cu il üçün qəbul planı 950 nəfər olmaqla, 1969-1970-ci dərs ilindən Stepanakert (Xankəndi) şəhərində V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filialını təşkil etsin. İnstitutun Dağlıq Qarabağ Muxtar Vilayəti Ümumtəhsil məktəblərinin müəllim kadrlarına tələbatını təyin etmək məqsədi ilə Azərbaycan SSR Nazirlər Soveti qərara alır: Stepanakert (Xankəndi) şəhərində Azərbaycan Pedaqoji İnstitutunun filialı təşkil edilsin.

b) 1969-cu il üçün filiala ixtisaslar üzrə qəbul planını Respublika Dövlət Plan Komitəsi ilə razılaşdırıb təsdiq etsin.

2. Nəzərə alınsın ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin İcraiyyə Komitəsi filialın yerləşməsi üçün ümumi faydalı sahəsi 1976 kv.m olan binalar, şəhərin yataqxanalarında yerlər, dəvət edilmiş müəllimlər üçün lazımi miqdarda mənzil ayırır (1, s.430).

Beləliklə, 1969-1970-ci tədris ilindən APİ-nin Xankəndi filialı fəaliyyətə başlayır. Bir neçə ildən sonra, yəni DQMV-nin təşkilinin 50 illik yubileyi günlərində Xankəndi filialının maddi-texniki bazası əsasında o zaman respublikaya rəhbərlik edən Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə Azərbaycan hökuməti 28 noyabr 1973-cü il tarixli qərarla Xankəndi Pedaqoji İnstitutunu təşkil etdi.

Bu məqsədlə Stepanakert, indiki Xankəndi şəhərində pedaqoji institutun təşkil edilməsi haqqında Azərbaycan SSR Nazirlər Soveti qərara alır:

1. Dağlıq Qarabağ Muxtar Vilayəti və respublikanın ona yaxın olan rayonlarını ixtisaslı müəllim kadrları ilə təmin etmək məqsədilə Azərbaycan SSR Ali və Orta ixtisas Təhsili Nazirliyinə bir vəzifə olaraq tapşırılsın.

a) Azərbaycan Pedaqoji İnstitutunun Stepanakert filialı əsasında Stepanakert Pedaqoji İnstitutu təşkil etsin və burada tələbələrin təlimi rus, Azərbaycan və erməni dillərində aparılsın.

b) Yeni açılan institutda normal təlim prosesinin aparılmasını təmin edən lazımı tədbirlər görsün.

2. DQMV Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin belə bir məlumatı nəzərə alınsın ki, Stepanakert Pedaqoji İnstitutunun fəaliyyətini genişləndirmək üçün lazımi şərait yaradan əlavə sahə ayırmışdır.

3. Azərbaycan SSR Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi ilə birlikdə respublikanın 1974-cü il büdcəsində Stepanakert Pedaqoji İnstitutunun təşkili ilə əlaqədar xərclər smetasını nəzərdən keçirsin və bütün başqa məsələləri həll etsin, institutun inkişafı üçün lazımi vəsait nəzərdə tutsun (2, s.164).

İnstitut təşkil edilərkən burada üç dildə – Azərbaycan, rus və erməni dillərində ali pedaqoji təhsilli kadr hazırlığına başlanılır. Bu tələb də əhalinin milli tərkibi və ərazinin profilindən irəli gəlirdi. Beləliklə, Xankəndi Pedaqoji İnstitutu 20 ilə yaxın bir dövrdə Xankəndində qarşıya qoyulmuş vəzifə-

sini müvəffəqiyyətlə yerinə yetirdi.

Yuxarı Qarabağda 1988-ci ilin fevral ayının 13-də baş verən erməni qiyamına kimi Xankəndi Pedaqoji İnstitutu ölkə üzrə 5 mindən çox ali təhsilli mütəxəssis hazırlamışdır.

Beləliklə, fəaliyyətə başlamasından 20 il keçəndən sonra Xankəndində başlayan milli münaqişə və erməni terrorunun ilk zərbələri Xankəndi Pedaqoji İnstitutunun kollektivindən də yan keçmir. 1988-ci il may ayının 16-da institutun Azərbaycan şöbəsinin müəllim və tələbələri Xankəndi şəhərindən qovulur. Pedaqoji kollektiv Şuşa şəhərində müvəqqəti sığınacaq tapır. İkinci dəfə, yəni 6 iyun 1988-ci il tarixdə Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin kollektivi M.Əzizbəyov adına Şuşa Mədəni-Maarif Texnikumunun tədris və yataqxana binasında yerləşdirilir. Pedaqoji kollektiv dərs ilini çox çətinliklə Şuşada başa vurur. Bu qovulmadan sonra ermənilərə cavab olaraq, Mədəni-Maarif texnikumunun erməni şöbəsinin tələbələri (1984-cu ildən fəaliyyət göstərirdi) və Şuşada yaşayan ermənilər Şuşanın qeyrətli oğul və qızlarının köməkliyi ilə Şuşadan qovuldular. Həmin günlər Yuxarı Qarabağda fəaliyyət göstərən Xüsusi İdarəetmə Komitəsinin (SSR Ali Soveti Rəyasət Heyətini 1989-cu il yanvar ayının 12-də verdiyi fərmanla yaradılmışdır) sədri Arkadi Volski 26 iyun 1988-ci il saat 14:00-da Şuşa Mədəni-Maarif Texnikumunda Şuşa rayon ictimaiyyəti və institutun müəllimləri ilə keçirdiyi görüşdə iştirakçılara yalandan söz verdi ki, Xankəndi Pedaqoji İnstitutunun tələbələri növbəti dərs ilinə Xankəndində, öz tədris binasında başlayacaqlar. Lakin vaxt keçdikcə gündən-günə Qarabağ düyünü getdikcə çətinləşirdi.

Həmin dövrdə Yuxarı Qarabağda azərbaycanlı əhalinin başına gətirilən dəhşətli faciələrin real mənzərəsini bir qədər sonra Ümummilli Lider Heydər Əliyev belə müəyyən edəcəkdi: "Axı necə olur ki, bir tərəfdən deyirlər, DQ problemini sərhədləri dəyişdirməklə həll etmək olmaz. Digər tərəfdən isə Xüsusi İdarəetmə Komitəsi yaradılır. O da DQMV-ni Azərbaycanın tabeçiliyindən çıxarır?" (5, s.13).

Vaxtilə bəziləri üçün acı olan bu sözlər təəssüf ki, həqiqətə çevrildi və tarixi bir kəlam kimi 30 il, Qarabağ azad olunana qədər öz siyasi aktuallığını saxladı.

Vilayət ermənilərinin "Rədd olun gedin", "Türklərə ölüm", "Qarabağ bizimdir" kimi şüarları ilə İnstitutun Xankəndindən qovulmuş Azərbaycan şöbəsinə Şuşada bir müddət həmin institutun prorektoru professor Nəcəf Quliyev rəhbərlik etdikdən sonra şöbə başsız qaldı.

1988-1989-cu dərs ilinin əvvəlində Azərbaycan şöbəsinə müvəqqəti rəhbərlik Təhsil Nazirliyi tərəfindən İnstitutun müəllimi dosent Raqub Kərimova tapşırılır və dərs ilinin əvvəlində tələbələr bir ay müddətində Ağdam rayonunun Quzanlı kəndində pambıq yığımında iştirak edirlər.

Respublikanın və Muxtar Vilayətin ovaxtkı rəhbərliyinin təqdimatlarına əsasən SSRİ Nazirlər Sovetinin sədri N.Rijkov Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi Pedaqoji İnstitutunu müvəqqəti bağlamaq haqqında 14 oktyabr 1988-ci il tarixdə 2 maddədən ibarət 1208 saylı qərar imzaladı və bu işi yerinə yetirmək SSRİ Xalq Təhsili Komitəsinə, Azərbaycan və Ermənistan Nazirlər sovetinə tapşırıldı.

17 oktyabr 1988-ci il tarixdə SSRİ Təhsil Komitəsinin sədr müavini Q.F.Qusev Nazirlər Sovetinin qərarının yerinə yetirilməsi haqqında 6 maddədən ibarət 386 saylı qərar verir. Qərarın ikinci maddəsində Xankəndi Pedaqoji İnstitutunun müvəqqəti (2 il müddətinə) bağlanması ilə əlaqədar olaraq Azərbaycanın təhsil naziri M.R.Məmmədova və Ermənistanın təhsil naziri S.T.Axumyana tapşırılır ki, institutun tələbələri 1988-ci ilin noyabr ayının 1-ə kimi Azərbaycanda Gəncənin, Ermənistanda Yerevanın, Leninakanın və Kirovakanin pedaqoji institutlarına köçürülsünlər (8, s.122).

Qəbul olunmuş bu qərarı erməni şöbəsi "tanımadı" və həmişə olduğu kimi, gündəlik dərslərini Xankəndində institutun öz binasında davam etdirdilər. Azərbaycanın təhsil naziri professor M.R.Məmmədov və onun müavini Y.Kratkov isə Azərbaycan şöbəsi tələbələrinin bir hissəsini Gəncəyə, yəni qərarda göstərilən yerə, digər hissəsini isə Y.Məmmədəliyev adına Naxçıvan Pedaqoji İnstitutuna göndərmək qərarına gəlirlər. Sanki Qarabağ qiyamını elə bu azərbaycanlı tələbələr başlayıbmış, ona görə də onları Xankəndindən, mədəni qaydada Qarabağdan kənarlaşdırmaq əsas məsələyə çevrilir. Bu tələbələri qiyamçı kimi tanıyaraq mövcud hökumət onların Bakıya köçürülməsinə qəti razı olmadı.

Qərəzli qəbul olunmuş bu qərardan hiddətlənən Xankəndi Pedaqoji İnstitutunun pedaqoji kollektivi və kollektivə rəhbərlik edən dosent R.Kərimov bu təyinata əməl etməyərək bir gün sonra mərhum dosent Süleyman Zeynalov və bir neçə müəllim Ağdam rayon partiya komitəsinin keçmiş III katibi Cəmilə Kazımovanın iş otağında Təhsil Naziri M.R.Məmmədovla görüşərək pedaqoji kollektivin iki institut arasında bölünməsinə qəti etirazlarını bildirirlər. Ona məlumat verilir ki, bu fikir professor-müəllim heyətinin qəti qərardır.

Təhsil Naziri M.R.Məmmədovun professor-müəllim heyətinə iki gündən sonra cavabı bu olur ki, nazirlik Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin bütövlükdə Gəncə Dövlət Pedaqoji İnstitutuna köçürülməsinə etiraz etmir. Nəhayət, bu göstəriş Təhsil Nazirliyinin 18 oktyabr 1988-ci ildə verdiyi 121 saylı qərarı isə rəsmiləşir. 14 maddədən ibarət olan bu qərarda Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru K.Q.Qurbanova tapşırılır ki, Xankəndi Pedaqoji İnstitutunun azərbaycanlı tələbələrini qəbul edərək onların tədris prosesinin təşkilinə başlasın. 1988-ci il noyabr ayının 20-də bu qərardan irəli gələn vəzifəni yerinə yetirmək üçün H.Zərdabi adına

Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru və başqa nümayəndələr Ağdam rayonunda Xankəndi Pedaqoji İnstitutunun müəllim və tələbələri ilə görüş keçirdilər. Müşavirədə Gəncədən gələn nümayəndələr tələbələri qəbul etməyə hazır olduqlarını Xankəndi Pedaqoji İnstitutunun nümayəndələrinə bildirərək, onu da qeyd etdilər ki, həm ümumi rəhbər dos. R.Kərimovun, həm də fakültə dekanları dos. M.Alicanovun, dos. M.Vəliyevin, dos. N.Şəfiyevin səlahiyyətləri ləğv edilmişdir (7, s.11)

Beləliklə, 1200 tələbə və 100 nəfərlik professor-müəllim heyəti 22-25 noyabr tarixlərdə dərslərə başlamaq üçün Gəncəyə gəlirlər. Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru K.Qurbanov 22 oktyabr 1998-ci ildə Təhsil Nazirliyinin 18 oktyabr 1988-ci il tarixli qərarını əsas tutaraq Xankəndi Pedaqoji İnstitutunun müvəqqəti bağlanması ilə əlaqədar olaraq bu İnstitutun Azərbaycan şöbəsinin professor-müəllim heyətini 2 il müddətinə müsabiqə elan etmədən müvafiq kafedralarda ixtisaslarına uyğun işlə təmin olunmaları haqqında 1/179 saylı əmr imzalayır (7, s.12).

Faktiki olaraq Xankəndi Pedaqoji İnstitutunun azərbaycanlı tələbələri 25 oktyabr 1988-ci il tarixdə H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda dərslərə başlayırlar.

Bir tədris ili burada təhsil alan tələbələr və Xankəndi Pedaqoji İnstitutunun müəllimlərinə artıq hər şey tam aydın olur. Onlara bu da məlum olur ki, hadisələr belə davam etsə, tezliklə Xankəndinə qayıtmaq boş xülyadır. Ona görə də məsələni həll etmək yenə də pedaqoji kollektivin öz üzərinə düşür, həm professor müəllim heyəti, həm də tələbələr təhsillərini Şuşa şəhərində davam etdirmək arzusunda olduqlarını lazımi təşkilatlara bildirsələr də, bir kömək olmadığına görə açıq mitinq formaları ilə mübarizəyə başlayırlar.

Çox çətinliklə də olsa, 1989-cu ilin oktyabr ayının 25-də pedaqoji kollektiv Şuşa şəhərinə qayıdır və bir gün sonra tələbələr dərslərdə iştirak edirlər. Bəlkə də bu təsvir mənasız görünə bilər. Lakin unutmaq olmaz ki, həmin günlər Şuşada müharibə gedirdi. Bu gün ora gedən tələbə və ya müəllim sabah geri qayıtmaya da bilərdi. Necə də ki oldu; tələbə Elsevərin başını vertolyot apardı, Mürşüd və Sara müəllimə vertolyotda vuruldu, İnqilab müəllim həlak oldu, daha 4 tələbə məzun döyüşlərdə, Vətənin müdafiəsində həlak oldu.

Bu qayıdışın özü də pedaqoji kollektivə baha başa gəlir. Əvvəla, bu qayıdışda 100-ə yaxın tələbə Şuşaya qayıtmır, ikinci, geri qayıtmaq üçün mitinq keçirən tələbə və müəllimlərin ən fəallarını müxtəlif təşkilatlar gözümçıxdıya salır, əsassız olaraq izahatlar tələb edirlər. Lakin bütün bunlara baxmayaraq, dos. Z.Hüseynov, dos. Ə.Əhmədov, dos. Ş.Quliyeva, dos. İ.Quliyev, dos. R.Kərimov, dos. M.Alıcanov, dos. M.Vəliyev və dos. N.Şəfiyev öz tarixi xidmətlərini vətəndaş qeyrətilə yerinə yetirərək Azərbaycan şöbəsini təkrar Şuşaya qaytararaq onun fakültə kimi fəaliyyət göstərmə-

sinə nail olurlar.

Beləliklə, tələbələr Şuşada dərslərə başlayandan 15 gün sonra çarəsiz qalan Respublikanın Təhsil Nazirliyi keçmiş Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin N.Tusi adına ADPU-nun Şuşa fakültəsi kimi fəaliyyət göstərməsinə razılıq verir (7, s.13).

Demokratik qüvvələrin, müəllim və tələbələrin, fakültənin gələcək rəhbərlərinin birgə işlərinin nəticəsi kimi Respublikanın Təhsil Nazirliyi Şuşa şəhərində Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsini təşkil etmək məqsədi ilə müəllim və tələbələrin təşəbbüslərini əsas tutaraq burada N.Tusi adına ADPU-nun Şuşa fakültəsinin açılması haqqında əmr verdi. Təhsil Naziri professor R.B.Feyzullayevin 01 noyabr 1989-cu ildə imzaladığı 1160 a saylı əmrdə yazılırdı: "Keçmiş Sovet Azərbaycanının 60 illiyi adına Xankəndi Pedaqoji İnstitutunun hazırda Gəncə şəhərində təhsil alan tələbələrinin yerləşdirilməsi və təhsilinin təşkil edilməsi məqsədi ilə SSRİ Dövlət Təhsil Komitəsinin "Ali təhsil müəssisələri haqqında" 7 iyul 1989-cu il tarixli 565 saylı əmri ilə təsdiq edilmiş əsasnaməyə istinad edərək keçmiş Şuşa internat məktəbinin maddi-texniki bazasında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Şuşa fakültəsi təşkil edilsin" (7, s.6).

Həmçinin qərarda göstərilirdi ki, fakültədə Riyaziyyat, Azərbaycan dili və ədəbiyyat, Tarix, İbtidai təhsilin pedaqogikası və metodikası ixtisasları üzrə mütəxəssislər hazırlansın. Doqquz bənddən ibarət olan bu əmrin icrasına nəzarət Təhsil Nazirliyinin ali məktəblər idarəsinə və APİ-nin rektoru professor S.R.Aslanova həvalə edilmişdi. İnstitutun rektoru professor S.R.Aslanov bu qərara uyğun olaraq 15 noyabr 1989-cu il tarixdə 3/636 saylı xususi əmr verir.

Dosent M.Alıcanovu fakültəyə dekan təyin edir və Təhsil Nazirinin əmrində göstərilən ixtisaslardan əlavə daha bir ixtisas "Ümumi texniki fənlər və əlavə əmək" ixtisası üzrə də mütəxəssis hazırlığına razılıq verir.

Şuşa fakültəsinin ömrü bir il iki ay olsa da, bu müddətdə fakültə rəhbərliyi göstərilən ixtisaslar və qruplar üzrə tələbə qəbulu planını müvəffəqiyyətlə həyata keçirir. Fakültənin normal fəaliyyət göstərməsi üçün çox işlər görülür; tədris binası tamamilə əsaslı şəkildə təmir edilir, professor-müəllim və tədris köməkçi heyətin tərkibi yeni, gənc mütəxəssislərlə tamamlanır. Qısa vaxt ərzində Şuşa fakültəsində görülən işləri nəzərə alan Şuşa rayon XDS İcraiyyə Komitəsinin və Təhsil Nazirliyinin təkliflərini nəzərə alaraq Şuşa fakültəsinin əsasında APİ-nin Şuşa filialının təşkili haqqında Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri H.Həsənov 23 r saylı sərəncam imzalayır. Qərarda Respublikanın Təhsil Nazirliyinə, Plan komitəsinə, Maliyyə Nazirliyinə tapşırılır ki, Şuşa filialının maliyyələşdirilməsini təmin etsinlər. Azərbaycan SSR Nazirlər Sovetinin bu sərəncamını yerinə yetirmək məqsədi ilə Respublikanın Təhsil Naziri professor, R.Fey-

zullayev ADPU-nun Şuşa fakültəsinin Şuşa filialına çevrilməsi haqqında 22 fevral 1991-ci il tarixdə 116 saylı əmr verdi. Bu əmr 22 maddədən ibarət olub, filialın təşkili və fəaliyyəti üçün demək olar ki, bütün sahələri və tələb olunan hər şeyi kifayət qədər əhatə edirdi. Əmrdə göstərilirdi ki, filialın nümunəvi əsasnaməsi tərtib edilsin, Təhsil Nazirliyinin ayrı-ayrı şöbələrinə, ali məktəblər idarəsinə, plan iqtisad idarəsinə, elmi pedaqoji kadrların hazırlanması idarəsinə, Tədris ədəbiyyatı və nəşriyyatlar idarəsinə, maddi-texniki və sosial inkişaf baş idarəsinə və başqa idarələrə tapşırılırdı ki, Şuşa filialını öz sahələri üzrə təmin etsinlər.

Həmçinin təklif olunurdu ki, institut filialları üçün mövcud olan normativ sənədlər əsasında Şuşa filialının kompüter texnikası, təlimin texniki vasitələri, tədris laboratoriyaları, fənn kabinələri və digər ləvazimatlarla təmin olunması üçün tədbirlər planı hazırlansın və həyata keçirilsin. ADPU-nun rektoru professor S.R.Aslanov da öz növbəsində bu qərarlardan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün 4 maddədən ibarət əmr verir.

Doğrudan da bu məsul şəxslər 2 ay müddətində verilən tapşırıqların öhdəsindən layiqincə gələrək hazırlanmış planı rektorluğa və Təhsil Nazirliyinin müvafiq şöbələrinə təhvil verirlər. Ona görə də institutun rektoru S.R.Aslanov 1991-ci il aprel ayının 1-də Şuşa filialında struktur dəyişikliyinin aparılması və ştat cədvəli əsasında fakültə, kafedra, şöbə və bölmələrin tərkibini müəyyənləşdirmək üçün 1/183 saylı əmr imzalayır. Bu əmrdə dosent Mail Alıcanov direktor, dosent Zəfər Hüseynov tədris və elmi işlər, Səyyar Əliyev isə inzibati-təsərrüfat işləri üzrə direktor müavinləri təyin edilirlər (8, s.242).

Eyni zamanda 3 fakültə təşkil edilir: Fizika-riyaziyyat fakültəsinə fizika-riyaziyyat elmləri namizədi, dos. Nəsib Şəfiyev, Tarix-filologiya fakültəsinə dos. Raqub Kərimov, Pedaqoji fakültəyə isə dos. İslam Həşimov dekan təyin edilirlər. İxtisas fənləri üzrə 9 kafedra təşkil edilir. “Ümumi riyaziyyat” kafedrasına dos. Cəfər Zeynalov, “Fizika və ÜTF” kafedrasına professor Əbülfət Rüstəmov, “Ədəbiyyat və onun tədrisi metodikası” kafedrasına professor Kamil Quliyev, “Dilçilik və onun tədrisi metodikası” kafedrasına dos. İlhami Cəfərsoylu, “SSRİ tarixi” kafedrasına dos. Yusif Fərzəliyev, “Ümumi tarix” kafedrasına dos. Kazım Mirzəyev, “Pedaqogika və psixologiya” kafedrasına dos. Mirələm Vəliyev, “Sosial-siyasi elmlər” kafedrasına dos. Yusif Ağayev, “Bədən tərbiyəsi” kafedrasına isə baş müəllim İsa Qasımov müdir təyin edilirlər. Qeyd etmək lazımdır ki, bu əmrlə müvafiq kafedralarda 30 müəllim, 14 nəfər tədris köməkçi heyət də işə qəbul edilmişdir. Filialın professor-müəllim heyətinin 21 nəfərinin elmi dərəcəsi olmuşdur.

Qarabağda məlum hadisələrin kəskinləşməsi nəticəsində Şuşa şəhəri rus-erməni qoşun birləşmələri tərəfindən mühasirəyə alınandan sonra dərs

keçməyin mümkün olmadığını görən Şuşa filialının rəhbərliyi dərsləri Aran Qarabağda, Ağcabədi rayonunda təşkil edir. Həmin vaxtdan, yəni 1992-ci ildən indiyə kimi – 30 ildən artıq bir dövrdə Şuşa filialı bu rayonda peşə məktəbinin binasında yerləşir və fəaliyyət göstərir. Məlum olduğu kimi, Ümummilli lider Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli 349 saylı "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" imzaladığı Fərmanı ilə Şuşa filialının bazasında Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialı təşkil edildi (6, s.1) Beləliklə, Şuşa filialının bazası əsasında yaranmış yeni filial AMİ-nin Ağcabədi filialı adı ilə 2015-ci ilə kimi öz fəaliyyətini davam etdirdi.

2000-2001-ci tədris ilində AMİ-nin özünə 1000, filiallara isə heç bir fərq qoyulmadan hər birinə iki ixtisas üzrə 100 nəfər tələbə qəbulu planı verildi. Fərmana əsasən həm AMİ-də, həm də onun filiallarında bakalavr üzrə kadr hazırlığı, yalnız əyani şöbədə olmaqla, iki ixtisas üzrə müəyyənləşdirilmişdir: "Məktəbəqədər təhsilin pedaqogika və metodikası", "İbtidai təhsilin pedaqogika və metodikası". Bundan əlavə filiallarda əlavə təhsil üzrə də kadr hazırlığı nəzərdə tutulurdu.

Bu göstəriş Təhsil Nazirliyinin 8 yanvar 2001-ci il tarixli 882/01-11-24 saylı məktubu ilə icra olunmağa başladı. Bu göstərişə əsasən Ağcabədi filialında vəziyyət belə olmuşdur: metodika və məktəbəqədər ixtisasları Ağcabədi filialına verilmiş, Riyaziyyat, Tarix, Ədəbiyyat fakültələrində təhsil alan tələbələr isə ADPU-nun tabeçiliyində müvəqqəti yaradılmış "Ağcabədi tədris məsləhət məntəqəsi"ndə saxlanılmışdı. Filial fəaliyyətə başlayanda onun bir Pedaqoji fakültəsi və "Pedaqogika və psixologiya" kafedrası mövcud idi. Beş il sonra isə "Riyaziyyat və onun tədrisi metodikası", "Ana dili və onun tədrisi metodikası" kafedraları da təşkil olunmuşdur. 2004/2005-ci tədris ilində filialda bir fakültə və 4 kafedra, "Ana dili, ədəbiyyat və onların tədrisi metodikası", "Riyaziyyat, fizika və onların tədrisi metodikası", "Ümumi elmi fənlər" və "Humanitar fənlər" kafedraları fəaliyyət göstərməyə başladı. 2004/2005-ci tədris ilində filiala əyani şöbə üzrə əlavə iki ixtisas – "Tarix", "Riyaziyyat və fizika" ixtisasları üzrə tələbə qəbulu keçirilmişdir.

Filialda 2015-ci ildə 4 kafedra fəaliyyət göstərmişdir. Həmin kafedralar "Xüsusi, ümumelmi fənlər" kafedrası, "Humanitar elmlər" kafedrası, "Azərbaycan dili, ədəbiyyatı və onların tədrisi metodikası" kafedrası və "Riyaziyyat, fizika və onların tədrisi metodikası" kafedrası olmuşdur. 2001-2009-cu ildən təhsilin "Bakalavr" pilləsi ilə yanaşı, filialda İxtisaslaşmış fənn kabinetləri, İxtisasartırma və yenidənhazırlanma fakültəsi də fəaliyyət göstərmişdir. Filialın dislokasiyasına daxil edilmiş, əvvəllər 10, sonralar isə 8 rayonun pedaqoji işçilərinin ixtisasının yenidən artırılması müvəffəqiyyətlə aparılmış, 2009-cu ilə kimi fakültədə 507 nəfər

yenidənhazırlanma, 3440 nəfər isə ixtisasartırma kurslarından keçmişdir.

Beləliklə, 2015-ci ildən yenə də Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşularaq onun Ağcabədi filialı adlanan bu tədris müəssisəsi vərəsəlik baxımından AMİ-nin Ağcabədi filialı adı ilə 15 il fəaliyyət göstərmiş və bu dövr ərzində pedaqoji kollektiv Azərbaycan təhsilinə öz töhfəsini verə bilmişdir.

Məlum olduğu kimi 2015-ci il noyabr ayının 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını təmin etmək, ali təhsil müəssisələrinin sayını optimallaşdırmaq, mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" 1582 saylı sərəncam imzaladı (4, s.1). Sərəncamda qeyd olunurdu ki, Azərbaycan Müəllimlər İnstitutu Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulsun. AMİ-nin Ağcabədi, Cəlilabad, Qazax, Quba, Şamaxı, Şəki və Zaqatala filialları ADPU-nun filialları hesab olunsun. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Təhsil Nazirliyinə, Maliyyə Nazirliyinə, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə tapşırılır ki, Sərəncamın icrası nəticəsində qənaət olunan maliyyə vəsaitlərini ADPU-nun elmi-pedaqoji potensialının gücləndirilməsinə yönəldilməsini təmin etsinlər.

2019-cu ilin sentyabr ayında dos. Mobil Məcidov Ağcabədi filialının direktoru vəzifəsinə təyin edilir. Fəaliyyətə başladığı gündən indiyə kimi filialda tədris prosesinin təlimata uyğun təşkilində və onun maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm işlər görülmüşdür. Belə ki, son 4 ildə filialın kadr potensialı xeyli gücləndirilmiş, ixtisaslı gənc mütəxəssislər filiala cəlb olunmuş, onların ixtisaslara uyğun seçilib yerləşdirilməsi həyata keçirilmiş və tələbə qəbulu planı genişləndirilmişdir. Filialın tədris binası tamamilə əsaslı şəkildə təmir edilmiş, onun dam örtüyü dəyişdirilmiş, yeni tədris otaqları yaradılmış, buraya çoxlu sayda təlim ləvazimatları, bərk və yumşaq inventarlar alınmış, hal-hazırda da həmin proses davam etməkdədir. Ümumiyyətlə, filialın maddi-texniki bazasının möhkəmləndirilməsinə xeyli vəsait xərclənmişdir. 2022/2023-cü tədris ilində bu sahəyə ayrılan vəsait bir neçə dəfə artırılmışdır.

Məlumdur ki, Ağcabədi filialı, yəni keçmiş Xankəndi Pedaqoji İnstitutunun əsasında yaradılmış bu filial haqqında Ümummilli lider Heydər Əliyev iki dəfə – 1973-cü və 2000-ci illərdə müvafiq qərar və sərəncam vermişdir. Belə demək mümkünsə, bu filial Ulu Öndərin mənəvi yadigarlarından biridir. Hazırda filialda Ulu Öndərin adını daşıyan "Heydər Əliyev mərkəzi" fəaliyyət göstərir, "Heydər Əliyev dərsləri" keçirilir.

Filialda işləyən müəllim və tədris köməkçi heyətin böyük əksəriyyəti vaxtilə respublikamızın erməni təcavüzünə məruz qalmış rayonlarının

sakinləridir. Tələbə kontingentinin təxminən yarıdan çoxu qaçqın və məcburi köçkün ailələrindəndir.

Onu da qeyd etmək lazımdır ki, hazırda ADPU-nun Ağcabədi filialında tədris prosesinin təşkili yeni dövrün tələblərinə tamamilə cavab verir. Son illər ərzində təlim-tərbiyə işinin səviyyəsi, təşkili və həyata keçirilməsi prinsipləri, onun kadr təminatı və əldə olunmuş nəticələr təhsilin məzmununun təşkili, təlimin təşkilində dərsə verilən müasir tələblərin icrasında özünü göstərir. Xüsusilə, təhsilin keyfiyyət səviyyəsinin artırılmasında yeni tədris texnologiyalarına daha çox üstünlük verilir.

Ağcabədi filialında tələbə gənclərlə son illər aparılan işlər də təqdirəlayiqdir. Vətənpərvərlik və düşmənə nifrət hissi tərbiyəsi gənclərlə aparılmış bütün işlərin əsas qayəsini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsinin Zəfərlə başa çatması Ağcabədi filialının pedaqoji kollektivinin və tələbə kontingentinin fəaliyyətinə yeni stimul vermişdir. Belə ki, filialın pedaqoji kollektivi müharibə dövründə döyüşən əsgər və zabitlərin qələbəyə ruhlandırılmasında və arxa cəbhədə davamlı maarifçilik fəaliyyəti göstərməklə onlara mənəvi dəstək vermişlər. Onlarla məzun 44 günlük Vətən müharibəsində iştirak etmiş, onlardan 2 nəfər şəhid olmuşdur. Filial rəhbərliyi şəhid məzunların ailələrini müntəzəm olaraq ziyarət edir, şəhid övladlarına qayğı göstərir, onların doğum və anım günlərində xatirə tədbiləri keçirirlər.

Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialında dövlət təhsil standartlarının tələblərinə əsasən bakalavr təhsil pilləsində 11 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir: “İbtidai sinif müəllimliyi”, “Tarix və coğrafiya müəllimliyi”, “Tarix müəllimliyi”, “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Riyaziyyat və informatika müəllimliyi”, “Riyaziyyat”, Sosial iş”, “Fizika müəllimliyi”, “Xarici dil müəllimliyi”, “Məktəbəqədər təhsil” və “Təhsildə sosial-psixoloji xidmət” ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. Əyani təhsil üzrə 44 qrupda təxminən 1000 nəfər tələbə təhsil alır. Onların təlim və tərbiyəsilə 1000-dən çox müəllim və tədris köməkçi heyət məşğul olur.

2022/2023-cü tədris ilində ADPU-nun Ağcabədi filialında 1 fakültə – Pedaqoji fakültə fəaliyyət göstərmişdir. Fakültənin nəzdində 4 kafedra fəaliyyət göstərir: “Riyaziyyat, informatika və onların tədrisi texnologiyası” kafedrası (kafedra müdiri dos. Sahib Zeynalov), “İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrası (kafedra müdiri dos. Baxış Ələsgərov), “Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrası (kafedra müdiri pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim Tahir Kərimli), “Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası” kafedrası (kafedra müdiri dos. Vaqif Allahverdiyev).

Sözügedən tədris ilində filialda 95 nəfər müəllim və tədris-köməkçi heyət çalışmışdır. Onlardan 11 nəfər dosent, 5 nəfər fəlsəfə doktoru, 19 nəfər baş müəllim, 12 nəfər isə müəllimdir. Əməkdaşlardan 4 nəfəri elmlər doktoru, 4 nəfəri isə fəlsəfə doktoru proqramı üzrə üzrə dissertantdırlar. Filialın əməkdaşlarından 4 nəfəri "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı, 1 nəfər "Dövlət Qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub.

Bir məsələni də xüsusi qeyd etməliyik ki, Ağcabədi filialı Ağcabədidə fəaliyyət göstərdiyi illərdə tədris prosesi ilə yanaşı, həm də bölgədə bir ideoloji mərkəzə çevrilmişdir. Pedaqoji kollektiv dövlət siyasətinin əhali arasında təbliği və insanların maarifləndirilməsi, Prezident, Milli Məclis və bələdiyyə seçkilərində daim dövlətçilik mövqeyi nümayiş etdirərək Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasətinə və onun siyasi varisi olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin təbliğ və təşviqinə sədaqət nümayiş etdirmişdir. Şübhə yoxdur ki, Ağcabədi filialının pedaqoji kollektivi 2024-cü ilin fevral ayının 7-də keçirəcək növbədənkənar prezident seçkilərində hamılıqla Ali Baş Komandan, hazırkı Prezidentimiz cənab İlham Əliyevə səs verəcəkdir.

Ağcabədi filialının pedaqoji heyəti, xüsusilə də gənc tədqiqatçıları və tələbələri respublika və beynəlxalq səviyyəli elmi konfranslarda müntəzəm iştirak edirlər. Filialda Elmi Şura, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Həmkarlar Təşkilatı kimi struktur bölmələr fəaliyyət göstərir.

Məlum olduğu kimi, 28 noyabr 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyində Qarabağ Universitetinin" yaradılması barədə Sərəncam imzalamışdır (8, s.1). Fərmandan göründüyü kimi, Qarabağ Universiteti Xankəndi Pedaqoji İnstitutunun ənənələrini davam etdirəcək. Universitetdə ilkin olaraq 24 ixtisas üzrə kadr hazırlığı nəzərdə tutulur. 2023/2024-cü tədris ilində bu tədris ocağına 1000 nəfər tələbə qəbulu planlaşdırılır. Təbii ki, gələcəkdə universitetin tabeliyində kollec və peşə liseyləri də fəaliyyət göstərəcəkdir.

Ümummilli Liderimiz Heydər Əliyev dəfələrlə öz müdrik kəlamlarında qeyd etmişdir ki, tarix heç nəyi silmir, tarix həmişə hər şeyi öz yerinə qoyur, tariximizin hər səhifəsi bizim üçün əzizdir. Zaman Ulu Öndərin uzaqgörənliklə söylədiyi bu fikirlərin doğru olduğunu dəfələrlə təsdiqlədi. İndi Qarabağ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yenidən qurulur, bölgədə genişmiqyaslı abadlıq, quruculuq və bərpa işləri həyata keçirilir.

Beləliklə, ali məktəblərimizin yeni bir üzvü, keçmiş Xankəndi Peda-

qoji İnstitutunun binasında Qarabağ Universiteti 2024-cü ilin sentyabrından fəaliyyətə başlayacaq.

## ƏDƏBİYYAT


1. Azərbaycan SSR Nazirlər Sovetinin 10 aprel 1969-cu il tarixli, 143 saylı qərarı / Azərbaycan Sovet Sosialist Respublikası Hökumətinin qərarlar külliyyatı. B., 1969. №7, maddə 64. s.430
2. Azərbaycan KP. MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 28 noyabr 1973-cü il, 377 saylı qərarı / Azərbaycan Sovet Sosialist Respublikası Hökumətinin qərarlar külliyyatı. B., 1973. № 22, maddə 164. s. 1557.
3. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli (349 saylı) Fərmanı / "Xalq" qəz., Bakı, 2000, 13 iyun. s.1
4. "Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə" Azərbaycan Respublikasının Prezidentinin 26 noyabr 2015-ci il tarixli (1582 saylı) Sərəncamı / "Xalq" qəz., Bakı, 26 noyabr, 2015, s.1
5. *Atakişiyev A*. Bakı Dövlət Universiteti. I hissə. Bakı: BDU, 1991, 524 s.
6. "Qarabağ Universiteti" publik hüquqi şəxsin yaradılması barədə Azərbaycan Respublikası Prezidentinin 28 noyabr 2023-cü il tarixli (4182 saylı) Sərəncamı / "Respublika" qəz., Bakı, 29 noyabr, 2023, s.1
7. *Nəcəfov Ə.* Xankəndi Pedaqoji İnstitutu. Bakı: Səda, 2000, 340 s.
8. *Rüstəmov F.* Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Şuşa filialı (1989-1992-ci illər) // Azərbaycan məktəbi, 2023, № 1, s.119-125


Redaksiyaya daxil olub 05.11.2023

***UOT 32***

***Y.Ə.Rzayeva***
*Heydər Əliyev adına Hərbi İnstitut*
*researcher042@gmail.com*

# İDARƏETMƏNİN VƏ SİYASƏTİN İNSTİTUSİONAL ƏSASLARI

***Açar sözlər:*** *siyasət nəzəriyyəsi, idarəetmə institutları, idarəetmənin əsasları, institusionalizm nəzəriyyəsi*

Məqalədə idarəetmənin və siyasətin institusional əsasları nəzərdən keçirilir və institusionalizmin müxtəlif versiyalarının dövlət siyasəti ilə bağlı əsas nəzəri məsələləri sistemləşdirilir. Müxtəlif mütəfəkkirlərin institusionalizm nəzəriyyələri qeyd edilmiş və onların müqayisələri verilmişdir. Siyasətinin və siyasi-inzibati idarəetmənin öyrənilməsində institusional yanaşmanın imkanları müəyyən edilir. Qoyulan məsələlər tarixilik, sistemli və analitik baxımdan öyrənilmişdir.

***Е.А.Рзаева***

# ИНСТИТУЦИОНАЛЬНЫЕ ОСНОВЫ УПРАВЛЕНИЯ И ПОЛИТИКИ

***Ключевые слова:*** *политическая теория, институты управления, основы управления, теория институционализма*

В статье рассматриваются институциональные основы управления и политики и систематизируются основные теоретические вопросы, связанные с публичной политикой различных вариантов институционализма. Упоминаются теории институционализма различных мыслителей и даются их сравнения. Определены возможности институционального подхода в изучении политики и политико-административного управления. Поднятые вопросы изучены с исторической, систематической и аналитической точек зрения.

***Y.A.Rzayeva***

# INSTITUTIONAL FOUNDATIONS OF GOVERNANCE AND POLITICS

***Keywords:*** *political theory, management institutions, the basics of management, the theory of institutionalism*

The article reviews the institutional foundations of governance and politics and systematizes the main theoretical issues related to public policy of different versions of institutionalism. Institutionalism theories of various thinkers are mentioned and their comparisons are given. The possibilities of the institutional approach in the study of politics and political-administrative management are determined. The issues raised have been studied from a historical, systematic and analytical point of view.

**Giriş**

Sosial nizamın strukturları və ya alətləri kimi institutlar cəmiyyət daxilində fərdlərin hərəkətlərini formalaşdıran sabit və təkrarlanan davranış nümunələridir. Qurumun tərifi həm ictimai təşkilatlar kimi rəsmi təşkilati formaları, həm də ənənə kimi qeyri-rəsmi fərdi davranışları əhatə edəcək qədər geniş ola bilər. Bu səbəbdən də ictimai elmlər üçün institutların əsas tədqiqat mövzularından biri olduğunu söyləmək mümkündür. İnstitut anlayışına verilən bu əhəmiyyət institusionallaşma prosesini təsvir etməyə yönəlmiş müxtəlif yanaşmaların ortaya çıxmasına səbəb olmuşdur. Bu kontekstdə konseptual tarama modelində hazırlanan bu işdə köhnə və yeni institusionalizm yanaşmalarını müzakirə edərək qarşıya idarəetmənin və siyasətin yeni institusional əsaslarını təsvir etmək məqsədi qoyulmuşdur. Bu istiqamətdə köhnə institusionalizm və yeni institusionalizm yanaşmalarının meydana çıxması tarixi ardıcıllıqla verilmişdir. Daha sonra köhnə və yeni institusionalizm arasındakı fərqlər müzakirə edilmiş və institusionalizm yanaşmalarının zamanla gedişatı açıqlanmışdır. Habelə aşağıdakı suallara aydınlıq gətirilməsinə cəhd edilmişdir:

Siyasi institutların məzmunu nədən ibarətdir? Onların təbiəti nədir? İnstitusional dəyişiklik prosesində fərdin yeri nədir? Daimi institusional formalara məhəl qoymamağın və ayrı-ayrı siyasi institutların süni şəkildə deformasiyaya uğramasının siyasi sistemin nəticələri nə ola bilər? Dövlətin və cəmiyyətin tranziti kontekstində bu məsələlər xüsusilə aktualdır.

Başlanğıcda, hazırda siyasət elmində ən çox yayılmış olan institusional paradiqma kontekstində elmi inkişafın əsas bloklarını göstərmək olar:

– nəzəri və metodoloji: institusional yanaşmanın mənşəyi və genezisi, institusional inkişaf və dəyişikliklər, formal və qeyri-rəsmi təcrübələrin təhlili;

– fənlərarası: sosial transformasiya və sosial inteqrasiya proseslərinin, institusional dəyişikliklərin dövlətin funksiyalarına, onun iqtisadi inkişafına təsirinin nəzərdən keçirilməsi;

– sektoral: sosiologiya, politologiya, dövlət idarəçiliyi, iqtisadi nəzəriyyə və s. üzrə institusional yanaşmanın öyrənilməsi;

– terminoloji: institusional yanaşmanın işlədiyi anlayışların məzmununun və sinonimliyinin konkretləşdirilməsi və s.

Ümumilikdə institusional paradiqmanın genezisi çərçivəsində siyasət ilə bağlı institutların əsas nəzəri inkişaflarını sistemləşdirmək tələb olunur ki, bunun yerinə yetirilməsi üçün aşağıdakı vəzifələrin həllinə çalışılmışdır:

– institusional paradiqmanın formalaşması və inkişaf mərhələlərini nəzərdən keçirmək;

– institusional təhlilin aparıcı istiqamətlərini və metodoloji yanaşmalarını müəyyən etmək;

– siyasətin təhlilinə institusional yanaşmanın əsas müddəalarını formalaşdırmaq.

**1. İnstitusionalizmə tarixi baxış.** İnstitusionalizmə yanaşma siyasi reallığın biliyinə müəyyənedici metodoloji yanaşmalardan biridir. Siyasi doktrinaların tarixinin özü də şərti olaraq institusional paradiqmanın genezisinin mərhələləri kimi təyin oluna bilər, çünki istənilən ictimai-siyasi hadisə və ya proses hansısa şəkildə siyasi institutlarla bağlıdır. Siyasi fikrin tanınmış klassikləri siyasətin, hakimiyyətin, dövlətin mahiyyətindən bəhs edərkən əslində siyasi institutların mahiyyəti və fəaliyyət xüsusiyyətləri problemlərinə müraciət etmişlər. Qədim mütəfəkkirlər hansı siyasi institutların ən yaxşı cəmiyyət və dövlət tipinin yaradılmasını təmin etməyə qadir olduğu sualına cavab axtarırdılar. Orta əsrlərdə kilsə institutları ilə dünyəvi hakimiyyət arasında qarşıdurma problemləri üstünlük təşkil edirdi. Siyasi azadlıq və vətəndaş bərabərliyi mövzusu, ədalətli qanunların təmin edilməsi və dövlətçiliyin müvafiq institusional təşkili, köhnəlmiş doqmaların, ənənələrin ümumi tənqidi, hakimiyyət-intibahın, maarifçiliyin əsas ideyaları, köhnə və yeni dünyanın liberallaşdırılması və demokratikləşməsi müasir dövrün ümumi tendensiyasıdır.

Siyasi-hüquqi düşüncədə hər bir tarixi mərhələnin tarixi materialının və proseslərinin dərk edilməsi faktiki formalaşmış və sosial köklü siyasi formalardan irəli gəlirdi. Keçmiş mütəfəkkirlər tərəfindən siyasi institutların təhlili zamanı irəli sürdükləri fikirlərdə ümumbəşəri sosial-mədəni dəyərlərin qavranılması, siyasi, hüquqi və idarəetmə institusionallaşdırılması problemləri ilə bağlı narahatlığı əks olunur.

XIX əsrin sonlarından sosiologiyada, hüquqda, iqtisadi nəzəriyyədə və politologiyada institusionalizmin inkişafı paralel olaraq davam etmişdir. Lakin bu dövrdən başlayaraq dünyada siyasi proseslərin xarakterinin dəyişməsi, yeni dövlətlərin meydana gəlməsi və dövlətlərarası münasibətlərdə yanaşmaların hüquqi müstəvidə həllinə zərurətin yaranması siyasətin daha geniş formada öyrənilməsinə ehtiyacı artırdı. Bu da nəticə etibarilə XIX əsrin II yarısından politologiyanın fəlsəfədən, siyasi iqtisaddan və sosiologiyadan ayrılaraq müstəqil bir elmə – tədris fənninə çevrilməsinə təkan verdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində siyasi elmin inkişafı dövrü siyasi institutların formalaşması və fəaliyyətinin öyrənilməsi ilə xarakterizə olunurdu [2, c.76-97; 11, c.26]. Qeyd edək ki, bu dövrdə müstəqil politoloji tədqiqatlara rəvac verildi və yeni-yeni milli siyasi məktəblərin yaranmasına başlanıldı. XX əsrin ortalarında fərdin əsas siyasi aktor kimi qəbul edildiyi

"davranış inqilabı"nın (bixeviorizm) təsiri altında institusional tədqiqatlarda müəyyən azalma baş verdi. Daha sonra siyasi institutların formalaşmasında yeni intensivlik XX əsrin son rübündə yenidən başladı və bu günə qədər elmi nəzəriyyə və praktikada ən populyar sahələr sırasında qalmaqdadırlar.

Anglo-Amerikan elmində klassik institusionalizm geniş yayılmışdır. Bu baxımdan institusionalizm daha çox "Amerika institusionalizmi" kimi başa düşülür (T.Veblen, U.Mitçel, J.Commons, C.Hertzler, C.Klark, F.Çepiq, L.Ballard, Q.Barns, K.Paunzino və s.).

İdarəetmə sistemi faktiki olaraq formal hüquqi institusional baxımdan dərk edildiyi zaman siyasət dövlət institutlarından törəmələrə çevrilir. Bu dövrün siyasət elminin hələ də *"dövlətşünaslığın davamı, dövlətin, onun funksiyalarını yerinə yetirdiyi orqanların və institutlarının öyrənilməsi kimi"* qəbul edilməsi başa düşülür [8, c.147]. Burdan belə qənaətə gəlmək olur ki, cəmiyyətin siyasi təşkilatı formal hüquqi təşkilatlar və normalar kompleksi, siyasət siyasi institutların fəaliyyəti kimi, siyasi institusionallaşma isə siyasi hadisə və proseslərin normativ-hüquqi dizaynı kimi qəbul edilir.

Klassik institusionalizm nümayəndələri üçün əsas məsələlər siyasi institutların formalaşması və fəaliyyəti, dövlət idarəçiliyinin formal hüquqi aspektlərinin müəyyən edilməsi, "konstitusiya arxitekturasının" təhlili – milli konstitusiyaların və ayrı-ayrı siyasi institutların mənşəyi və fəaliyyəti, habelə siyasi davranışa təsir edən institusional amillərin müəyyən edilməsinə diqqətin yetirilməsidir [5, c.43; 10, c.153]. Qurumların formal, struktur aspektlərinin tədqiqi araşdırmaya təsviri xarakter vermiş və onların əsas istiqamətlərini – tarixi, iqtisadi, sosial-mədəni istiqamətlərini müəyyən etmişdir. Tədqiq olunan hadisələrin təhlilinə ümumi yanaşmalar təsviri-induktiv, formal-hüquqi və tarixi-müqayisəli xarakter almışdır [9, c.18].

Aparılmış təhlillərdən belə anlaşılır ki, institusionalistlər öz əsərlərində insanların fərdi (davranış stereotipləri) və kollektiv (müxtəlif təşkilatlar) fəaliyyətin təşkilati formaları ilə institutları eyniləşdirərək, formal institutların rolunu faktiki olaraq mütləqləşdirmiş və siyasi davranışın qeyri-siyasi determinantlarının əhəmiyyətini bərabərləşdirmişlər.

Görünən odur ki, dövlət idarəetməsində formal təşkilatların rolu institusional idarəetmədə əsas amil kimi çıxış edir ki, o da siyasi hadisə və proseslərin normativ-hüquqi strukturunu təşkil edir. Bunsuz dövlətin mövcudluğunu, onun sabitliyini və dayanıqlığını təmin etmək mümkünsüz görünür. Amma bu zaman siyasi proseslərdə, dövlət idarəetməsində fərdin rolunun nəzərə alınması vacib hesab edilir.

Beləliklə, o nəticəyə gəlirik ki, çərçivə, fərdin daxil olduğu və onun fərdi məqsədlərinə çatmaq üçün xüsusi üsulları müəyyən edən sosial strukturlardır. Adət və ənənələrin təsiri isə formal qanunların təsirindən bəzi

hallarda daha çox əhəmiyyət kəsb edir. Birincisi, fərd faktiki olaraq qərar qəbul etmək və hərəkət etmək azadlığından məhrum olunur, ikincisi, siyasətdə bəzən formal avtoritetlərdən daha nüfuzlu ola bilən qeyri-formal institut və təşkilatların öyrənilməsinə ehtiyac yaranır. Buna görə də siyasi institutların qeyri-rəsmi fəaliyyət aspektlərinin və bu aspektlərin qəbul edilməsində rolunun təsirindən kənarda öyrənilməsinə formal yanaşma XX əsrin birinci yarısının siyasi və hüquqi nəzəriyyəsinə sərt, inzibati xarakter vermişdir.

Misal olaraq göstərə bilərik ki, demokratik, sivil dövlətlərdə dövlət təsisatları ilə bərabər, vətəndaş cəmiyyəti institutlarının rolu kifayət qədər böyük əhəmiyyətə malikdir. Bir çox hallarda onların fəaliyyəti dövlətin struktur institutları ilə müqayisədə daha effektiv təsir bağışlayır.

**2. “Dövlət idarəçiliyi nəzəriyyəsi”nə yanaşma.** Klassik institusionalizmin mühafizəkar tədqiqatları fonunda idarəetmə problemləri aktuallaşır. *“Siyasi elmin dövlət idarəçiliyinin öyrənilməsinə yenidən istiqamətləndirilməsinin zəruriliyi*” gənc amerikalı alim, ABŞ-ın keçmiş prezidenti V.Vilsonun “Dövlət idarəçiliyi elmi” (1886) məqaləsində qeyd edilmişdir [6, c.24]. Elm sahəsi kimi dövlət idarəçiliyinə dair əsas müddəalar və onun məqsədləri barədə L.D.Vayt “Dövlət idarəçiliyi elminə giriş” (1926) kitabında aşağıdakıları bildirmişdir:

– *dövlət idarəçiliyi vahid proses kimi müxtəlif səviyyələrdə (federal, əyalət, yerli) öyrənilə bilər;*

– *dövlət idarəçiliyi qanunvericilik deyil, siyasi idarəetmə sistemidir;*

– *dövlət idarəçiliyi bir sənətdir, lakin o, elmə əsaslanmalıdır;*

– *dövlət idarəçiliyi müasir idarəetmə formalarının əsas problem vəzifəsidir* [6, c.64]. Vaytın bu fikirlərini hazırkı dövr üçün də məqbul hesab etmək olar. Müasir dövrdə də “dövlət idarəçiliyi” yuxarıda qeyd olunan müddəalara uyğun gəlir.

XX əsrin birinci yarısında dövlət idarəçiliyində mərkəzi yerdə elm və peşə fəaliyyəti kimi daxili təşkilatlanma və yenidənqurma, rəsmi və qeyri-rəsmi təşkilatların münasibəti və təşkilati davranış, təşkilati effektivlik və məhsuldarlıq, idarəetmənin prinsip və üsulları, habelə nəzarət məsələləri, hesabatlılıq və məsuliyyət dayanırdı.

İkinci Dünya Müharibəsindən sonra siyasətlə idarəetmə arasındakı fərq özünü büruzə verməyə başladı. Bu prinsipin praktik təcrübədə tətbiqinin qeyri-mümkünlüyü ondan imtina etmək üçün fəal dəstəyə sövq etdi. Qərarların qəbulu və dövlət idarəçiliyinə yeni yanaşma əsasında bu nəzəriyyənin əsasları aydınlaşdı. Q.Simon “İnzibati davranış” (1947) əsərində göstərir ki:

– *idarəetmə hadisələrinin təhlili nəzəriyyənin müstəsna elmi metod və*

*konsepsiyalarından istifadəni nəzərdə tutur;*

*– siyasətin inkişafı məntiqi pozitivizmin perspektivlərinə – empirik sübutlara və idarəedici eksperimentlərə əsaslanmalıdır;*

*– qərarların qəbulu prosesi səmərəlilik və rasionallıq baxımından dövlət idarəçiliyinin mahiyyətini təşkil edir* [6, c.178-183].

R.Dalın fikrincə, dövlət idarəçiliyinin siyasət tərəfindən tanınması dövlət idarəçiliyi haqqında gənc elmdən məqsədlərin dürüst formalaşdırılmasını, həmçinin:

a) insan davranışının mürəkkəbliyinin etirafını;

b) idarəetmə vəziyyətlərində normativ dəyərlərin problemlərinin həllini;

c) dövlət idarəçiliyi ilə onun sosial mühiti arasında əlaqələrin hesablanmasını;

d) müqayisəli təhlilin istifadəsini nəzərdə tutur [1].

1970-ci illərdə dövlət idarəçiliyi tədricən siyasi elm və biznes idarəçiliyindən ayrılaraq müstəqil elm sahəsinə çevrildi.

Beləliklə, yuxarıda qeyd olunan fikirlərdən belə qənaətə gəlirik ki, dövlət idarəçiliyində empirik sübutlara, idarəedici eksperimentlərə əsaslanmadan qərarların qəbulu zamanı səmərəlilik və rasionallığın əldə edilməsi bir qədər imkansız görünür. Başqa sözlə, qərarların qəbulu zamanı cəmiyyətin davranışının və rəyinin öyrənilməsi üçün ictimai müzakirə keçirilir ki, bu da qərarların icra mexanizmi üçün mühüm şərtdir (əksər hallarda parlamentdə qanunların qəbulundan əvvəl həm də sosial dinləmələr həyata keçirilir). Bu vəziyyət idarəetmənin və siyasətin institusional əsaslarının formalaşmasına və bərqərar olmasına öz təsirini göstərir.

**3. Yeni institusional nəzəriyyə.** Neoinstitusionalizm 1980-ci illərin ortalarında qrup nəzəriyyəsinin sosial-siyasi tədqiqatlarında üstünlük təşkil edirdi. Onun qabaqcılları və davamçıları siyasətin hərəkətverici qüvvələrini göstərməyə və onlara izahat verməyə çalışırdılar. “Yeni institusional konsepsiya” termini ilk dəfə O.Vilyamson tərəfindən “Bazarlar və iyerarxiyalar” (1975) əsərində istifadə edilmişdir ki, onun yayılması da J.Març və Y.Olsenin “Yeni institusionalizm: siyasi həyatın təşkilati amilləri” əsəri ilə bağlıdır” (1984) [12]. D.Nortun “İnstitutlar, institusional dəyişikliklər və iqtisadiyyatın fəaliyyəti” (1990) əsəri klassikaya çevrildi [7].

Yeni institusional nəzəriyyənin metodologiyasının formalaşması neoklassik iqtisadiyyatın və ənənəvi institusionalizmin əsas yanaşmalarının sintezi əsasında baş vermişdir. Müxtəlif şərhlər həqiqətən yeni institusional yanaşmanın yaradılması prosesini çətinləşdirmişdir. Ən uğurlu nümunələr arasında müasir neoinstitusionalistləri: P.J.DiMaggio, V.Povell, P.Hall, R.Tayloru qeyd etmək olar.

Neoinstitusionalistlərin baxışları "institut" anlayışının daha geniş şərhi, siyasət və inzibati davranışı müəyyən edən "müstəqil dəyişənlərin" müəyyən edilməsi ilə seçilir. Siyasi institutların qeyri-rəsmi strukturunun, onların fəaliyyətinin nəticələrinin öyrənilməsinə kifayət qədər diqqət yetirilir. Müqayisəli tədqiqatlar nöqteyi-nəzərindən bu cür müxtəlif yanaşmalar institutların dərindən öyrənilməsinə, institusional dinamikanın daha geniş təhlilinə, cəmiyyətin siyasi təşkilatının səmərəliliyinə, dəyərlərinin və problemlərinin öyrənilməsinə kömək edir.

Yeni institusionalizm siyasi proseslərdə siyasi institutların daha müstəqil rolunu vurğulayır və cəlb olunan metodoloji yanaşmaların və nəzəriyyələrin geniş spektri ilə seçilir:

– normativ institusionalizm (J.Març, J.Olsen, J.Ott) siyasi həyatın təşkilati amillərinin təhlilini institutların fəaliyyətinə, qərarlara və təşkilatlarda aktorların davranışına təsir edən norma və dəyərlərin müəyyən edilməsi ilə birləşdirir;

– rasional seçim nəzəriyyəsinə əsaslanan institusional təhlil (D.North, J.Buçanan, J.Commons, K.Şepsl, B.Veynqast, E.Ostrom) iqtisadi təhlilin üsullarının siyasətin öyrənilməsinin tətbiqinə, davranışda və rasional aktorlar tərəfindən qəbul edilən qərarlarda utilitar hesablamanın üstünlük təşkil etməsinə yönəlib. Təhlilin əsas elementi formal və qeyri-formal şəraitə münasibətdə bir sıra ziddiyyətlər yaradır. Qaydalar fərdi davranış imkanlarını məhdudlaşdırır və sabit, nəzərdə tutulmuş qərarların qəbul edilməsinə imkan verir. dövləti təşkilat və institutlar məcmuəsi kimi təmsil edən tarixi institusionalizm nümayəndələri (P.Hall, D.Aşford) gələcək seçimə böyük təsir göstərən institusional seçimin (struktur və normativ) əsas səbəblərini axtarırlar: siyasi kurs, siyasi qərarlar, siyasi proses və ümumilikdə siyasi sistem;

– sosial institusionalizm;

– (F.Şmitter, D.Marş, R.Rods) müasir cəmiyyətlərdə "maraq qrupları"nın davranışını və onların hökumətlə münasibətlərini təsvir edərək dövlət və cəmiyyət, habelə ictimai sektor institutları arasında qarşılıqlı əlaqəni öyrənir;

– struktur institusionalizm (K.Viver, B.Roçman, A.Leyfart) yenilənmiş və təkmilləşdirilmiş elmi metodologiya ilə ənənəvi institusionalizmə yönəlmişdir. Buradakı institutlar qərar qəbul etmə prosesində olan aktorun hərəkətə mane ola biləcəyi bir-biri ilə əlaqəli "yol ayırıcıları" kimi başa düşülür.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək müəyyən nəticəyə gələ bilərik. Belə ki, institusionalistlərin vətəndaşların müxtəlif birliklərinin mahiyyət etibarilə inteqrativ olduğu, buna görə də cəmiyyətin dövlətə birləşməsini təmin etdiyi fərziyyəsinə baxmayaraq, institusionalizm heç vaxt

sərt çərçivəyə malik olmamış və kifayət qədər heterojen bir istiqamət olmuşdur. İnstitusionalistlərin anlayışlarında məzmunun kifayət qədər geniş və qeyri-müəyyən tərifə malik olan "qurum" anlayışının başa düşülməsində də terminoloji qeyri-müəyyənlik mövcuddur. Bu, müəyyən mənada anlayışın etimologiyası ilə bağlıdır.

Formal və qeyri-formal qaydaların, əxlaq normalarının, qanunların, davranış tənzimləyicilərinin, strukturların, prosedurların və mövcud təcrübələrin və s. məcmusu kimi "qurum" anlayışının qeyri-müəyyənliyi onun məzmun müxtəlifliyini əks etdirir. Ən dolğun tərif, fikrimizcə, A.Davidov tərəfindən verilir. O, sosial institutu – *"sosial alqoritmlərin köməyi ilə ümumi ehtiyacı ödəmək üçün insanlar tərəfindən yaradılan iyerarxik, paylayıcı sosial altsistem"* kimi xarakterizə edir [3; 4, c.72-73]. Yəni sosial alqoritmlər nəticə əldə etməyə yönəlmiş göstərişlər məcmusudur. Sosial alqoritmlər müxtəlif qütblərə malik ola bilər. İnstitusional metodologiya institusional, təşkilati və fərdi səviyyələrdə (institusional mühit - institusional struktur - institusional təcrübə) siyasi və sosial institutların formalaşmasının və məzmununun məntiqini açır.

Nəticə etibarilə isə dövlət siyasətinin, siyasi və inzibati idarəetmənin öyrənilməsində institusional yanaşma kompleks şəkildə:

– institusional mühitin mənşəyinin qanunauyğunluqlarını, formal qaydaları və qeyri-formal normaları ümumi qaydaya salan və sosial qarşılıqlı əlaqələri proqnozlaşdırıla bilən açıq və gizli münasibətləri izləyir;

– institusional razılığın əsaslarını, yəni siyasi cəhətdən qurulmuş təşkilati formaların (dövlət, siyasi partiyalar, ictimai birliklər və s.) sosial mühitlə əlaqəsini, habelə əlavə "daxili" məhdudiyyətlərin məcburi məzmusu haqqında müqavilələri müəyyən edir, mövcud "oyun qaydalarını" tamamlayır;

– institusional təcrübələrin xüsusiyyətlərini, yəni müxtəlif təşkilatlar daxilində aktorların davranışı vasitəsilə institusional kompromislərin həyata keçirilməsini nəzərdə tutur.

**Nəticə**

Hüquqi dövlətin və demokratik cəmiyyətin ən mühüm göstəricilərindən biri də dövlət hakimiyyətinin siyasi mexanizmlərinin institusionallaşmasıdır. Buradan bir daha aydın olur ki, instiutsionallaşma parlamentarizm və ya prezident demokratiyası institutlarının bərqərar olması, hakimiyyət bölgüsünün qanunvericiliyini hazırlamaq, hakimiyyətin hər üç qolunun müxtəlif səviyyələrdə uyğun strukturlarını yaratmaqdır. Hakimiyyət sisteminin institusionallaşması legitimliyini təmin edən Konstitusiya ilə möhkəmləndirilir. Demokratik rejimin institusional və konstitusion bərqərar olması dövlət aparatının islah olunmasından ayrılmazdır. Çünki burada hakim

elitanın dəyişilməsi baş verir. Bu prosesin öz qanunauyğunluqları və ziddiyyətləri vardır: onlar keçid dövrünün həyata keçirilməsinin forma və metodlarına mühüm təsir göstərir.

İnstitutlar sosial münasibətlərin nizamlılığını və proqnozlaşdırıla bilməsini təmin edir və eqoist fərdləri mövcud normalar əsasında qərar qəbul etməyə, yəni öz hərəkətlərinin məqsədəuyğunluğunu və onların həyata keçirilməsi üçün mütənasib məsuliyyət ölçüsünü müəyyən etməyə qadir olan şüurlu aktorlara çevirir. İnstitusional metodologiya "institusional mühit → institusional struktur → institusional təcrübə" alqoritmində öz əksini tapmış institusional, təşkilati və fərdi səviyyələrdə siyasi və sosial institutların formalaşması və məzmununu hərtərəfli nəzərdən keçirməyə imkan verir. İnstitusional metodologiya sosial institutların mövcudluğunda unikal və xüsusi olanı üzə çıxarmağa kömək edəcək yanaşma ilə tamamlanmalıdır.

Beləliklə, idarəetmənin və siyasətin institusional əsaslarının analitik təhlili istiqamətində inkişaf edən tədqiqatlar, siyasət sahəsində tədqiqatların hələ dördüncü mərhələyə keçid üçün kifayət qədər yetkinliyə nail olunmadığını iddia etməyə əsas verir. Düzdür, son illərdə analitiklərin sayının və marağının artmasına bu istiqamətdə ölkəmizdə də işlərin güclənməsinə səbəb olacağını deməyə əsas verir. Belə görünür ki, problemin gələcəkdə də daha geniş formada və dolğun araşdırılması tədqiqatçılar üçün aktual olaraq qalacaq.

## ƏDƏBİYYAT

1. *Dahl R.* Demokratiya haqqında. Bakı: İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi (FAR CENTRE), 2004, 248 s.
2. *Алексеева Т.А.* Современные политические теории: курс лекций. Москва: Московский государственный институт международных отношений, РОССП ЭН, 2007, 464 с.
3. *Давыдов А.* Системный подход в социологии: новые направления, теории и методы анализа социальных систем. Москва: КомКнига, 2005, 328 с.
4. *Давыдов А.* Системная социология. Москва: Издательство ЛКИ, 2008, 192 с.
5. *Иншаков О.В.* Экономические институты и институции: к вопросу о типологии и классификации // Социс, 2003, № 9, с.42-51
6. Классики государственного управления: американская школа / под ред. Дж. Шафритца, А. Хайда. Москва: Изд-во МГУ, 2003, 800 с.
7. *Норт Д.* Институты, институциональные изменения и функционирование экономики. Москва: Фонд экономической книги «Начала», 1997, 180 с.
8. *Патрушев С.В.* Институционализм в политической науке: этапы, течения, идеи, проблемы // Политическая наука, 2001, № 2, с.146-186

9. *Пономарёва Е.Г.* Политические институты и отношения в современной России: Учебник для вузов. Москва: Московский государственный институт международных отношений - РОССПЭН, 2007, 264 с.
10. *Ротстайн Б.* Политические институты: общие проблемы. Политическая наука: новые направления / под ред. Р.Гудина, Х.-Д.Клингеманна. Москва: Вече, 1999, с.149-180
11. *Серл Дж.* Что такое институты? // Вопросы экономики, 2007, №8, с.5-27
12. *March J.G., Olsen J.P.* The new institutionalism: organisational factors in political life // American Political Science Review, 1984, vol. 78, №3, c.734-749

Redaksiyaya daxil olub 13.07.2023

# Pedaqoji-psixoloji elmlər

*UOT 37*

***E.A.Ağayeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*aagayevaesmira@gmail.com*

## İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ BƏDİİ ƏSƏRLƏRƏ MARAQ OYADILMASI VƏ MÜTALİƏ MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASI

***Açar sözlər:*** *ədəbi-bədii kompozisiyalar, uşaq psixologiyası, psixoloji və pedaqoji vəziyyət*

Müasir dövrdə informasiya əsrində keyfiyyətli cəmiyyət qurmaq və bu cəmiyyətin mədəni-intellektual keyfiyyətlərini inkişaf etdirmək aktual məsələlərdən biridir. İnformasiya əsrində insanların texnologiyalara yiyələndiyi bir dövrdə savadın, biliyin olması vacib şərtdir. Bir cəmiyyətdə nə qədər çox insan mütaliə ilə məşğul olarsa, o cəmiyyət bir o qədər yüksək intellektual səviyyəyə malik olur. İnsan üçün kitab həmişə əxlaqi, estetik və mənəvi dəyərlərin dərk edildiyi dünyaya açılan pəncərə olub. Ədəbi əsərin qavranılması prosesi fəal yaradıcılıq fəaliyyətini əhatə edir, bu zaman oxucu müəllifin mətni əsasında onun fərdi baxışını əks etdirən ikinci dərəcəli obrazlar yaradır. İkinci dərəcəli obrazların müxtəlifliyi (yazılı, musiqili, vizual, teatral) bədii aləmi müxtəlif rakurslardan dərk etməyə imkan verir, nəticədə dolğun, çoxşaxəli, sintezləşdirilmiş obraz yaradır. Tədqiqatın əsas məqsədi ibtidai sinif şagirdlərinin bədii ədəbiyyatı oxuyarkən qavrayış səviyyəsini yüksəldəcək bədii mətnlərin oxunması və təhlili xüsusiyyətlərini müəyyən etmək, təhsilverənlərin müasir tələblərə cavab verən standartlarla bu prosesi sürətləndirməsindən ibarətdir.

***Э.А.Агаева***

## ПРОБУЖДЕНИЕ ИНТЕРЕСА К ХУДОЖЕСТВЕННЫМ ПРОИЗВЕДЕНИЯМ И ФОРМИРОВАНИЕ КУЛЬТУРЫ ЧТЕНИЯ У УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Ключевые слова:*** *литературно-художественные произведения, детская психология, психолого-педагогическая ситуация*

Построение качественного общества в информационную эпоху и развитие культурно-интеллектуальных качеств этого общества является одной из актуальных задач современности. В век информации, когда люди осваивают технологии, важно обладать грамотностью и знаниями. Чем больше людей в обществе занимаются чтением, тем выше интеллектуальный

уровень этого общества. Для человека книга всегда была окном в мир, где осознаются нравственные, эстетические и духовные ценности. Процесс восприятия литературного произведения предполагает активную творческую деятельность, в ходе которой читатель на основе авторского текста создает вторичные образы, отражающие его личную точку зрения. Разнообразие вторичных образов (письменных, музыкальных, визуальных, театральных) позволяет понять художественный мир с разных сторон, в результате создается целостный, многогранный, синтезированный образ. Основная цель исследования – определить особенности чтения и анализа художественных текстов, которые позволят повысить уровень понимания учащихся младших классов при чтении художественной литературы, а педагогам – ускорить этот процесс с помощью стандартов, отвечающих современным требованиям.

***E.A.Aghayeva***

## CULTIVATING INTEREST IN LITERARY WORKS AND FORMING A READING CULTURE AMONG PRIMARY SCHOOL STUDENTS

***Keywords:*** *literary and artistic works, children's psychology, psychological and pedagogical situation*

Building a quality society in the information age and developing the cultural-intellectual qualities of this society is one of the urgent issues in modern times. In the age of information, when people master technologies, it is important to have literacy and knowledge. The more people in a society engage in reading, the higher the intellectual level of that society. For man, the book has always been a window to the world where moral, aesthetic and spiritual values are understood. The process of perceiving a literary work involves active creative activity, during which the reader creates secondary images based on the author's text that reflect his personal point of view. The variety of secondary images (written, musical, visual, theatrical) allows to understand the artistic world from different perspectives, as a result, it creates a complete, multifaceted, synthesized image. The main purpose of the research is to determine the features of reading and analysis of literary texts that will increase the level of comprehension of elementary school students while reading fiction, and for educators to accelerate this process with standards that meet modern requirements.

Ədəbi əsərin öyrənilməsində musiqili, vizual və teatral ikinci dərəcəli obrazların yaradılması bədii qavrayışın inkişafına kömək edir, kiçik yaşlı şagirdlərin yaradıcılıq fəaliyyətinin palitrasını genişləndirir. Ədəbi əsərin dərk edilməsi prosesində fəal yaradıcı fəaliyyəti xarakterizə edən şagirdin ədəbi-bədii inkişaf dinamikasının meyarları qavrayışın emosionallığı, ikinci dərəcəli obrazların yaradılmasında fəallıq, bədii obrazı çevirmək bacarığı, qavrayışın tamlığı, qavrayışın adekvatlığı, mühüm rol oynayır. Statistikaya görə günümüzdə oxuculuq sayına görə dünya siyahısında aşağı yerləri

tutduğumuz bu gün bu problemin nə qədər ciddi olduğunu ortaya qoyur. Ədəbi əsərlərin günümüzdə oxunmamasının və ya az oxunmasının gələcəkdə bir çox problemlərə yol açacağı faktı qaçılmazdır. Bu gün günümüzdə bədii ədəbiyyatın az oxunması, bir çox problemlərin əsasını təşkil edir. Xüsusilə ibtidai sinif şagirdlərinin bədii ədəbiyyata marağının az olması, 5-9-cu sinif şagirdlərinin tədris olunan əsərləri yalnız dərslikdə verilən hissəni öyrənməklə kifayətlənməsi, bir çox ədiblərin əsərlərindən məlumatsız olması problemin nə qədər ciddi olması məsələsini ortaya qoyur. Bununla yanaşı, ibtidai məktəb yaşlı uşaqlar arasında mütaliəyə maraq da hələ də kifayət qədər yüksək deyil [1, s.132-135]. Günümüzdə orta məktəb şagirdləri arasında oxumağa, mütaliəyə marağın az olması tendensiyası müşahidə olunur. Bu marağın itməsinin səbəbləri müxtəlifdir. Burada müəllimin əsəri və müəllifi düzgün təqdim etməməsi, mütaliə vərdişlərinin aşılanmaması, ədəbi-mühitin düzgün qurulmaması və s. kimi əsaslı səbəblər meydana çıxır. Çünki hər bir şagird ilk növbədə öz müəlliminin əsəridir. Müəllimin, xüsusilə Azərbaycan dili, ədəbiyyat müəllimlərinin şagirdlərin ədəbi-bədii kompozisiyalar vasitəsilə inkişafını həyata keçirmək kimi vəzifəsi gələcəkdə şagirdin bir fərd, bir şəxsiyyət kimi inkişafının əsas göstəricisidir. Həmçinin bütün bunlar uşaqların yaradıcılıq potensialının zəifləməsi, yaradıcı hərəkətlər dairəsinin yoxsullaşması, hiss təəssüratlarının və sensor-harmonik fəaliyyətin kəskin daralması ilə əlaqələndirilir. Şagird nə qədər çox mütaliə edirsə, onun söz bazası, fikri tam şəkildə ifadə etmək qabiliyyəti daha da inkişaf edir. Özünü ifadə etmə bacarığı formalaşır. Ona görə bu prizmadan yanaşdıqda, müəllimin üzərinə böyük məsuliyyət düşür.

Son onillikdə kiçik yaşlı məktəblilərin ədəbi təhsilinə maraq yaratmaq üçün bir sıra addımlar atılmışdır [6, s.157-158]. Lakin hələ də nəticə ürəkaçan deyil. Düşünürük ki, şagirdlərdə mütaliə mədəniyyətinin və vərdişlərinin formalaşması məktəb, müəllim və valideyn tandeminin sıx əlaqəsi ilə inkişaf edə bilər. Bu həm də öz növbəsində təhsilə yeni baxış aspektindən bir yanaşma metodu kimi çıxış edə bilər. Təhsilalanların və təhsilverənlərin bu istiqamətdə apardıqları hər bir yenilik, informasiya əsrində oxumaq maraqlarının və vərdişlərinin azalma tendensiyası müşahidə olunduğu bir cəmiyyətdə öz müsbət təsirini göstərəcəkdir. Mütaliənin bir proses kimi vəzifələri müəyyən edilərkən hazırda onun nəinki tətbiqi əhəmiyyəti (müxtəlif elmi sahələrdə bilik əldə etmək üçün) vurğulanır, həm də bədii ədəbiyyatın mütaliəsinin estetik inkişafı üçün imkanları göstərilir. Mütaliə bu gün də kifayət qədər aktuallığını saxlayaraq, şagird və müəllim üçün əsaslı mənbə, bilik rolunu oynayır. Tədricən şagird üçün nəzərdə tutulmuş və icazə verilən çərçivədə düşünməyə, yaratmağa imkan verən baxışlar və onların tətbiqi pedaqogikası tədris praktikasını tərk edir. Təbii ki, bu müsbət bir tendensiyadır və bu gün şagirdin sərbəst şəkildə özü qərar

verməsi demokratik cəmiyyətin inkişaf prinsiplərinə əsaslanır. Şagird sərbəst şəkildə istədiyi bədii ədəbiyyatı mütaliə edə bilər. Alimlər Z.N.Novlyanskaya, T.G.Romzaeva, X.İ.Temirov vurğulayır ki, bugünkü cəmiyyətin tələbi hələ kifayət qədər öyrənilməmişdir. Şagirdin bədii əsəri tam qavraması, qavrayış səviyyələrinin vahid təsnifatına uyğun olaraq qiymətləndirilməsi və işin təhlili prosesində adekvat qavrayış formalaşması birgə (müəllimlər və şagirdlər) düşünülməli və təhlil olunmalıdır. Bu da zaman keçdikcə şagirdin mənəvi dünyasının inkişaf etməyinə imkan verəcəkdir [2, s.70-72]. Eyni zamanda, ibtidai siniflərdə sinifdə və sinifdənkənar oxunun müasir metod və texnologiyalardan istifadə edərək müəllimlər tərəfindən səmərəli istifadə olunması prioritet istiqamətlərdəndir. Şagird asanlıqla istədiyi kitabı istifadə etdiyi elektron daşıyıcıya yükləyir və oxuyur. Bu da öz növbəsində həm vaxt itkisini azaldır, həm də rahat şəkildə bütün kitabı kiçik bir daşıyıcıda birləşdirir. Problem yalnız yuxarı sinif şagirdləri üçün deyil, ibtidai sinif şagirdləri üçün də həll olunmalıdır. İbtidai sinifdə şagirdlərin fənlərin öyrənilməsinə, xüsusilə də kiçik yaşından mütaliəyə marağı çox vacibdir. Bu, ilk növbədə gələcəkdə şagirdin bir şəxsiyyət kimi formalaşmasında əsas amillərdən biridir. Bildiyimiz kimi, mütaliə özünüifadənin, nitqin əlifbasıdır. Şagirdin gələcəkdə öz fikrini aydın ifadə etməsinə gedən yol mütaliədən, söz ehtiyatının zəngin olmasından başlayır. Bu aspektdə müəllimin düzgün istiqamətləndirməsi, düzgün yol göstərməsi çox vacibdir [5, s.350-352]. Müəllim monitorinq apararaq uşaqların mütaliəyə marağının niyə az olmasını araşdırmalıdır. Xüsusilə ibtidai sinifdə aparılan monitorinqin nəticələrinə əsasən ibtidai sinifdə oxumağı öyrətməyin müasir formaları müəyyən olunmalıdır. Lazım gələrsə, seçmə üsulu ilə müxtəlif yollarla, şagirdin kitaba maraq oyanmasına şərait yaradılmalıdır. Bütün mənfi halların aradan qaldırılması üçün nə etməliyəm sualını hər müəllim ilk növbədə özünə verməlidir.

Rus pedaqogikasının baniləri K.D.Uşinski və L.N.Tolstoy bədii mətnlərlə işləməyin əsaslarının şagirdin inkişafına böyük töhfələr verdiyini öz əsərlərində qeyd etmişdilər. Bundan başqa L.N.Tolstoyun uşaq ədəbiyyatına verdiyi töhfələr, uşaq mütaliəsi prosesinin bir sıra müasir mütərəqqi oxu üsullarında əsas olan təlimatları tərtib etməyə imkan verdi. Zamanında L.N.Tolstoy uşaq yaradıcılığına diqqət yetirən və uşağın ona xas olan hər şeyi təzahür etdirməsi üçün "şərait yaratmaq" zərurəti haqqında danışanlardan biri olmuşdur. Həmçinin o, öz növbəsində əsərin məzmununun mənimsənilməsi ilə estetik qavrayış arasındakı ziddiyyətin metodoloji problemini ilk müəyyən edənlərdən biri hesab olunur. Bədii ədəbiyyat oxumağın bu iki komponentinin üstünlüyü ilə bağlı müzakirələr hələ də davam edir. K.D.Uşinski məktəbin ən mühüm vəzifələrindən birini "uşağı kitabla ağlabatan söhbətə öyrətməkdə" görürdü [9, s.265-266]. Bu

problemi həll etmək üçün müəllim müxtəlif iş növləri əsasında oxuduqlarının məzmunu, təhlili və mənimsənilməsi üzərində işləmək üçün əlverişli şərait yaratmalıdır [3, s.95-96]. Respublikada inkişafın keçid mərhələsi şəraitində tərbiyə və təhsilin müasir tələbləri nəzərə alınmaqla müasir fərdi və ictimai şüur formalaşır, şüur formalaşdıran dərsliklərin keyfiyyəti daim yüksəlir. Akademik M.Lütfulloyevin fikrincə, ibtidai siniflərdə oxu dərsləri didaktik və tədris planlarının utilitar məqsədlərindən əlavə, bədii əsərlərin uşaqlar tərəfindən adekvat qavranılması ilə bağlı problemin həllinə hesablanmalıdır. Çox vaxt bədii əsəri oxuyarkən uşaqlar təsvir olunanları qeyri-dəqiq və hətta səhv qəbul edirlər, çünki oxu dərslərində müəllim bədii ədəbiyyatla bağlı qabiliyyətləri məqsədyönlü şəkildə inkişaf etdirmir. Akademik F.Şərifzadə iddia edir ki, bədii əsəri obrazlı təhlil etmək bacarığı öz-özünə formalaşmır. Əgər bu yoxdursa, o zaman oxucu yalnız personajların əsas hərəkətlərini qavrayır, süjetin gedişatını izləyir və əsərdə onu çətinləşdirən hər şeyi qaçırır. Bu oxu tərzi uşaqlarda sabitləşir və hətta yetkinlik yaşına qədər də davam edir. F.Şərifzadənin fikrini davam etdirən professor R.K.Qurbanov yazır ki, şagirdin qüsurlu qavrayış mexanizmi və həqiqi bədii əsərdən uzaqlaşması əsərin süjet xətti və obrazları haqqında mücərrəd fikir formalaşdırır. Şagird sxematik fikirləri mənimsəyir, bəzən əzbərləyir, lakin mahiyyətini dərk etmir, əsəri aça bilmir [4, s.40-42]. Bu isə sonradan şagirdin təxəyyülündə bir sıra problemlərin meydana gəlməsinə yol açır. Bundan çıxış yolu əsərin və obrazların geniş təhlil olunması, əsas məğzin, ideyanın orta qoyulmasında şagirdə dəstək olan müəllimin ona yaradıcı yanaşmasıdır. Beləliklə, tədqiqatın göstərdiyi kimi, bədii ədəbiyyat təkcə təhsil deyil, həm də şagirdlərin şəxsiyyətinin inkişafının tərbiyəvi vəzifələrini həll edir. Bədii əsərlərin oxunması ibtidai sinif şagirdlərində əxlaqi fikirlərin formalaşmasına, hiss və emosiyaların inkişafına kömək edir [7, s.199-200]. Uşaqlar dostlara, sinif yoldaşlarına, qohumlara münasibət haqqında konkret fikirləri genişləndirirlər. Uşaq artıq məktəb yaşlarından özündə ədəbiyyat bazası formalaşdırmağa başlayır. Bu baza ona gələcəkdə özünü düzgün və dolğun şəkildə ifadə etməyə zəmin yaradır. Ədəbiyyat baqajının zəngin olması, dünya ədəbiyyatı nümunələri ilə yaxından tanışlıq, bədii əsərlərin analizi, onların psixoloji və fəlsəfi aspektdən təhlili şagirdin bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır. Bütün bu sadaladıqlarımızı nəzərə alaraq, belə bir nəticəyə gələ bilərik ki, şagirdlərin ədəbi-bədii kompozisiyalar vasitəsilə inkişafının həyata keçirilməsi şagirdin gələcək inkişafı, özünüdərk etməsi üçün vacib amildir. Xüsusilə bu anlamda psixoloji və pedaqoji şəraitin nəzərə alınması həm məktəbin, həm valideynin üzərinə düşən məsuliyyətdir. Sağlam şagird, sağlam cəmiyyət deməkdir. Bu yaxınlaşmada oxumağa maraq, mütaliə vərdişlərinin aşılanması vacib faktor

kimi çıxış edir. Məhz buna görə onlarda oxumağa, mütaliəyə meyil fəal inkişaf edərsə, onda şagirdin təfəkküründə təkcə hərflərin formalaşması prosesləri baş verməyəcək, həm də oxuduqları təəssüratların xarici ifadə anı olacaq, ki, bu bizim tədqiqatın aktuallığını ifadə edir [8, s.64-65].

Düşünürük ki, tədqiqatın mövzusu ibtidai sinif şagirdlərinə düzgün ədəbi nitqin formalaşmasına töhfə verən bədii əsərləri oxumaq və təhlil etməklə yanaşı, şagirdlərin yaradıcı istiqamətdə öz potensiallarını göstərmək imkanını da ortaya qoyacaq.

## ƏDƏBİYYAT


1. *Аткинсон Р.* Человеческая память и процесс обучения. М.: Прогресс. 1980, 84 с.
2. *Бабанский Ю.К.* Оптимизация процесса обучения. М.: Просветление. 1982, 108 с.
3. *Васильева М.С., Сморокова М.И., Светловская Н.Н.* Актуальные проблемы методики обучения чтению в начальных классах. М.: Просвещение, 1997, 95 с.
4. *Божович Л.И.* Проблемы формирования личности / под. ред. Д.И.Фельдштейна, 2-е издание. М.: Издательство «Институт практической педагогики», Воронеж: НПО «МОДЕК», 1997, 352 с.
5. *Маков Б.В.* Становление формальных методов в логике отношений: дис. … канд. филос. наук. Санкт-Петербург. 2001, 155 с.
6. *Оморокова М.И.* Оценочные элементы в словарном запасе младших школьников // Развитие речи / Под ред. Н.С.Рождественский. М.: Просвещение, 1970, 158 с.
7. *Светловская Х.Х.* Внеклассное чтение в 1 классе. М.: Просвещение, 1981, 200 с.
8. *Тихомиров Д.Т.* Развитие, умение читать самостоятельно. Барнаул: Изд-во Алт. ун-та, 1989, 65 с.
9. *Ушинский К.Д.* Сборник сочинений. М.: АПН РСФСР, 1949, 266 с.


Redaksiyaya daxil olub 21.11.2023

*УДК 159.9*

***С.Т.Эстрова***
*Национальная академия авиации*
*sabinaestrova@gmail.com*

# МОДЕЛЬ ПСИХОГРАММЫ ИНСТРУКТОРА-ДИСПЕТЧЕРА УВД (УПРАВЛЕНИЯ ВОЗДУШНЫМ ДВИЖЕНИЕМ)

***Ключевые слова****: психограмма, психологическая готовность инструктора-диспетчера УВД, психограмма инструктора-диспетчера УВД, компетенции, профессионально-важные качества.*

В статье обосновывается необходимость разработки модели психограммы успешного инструктора-диспетчера УВД и её связь с понятием «компетенция», описанным в руководящих авиационных документах. Приводится исторический обзор литературы, охватывающий исследования психограммы в мире, а также профессионально-важных качеств и других различных аспектов и показателей эффективности деятельности диспетчеров УВД. В ходе исследования была проанализирована авиационная нормативная документация и научная литература в данной области. Были применены методы включённого наблюдения и аудиозаписи процесса обучения на рабочих объектах. Также были проведены беседы с инструкторами, руководителями полётов и другими экспертами в области УВД. Разработанная в ходе исследования модель психограммы включает в себя: индивидуально-психологические свойства, познавательные и эмоционально-волевые психические процессы и психические состояния. Результаты могут быть применены при отборе кандидатов на должность инструктора-диспетчера УВД, при обучении и повышении квалификации.

***S.T.Estrova***

# HAVA HƏRƏKƏTİNİN İDARƏ EDİLMƏSİ (HHİE) DİSPETÇER TƏLİMATÇININ PSİXOQRAMININ MODELİ

***Açar sözlər****: psixoqramma, HHİE dispetçer təlimatçısının psixoloji hazırlığı, HHİE dispetçer təlimatçısının psixoqramı, səriştələr, peşəkar əhəmiyyətli keyfiyyətlər*

Məqalədə uğurlu HHİE dispetçer təlimatçısının psixoqram modelinin işlənib hazırlanmasının zəruriliyi və onun aviasiya sənədlərində təsvir olunan “səriştə” anlayışı ilə əlaqəsi əsaslandırılır. Dünyada psixoqram, eləcə də HHİE dispetçerlərinin peşəkar əhəmiyyətli keyfiyyətləri və digər müxtəlif aspektləri və fəaliyyət göstəriciləri ilə bağlı araşdırmaları əhatə edən ədəbiyyatın tarixi icmalı verilir. Tədqiqat zamanı bu sahədə aviasiya normativ sənədləri və elmi ədəbiyyat təhlil edilib. İş yerlərində təlim prosesinin iştirakçılarının müşahidəsi və audio yazısı üsullarından istifadə edilmişdir. Təlimatçılar, uçuş rəhbərləri və HHİE sahəsində digər mütəxəssislərlə də söhbətlər

aparılıb. Tədqiqat zamanı hazırlanmış psixoqram modelinə aşağıdakılar daxildir: fərdi psixoloji xüsusiyyətlər, idrak və emosional-iradi psixi proseslər və psixi vəziyyətlər. Nəticələr HHİE dispetçerinin təlimatçısı vəzifəsinə namizədlərin seçilməsində, təlim və təkmilləşdirmə zamanı istifadə edilə bilər.

***S.T.Estrova***

**MODEL OF THE PSYCHOGRAM OF AN ATC (AIR TRAFFIC CONTROL) INSTRUCTOR**

***Keywords**: psychogram, psychological readiness of an ATC instructor, psychogram of an ATC instructor, competencies, professionally important qualities*

The article substantiates the need to develop a psychogram model of a successful ATC instructor and its connection with the concept of “competence” described in governing aviation documents. A historical review of the literature is provided, covering studies of the psychogram in the world, as well as professionally important qualities and other various aspects and performance indicators of ATC. During the study, aviation regulatory documentation and scientific literature in this area were analyzed. Methods of participant observation and audio recording of the learning process at work sites were used. Conversations were also held with instructors, supervisors and other experts in the field of air traffic control. The psychogram model developed during the study includes: individual psychological properties, cognitive and emotional-volitional mental processes and mental states. The results can be used when selecting candidates for the position of ATC instructor, during training and advanced training.

## Введение в проблему

В связи с изменением подхода к человеческим ошибкам в авиации, более глубокому, системному видению первопричинных факторов, ведущих в дальнейшем к ошибкам, пересматриваются и все процессы, влияющие в последствии на работу авиационного персонала. Упрочивается тенденция рассматривать процесс обучения, как один из факторов, от эффективности которого будет зависеть вся дальнейшая работа авиационных служб. Наряду с пилотами, штурманами и другими авиационными службами, входящими в авиационно-транспортную систему, обучение диспетчеров УВД (управления воздушным движением) также подвергается тщательному анализу под разными углами исследования. В частности, рассматриваются не только программы обучения, повышения квалификации и переобучения диспетчеров, но и личность специалистов, осуществляющих эти процессы. С выходом в свет поправки 7 документа 9868 ICAO (международной организации гражданской авиации) «Правила аэронавигационного обслуживания. Подготовка персонала. Издание 3. 2020» появилось чёткое определение

понятия «компетенция», подробное описание профессиональных функций и поведения инструкторов-диспетчеров УВД в процессе обучения [9]. Тем не менее, остаётся неизученным ещё ряд областей. В частности, не разработана основа для создания психограммы успешного инструктора-диспетчера УВД, необходимая для отбора на эту должность. Следует отметить ряд научных работ, затрагивающих смежные области исследования. Так, С.К.Солдатов, К.И.Засядько, А.В.Богомолов, А.П.Вонаршенко и А.В Соломка, М.А. Дмитриева и Г.В.Суходольский, Т.А. Ковалькова и др. исследовали профессионально-важные качества диспетчеров УВД [4; 1; 3]. Также можно выделить ряд исследований, охватывающих стратегии инструкторов в процессе обучения, психологические трудности и барьеры инструктора в процессе обучения, психографический анализ деятельности инструктора [10; 8].

Ссылаясь на исследования А.К.Марковой, Дмитриевой, Суходольского, Е.М.Ивановой, В.А.Толочек определяет психограмму, как «психологический «портрет» профессии, представленный группой психологических функций, актуализируемых данной профессией» [6, с.237; 4; 1; 2]. Сам термин «психограмма» впервые упоминается В.Штерном, немецким психологом, чьи труды в определении психологического портрета конкретной личности в начале XX века внесли существенный вклад в понимание профессионализма и профессионально-важных качеств и составлении типового портрета успешного профессионала. Разработка обобщенной схемы профессиограммы была сделана Э.Ф.Зеером. Большой вклад в исследование разработку основ и различных классификаций психограммы сделали В.Штерн, С.Г.Геллерштейн, В.Е.Орел, Н.А.Логинова.

**Организация и проведение исследования**

Основной целью нашего исследования было создание модели психограммы инструктора-диспетчера УВД. Объектом исследования служит основа для создания психограммы инструктора-диспетчера УВД. Предмет исследования – особенности психограммы инструктора-диспетчера УВД. Для реализации поставленной цели было поставлено несколько задач: 1) выявление психологически значимых индивидуально-психологических личностных особенностей, качеств и свойств, определяющих портрет инструктора-диспетчера УВД; 2) изучение и анализ уровня проявления психологически значимых индивидуально-психологических личностных особенностей, качеств и свойств инструктора-диспетчера УВД. Для разработки модели психограммы на первом этапе была проанализирована научная литература в данной области и рабочая документация, регламентирующая деятельность инструктора-диспетчера УВД и описывающая особенности рабочих

процессов как диспетчеров УВД, так и непосредственно самого инструктора-диспетчера УВД. Также были исследованы функции и критерии компетенций поведения инструктора-диспетчера УВД в процессе обучения, описанные в руководящем документе ICAO Doc. 9868. Затем были исследованы показатели эффективности профессиональной деятельности инструктора-диспетчера УВД, используя разработанный нами ранее психодиагностический инструментарий и затем предложенную модель профессиограммы инструктора [8].

На втором этапе исследования были применены методы наблюдения за работой инструкторов-диспетчеров УВД на этапах обучения стажёров на симуляторе (тренажёре) и объекте «Вышка» («Башня») посредством включённого наблюдения и аудиозаписи процесса обучения. Второй этап был проведён на базе предприятия «Азераэронавигация» в городе Баку. Также были проведены беседы с диспетчерами УВД, инструкторами, руководителями полётов и асессорами. Были использованы данные специально разработанного Опросника экспертных оценок «Пригодность к работе инструктором-диспетчером УВД».

Для создания модели психограммы был определён индивидуально-психологический профиль личности инструктора-диспетчера УВД. В профиль были включены все необходимые составляющие для эффективного выполнения им профессиональной деятельности. Психологическая готовность к данной деятельности рассматривалась сквозь призму психической структуры личности, состоящей из:

✓ индивидуально-психологических свойств (темперамент, характер, способности);

✓ познавательных психических процессов (внимание, память, мышление, речь и т.д.);

✓ эмоционально-волевых процессов;

✓ психических состояний (готовность к работе, стрессоустойчивость, способность выполнять деятельность в условиях монотонии и т.д.).

На основании разработанных ранее нами основ для профессиографического анализа деятельности инструктора-диспетчера УВД и Опросника экспертных оценок «Пригодность к работе инструктором-диспетчером УВД» были выделены следующие индивидуально-психологические качества и особенности: ответственность, решительность, умение координировать и взаимодействовать, внимательность, высокая сосредоточенность на задаче, требовательность, стрессоустойчивость, эффективное использование рабочего времени, педагогические способности, умение

отстаивать свою точку зрения, контактность, порядочность и честность, авторитет, тактичность (педагогический такт), инициативность, эмоциональность, эмпатия, доброжелательность, культурный уровень (общий уровень культуры). К вышеуказанным свойствам следует добавить требования к компетенциям инструктора-диспетчера УВД, согласно поправке 7 документа ICAO Doc. 9868. Сюда включены следующие черты: объективность, справедливость, честность, умение слушать, гибкость в поведении.

